www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   2 aprel 2015-ci il   Cümə axşamı   № 68 (6096)   Qiymәti 40 qəpik

**Xəbər**

## Kəlbəcərin işğalından 22 il keçdi

yazısı səh.2-də

**Gündəm**



### "Azərbaycan və Türkiyə əleyhinə formalaşdırılan qərəzli stereotiplər dağıdılıb"

Əli Həsənov xüsusi bəyanatla çıxış etdi: "Erməni dairələrinin təxribatçı fəaliyyəti Azərbaycan-Rusiya münasibətlərinə kölgə sala bilməz"

yazısı səh.9-da

### Mehman Əliyevi zəhərləyiblər?

yazısı səh.2-də

### Müsavatçı Fərəc Kərimlinin məhkəməsində qarşıdurma yarandı

yazısı səh.3-də

### Leyla Yunusun sol gözü görmə qabiliyyətini itirir

yazısı səh.2-də

*Qızından İntiqam Əliyevə duyğusal məktub:*

### "Ən böyük mühakimə vicdan məhkəməsindədir"

yazısı səh.3-də

### AXCP daxilində gərginlik

yazısı səh.7-də

### Türkiyədəki elektrik böhranı Azərbaycanda yaşana bilərmi?

yazısı səh.12-də

*Çingiz Abdullayev:*

### "Ümumiyyətlə, futbolda hər şey dəyişməlidir"

yazısı səh.10-da

### Avropa Oyunlarını işıqlandırmaq istəyən müstəqil qəzetlərə "qırmızı işıq"

yazısı səh.13-də

### Elman Rüstəmov dollarla götürülən kreditlər məsələsinə nöqtə qoydu

yazısı səh.12-də

### "Qarabağ qazisi intihar həddinə çatıb"

yazısı səh.13-də

### Bakıda gözətçi özünü yandırdı

yazısı səh.14-də

## Sabiq nazirlə bağlı yeni şok faktlar

# SƏFƏR ƏBİYEV AZƏRBAYCANIN DAĞLARINI NECƏ SATIRMIŞ

Tovuzdakı nəhəng seolit yatağından hər il əldə edilən 130 milyon dollar keçmiş müdafiə nazirinin cibinə axıb; ona bu talançılıqda yaxın adamı Elçin Xəlilov yaxından kömək edib; ölkənin ən strateji məhsullarından biri Qara dəniz üzərindən Avropaya daşınır...



yazısı səh.5-də

## Qardaş Türkiyəni qarışdıran xain əllər kimindir - adlar çəkilir...

İki gündə 3 silahlı terror, bir texnogen qəza baş verdi; Azərbaycanın sabiq baş naziri "narahatıq", dedi, PKK-nı hədəf göstərdi; Türkiyə ekspertləri, iqtidar və müxalifəti isə...

yazısı səh.8-də



Həsən Əliyev

### Sabiq hakimə 7 il həbs cəzası verildi

yazısı səh.2-də



*Hamid Karadeniz:*

### "Kim Türkiyəyə, Azərbaycana qarşı necə davranacaqsa, qarşılığını görəcək"

yazısı səh.11-də



*Arif Hacılı:*

### "Böyük ehtimalla Müsavat bu seçkilərdə təkbaşına iştirak edəcək"

yazısı səh.6-da




*Müsavat Partiyasının başqanı Arif Hacılı İzzət Məmmədovu 65 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:*

*"Hörmətli İzzət bəy!*

*Sizi 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, Sizə cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Siz Azərbaycan Xalq Hərəkatının iştirakçısı kimi ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal üzvlərindən biri olmusunuz. 1995-ci ildən Müsavat Partiyasının üzvü, 2004-cü ildən isə partiyanın Cəbrayıl rayon təşkilatının sədri kimi bu təşkilatın uğurlu fəaliyyətində müsavatçılıq ideyalarının təbliği və yayılmasında fəaliyyət göstərmisiniz. Sizi tanıyan insanlar və əqidə yoldaşlarınızın arasında böyük hörmət qazanmısınız. Müsavat Partiyasının keçirdiyi tədbirlərin fəal iştirakçılarından birisiniz. Təqib və təzyiqlərə baxmayaraq öz əqidənizə sadiq qalmısınız.*

*Siz mehriban, qayğıkeş bir ailə başçısı, ata və babasınız. Əminəm ki, bundan sonra da hər zaman övladlarınız, nəvələriniz Sizi tanıyanlar Sizinlə qürur duyacaqlar.*

*Hörmətli İzzət bəy!*

*Sizi bir daha 65 illik yubileyiniz münasibətilə təbrik edirəm, cansağlığı, şəxsi həyatınızda və fədakar mübarizənizdə uğurlar arzulayıram".*

# Kəlbəcərin işğalından 22 il keçdi

**Aprelin 2-də Azərbaycanın qədim yaşayış məskəni Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğal edilməsindən 22 il keçir. 1936 kvadrat kilometr ərazisi, 60 min əhalisi, 128 kəndi olan Kəlbəcər rayonu Qarabağ müharibəsi başlayandan iki tərəfdən mühasirədə idi. 1992-ci ildə Laçının işğalından sonra Kəlbəcər üç tərəfdən düşmən mühasirəsində qaldı.**



Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3500 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi. Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejimin hərbi birləşmələri Kəlbəcərin mühasirədə qalmasından yararlanaraq 1993-cü il, aprelin 2-də Rusiya hərbçilərinin köməyi ilə rayonu işğal etdilər. Kəlbəcər uğrunda gedən döyüşlərdə 55 hərbçi və 220 mülki şəxs həlak olub, minlərlə sakin yaralanıb, 321 nəfər əsir götürülüb. O vaxtkı qiymətlərlə rayonun xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan dəyib.

Azərbaycanın ərazicə ən böyük rayonu olan Kəlbəcər ölkənin bir nömrəli strateji nöqtəsi sayılırdı. Qarabağın qala qapısı adlanan Kəlbəcərin işğalı ilə Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim 3500 metr hündürlükdə olan Murov yüksəkliyini ələ keçirdi. Həmçinin Dağlıq Qarabağla Ermənistan arasında ən yaxın quru yolu-Kəlbəcərdən keçməklə Ağdərə-Vardenis (Basarkeçər) rayonu yolu açılmış oldu. Məhz bu üstünlükləri əldə etdikdən sonra çox keçmədi ki, Ermənistan qısa zamanda Azərbaycanın daha 5 rayonunu işğal edə bildi.

Artıq 22 ildir Kəlbəcər əhalisi ölkənin 61 rayon və şəhərində məskunlaşıb. 1993-cü ildə BMT Kəlbəcərin qeyd-şərtsiz azad edilməsi, erməni qoşunlarının çıxarılması barədə 4 qətnamə qəbul edib. Lakin bu günədək Ermənistan həmin qətnamələri yerinə yetirməyib. BMT kimi dünyanın ən böyük beynəlxalq qurumu isə verdiyi qətnamələrin yerinə yetirilməsi üçün Ermənistana heç bir təzyiq etmir.

Kəlbəcərin azad edilməsi məsələsi uzandıqca Ermənistan bu mühüm strateji rayonu "özününküləşdirməkdə" davam edir. BMT və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcərdə ermənilərin məskunlaşdırılmasına başlanılıb və bu proses son illərdə geniş miqyas alıb. Ermənistan dünyanın gözü qarşısında daha bir beynəlxalq hüquq normalarını ötən il Kəlbəcər sakinləri olan Dilqəm Əsgərovu və Şahbaz Quliyevi girov götürməklə, Həsən Həsənovu isə güllələməklə pozmuş oldu. Baxmayaraq ki, həmin şəxslər öz doğma yurdlarına doğmalarının məzarını ziyarətə getmişdilər, işğalçı ermənilər onları öz doğma rayonlarında "sərhəd pozucusu" adı ilə girov götürdülər. Təəssüf ki, hələ Azərbaycan dövləti kəlbəcərli girovları da azad edə bilməyib. Onlar da Kəlbəcər kimi düşmən əsirliyində qalmaqdadırlar.

❑ **Etibar SEYİDAĞA**



# Sərxoş polis polkovniki saxlanıldı

**Bakıda rəis müavini sərxoş vəziyyətdə avtomobil idarə etdiyi üçün polislər tərəfindən saxlanılıb. Report.az xəbər verir ki, hadisə bir neçə gün əvvəl Bakı-Quba yolunda qeydə alınıb. Belə ki, Qaradağ Rayon Polis İdarəsinin 38-ci Polis Bölməsinin (PB) rəis müavini polis polkovnik-leytenantı Şərifov Rafiq Vaqif oğlu idarə etdiyi 90-BZ-455 dövlət qeydiyyat nişanlı "Land Rover" markalı avtomobillə kobud qayda pozuntusuna yol verdiyi üçün yol polisləri ona "Saxla!" əmri verib.**

Lakin rəis müavini yol polislərinə tabesizlik göstərərək maşını saxlamayıb. Saray qəsəbəsi ərazisindəki postda isə R.Şərifovu polislər məcburi qaydada saxlayaraq Abşeron Rayon Polis İdarəsinə (RPİ) gətirib. R.Şərifov barəsində idarədə toplanan materiallar isə artıq Daxili İşlər Nazirliyinə (DİN) göndərilib. Hazırda rəis müavini barəsində DİN-in Daxili Təhqiqat İdarəsində araşdırma aparılır. Bu araşdırmaların yekununa qədər isə R.Şərifova 38-ci PB-də işə çıxmaq qadağan edilib.

# Sabiq hakimə 7 il həbs cəzası verildi




**Gəncə Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham olunan sabiq hakim Həsən Əliyevin, habelə Elman Məmmədov və Taleh Süleymanovun 6 aydan bəri davam edən cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, hakim Mübariz Məmmədovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub. Hökmə görə, Elman Məmmədov 8 il, Taleh Süleymanov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər. Sabiq hakim Həsən Əliyev barəsində isə 7 il müddətinə həbs cəzası təyin edilib. O, məhkəmə zalındaca həbs olunub. Qeyd edək ki, dövlət ittihamçısı Anar Mirikişiyev sabiq hakim Həsən Əliyevə 10, Elman Məmmədovla Taleh Süleymanovun hər birinə isə 9 il iş istəmişdi.**

Xatırladaq ki, 2007-2014-cü illərdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim işləyən Həsən Əliyevin səlahiyyətlərinə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə ötən ilin fevral ayında xitam verilib.

Təxminən 5 ay sonra isə uzun illər prokurorluq və məhkəmə orqanlarında çalışan H.Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) və 312.2-ci (rüşvət vermə) maddələri ilə ittiham irəli sürülüb və barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib. Buna səbəb Ramazan Səlimov adlı şəxsin iddiası olub. R.Səlimov iddia edib ki, sabiq hakim ondan vəzifəyə düzəltmək vədi ilə 600 min manat pul alaraq qaytarmayıb.

# Şadman Hüseynin oğluna hökm oxundu - 10 il...



**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Şaiq Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən, Ş. Hüseynov 10 il müddətinə azadlıqdan məhrum edilib. İttihama görə, Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Xətai Rayon Şöbəsində keçmiş icra məmuru Hüseyn Şaiq Şadman oğlu 12 aprel 2014-cü ildə həbs edilib. Məhkəmə onun barəsində həbs-qətimkan tədbiri seçib. Ş.Hüseynov dələduzluqda ittiham olunur.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Leyla Yunusun sol gözü görmə qabiliyyətini itirir...

## Hüquq müdafiəçisi ilə görüşən vəkili həyəcan təbili çaldı

**Həbsdəki Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunusun səhhətində yaranan problemlər pik həddə çatıb. Hüquq müdafiəçinin gözləri tamam tutulmağa başlayıb. Aprelin 1-də SDİ rəhbəri Ədliyyə Nazirliyinin həkimi tərəfindən müayinə olunub.**

Bu barədə musavat.com-a aprelin 1-də Leyla Yunusla görüşən vəkil Elçin Qəmbərov məlumat verib: "Leyla xanımla görüşdüm. Ədliyyə Nazirliyinin həkimi də gəlmişdi. Sol gözü artıq görmə qabiliyyətini itirir. Vaxtilə o, gözündən əməliyyat olunub. Həkim demişdi ki, insan həbsxanada olanda, yaxud ağır xəstəliklə üz-üzə qalanda belə vəziyyət yaranır və nəticədə gözün pərdəsi qaralır. Həkim bəzi dərmanları yazdı. Amma bu onun müalicəsi üçün yetərli deyil. Göz həkimi sadəcə dərmanları yazdı. Orqanizmi tamam zəifləyib. Bununla bağlı müvafiq müraciətlər edəcəyik. Tədbir görülməsə, tamam görmə qabiliyyətini itirəcək. Çəkisi də gün-gündən azalır. Leyla Yunusun əsas narahatçılığı səhhəti ilə bağlıdır. Çox ciddi problemdir. Saxlanma şəraiti və yemək aparılmasında problem yoxdur".

Vəkil hüquq müdafiəçisinin həbs müddətinin 5 ay uzadılması ilə bağlı verdikləri apelyasiya şikayətinin zamanının hələ də müəyyənləşmədiyini də qeyd etdi.

Xatırladaq ki, Leyla Yunus ötən il iyulun 30-da həbs edilib. Onun həyat yoldaşı Arif Yunus da həbsdədir. O, avqustun 5-də tutulub. Onlar dövlətə xəyanətdə və maliyyə cinayətlərində ittiham olunurlar.

❑ **Cavanşir ABBASLI**

# Mehman Əliyevi zəhərləyiblər?

## Baş redaktor: "İnfeksion proses gedir, aləm dəyib bir-birinə"

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin səhhətində problemlər yaranması, daha dəqiq desək, zəhərlənməsi barədə redaksiyamıza məlumat daxil olub. Bunu onun özü ilə dəqiqləşdirmək üçün əlaqə saxladıqda isə məlum oldu ki, səhhəti ilə bağlı xəbərlər şişirdilib.**




Belə ki, M.Əliyevin səhhətində martın 22-dən etibarən yaranan problemlər bu günə qədər davam etsə də, bunun zəhərlənmə ilə əlaqəsi yoxdur: "Soyuqdəymə ilə infeksiya üst-üstə gəlib. Hər şey idmandan başladı. İdmanda "naqruzka"nı çox verdim. Ardınca da özümü soyuğa verdim. Ondan başladı. Bir az sonra soyuğa verdim, infeksiyaya keçdi. Aləm dəydi bir-birinə. Həkim dedi ki, gərək uzanasan, sənin əzələlərin sıradan çıxıb. İynə vurdurdum, kurs keçdim. İndi evdəyəm. Bir neçə gün də evdə olacağam ki, tam düzəlim".

M.Əliyev dedi ki, həkimin qoyduğu diaqnoz soyuqdəymə və infeksiyadır. Onun sözlərinə görə, hazırda infeksion proses gedir: "Zəhərlənmə ilə əlaqəsi yoxdur. Bəlkə də zəhərləmək istəyirlər, amma zəhəri tapa bilmirlər". *(gülür)*

❑ **SEVİNC**

# Türkiyənin tanınmış media nümayəndələri Bakıya gəlir

**Aprelin 2-dən 5-dək Azərbaycan Mətbuat Şurasının dəvəti ilə Türkiyənin tanınmış kütləvi informasiya vasitələrinin təmsilçiləri ölkəmizdə səfərdə olacaqlar. Qardaş ölkənin "Sabah", "Posta", "Hürriyyət" qəzetlərinin, Fox, NTV, ATV, "Kanal A", "CNN türk" və digər telekanallarının, həmçinin Anadolu Agentliyinin məsul şəxslərindən ibarət nümayəndə heyətinə Türkiyə Qəzetəcilər Federasiyasının rəhbəri Mehmet Ali Dim başçılıq edəcək.**

Səfərdə məqsəd Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə daha yaxından çatdırılması istiqamətindəki aparılan fəaliyyətə dəstək göstərməkdən, o cümlədən I Avropa Oyunları ilə bağlı həyata keçirilməkdə olan işlərin geniş şəkildə işıqlandırılmasını təmin etməkdən, hər iki ölkə mediası arasındakı əməkdaşlığı daha da dərinləşdirməkdən ibarətdir.

MŞ-nin beynəlxalq əlaqələr komissiyasının müəyyənləşdirdiyi səfər proqramına əsasən qonaqlar Azərbaycan Respublikası Prezidentinin Administarsiyasında, Azərbaycan Respublikasının Milli Məclisində, Heydər Əliyev Mərkəzində, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasında, I Avropa Oyunlarının Təşkilat Komitəsində, ADA Universitetində və Azərbaycan Mətbuat Şurasında görüşlər keçirəcək, həmçinin paytaxtdakı idman qurğuları ilə tanış olacaqlar.

❑ **SEVİNC**



# Asim Mollazadə ABŞ səfirinin müşaviri ilə görüşüb

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ABŞ-ın Azərbaycandakı səfirinin siyasi işlər üzrə müşaviri Syuzan Çeşli ilə görüşüb. Partiyanın mətbuat xidmətinin məlumatına görə, görüşdə Azərbaycan-ABŞ əlaqələri, ölkələrimiz arasındakı əməkdaşlıq perspektivləri, regiondakı və Azərbaycandakı ictimai-siyasi vəziyyət, regional münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunub.**

Asim Mollazadə qonağa partiyanın fəaliyyəti barədə ətraflı məlumat verib. Görüşdə ABŞ səfirliyinin siyasi məsələlər üzrə mütəxəssisi Afaq Cavadova da iştirak edib.

❑ **Vüqar MURAD**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Fərəc Kərimlinin məhkəməsində şahidlə qarşıdurma

## Əməliyyatçının yalan ifadələri zalı ayağa qaldırdı; şahidlərin ifadələrində ziddiyyətlər ortaya çıxdı



**Aprelin 1-də Bakı Ağır Cinayətlər Məhkəməsində Müsavat başqanının müavini Fərəc Kərimlinin məhkəmə istintaqı başladı. Prosesdə Müsavat başqanı Arif Hacılı, partiya rəhbərliyi və fəalları iştirak edirdilər.**

**Şəkər Məmmədovanın sədrliyi ilə məhkəmə şahidlərin ifadələri ilə başladı. İlk olaraq, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı, F.Kərimlinin həbsini həyata keçirən qrupun rəhbəri Ceyhun İmamverdiyev ifadə verdi: "22 iyul 2014-cü il tarixində idarəyə Fərəc Kərimli adlı şəxsin qanunsuz şəkildə narkotiklə məşğul olması barədə məlumat daxil oldu.**

İdarə rəhbərliyi tərəfindən əməliyyata razılıq verildi. Əməliyyat qrupuna mən rəhbərlik edirdim. 23 iyul tarixində saat 11-12 radələrində "Azadlıq" prospekti ərazisində 114 saylı yaşayış binasının qarşısında onu saxladıq. Əməliyyat 20-25 dəqiqə çəkdi. Onun həbsində iki nəfər iştirak edirdik. Fərəc Kərimliyə bizimlə idarəyə getməsini bildirdik. İdarəyə iki nəfər hal şahidi dəvət etdik. Hal şahidlərini mən idarənin qabağından, "Gənclik" metro stansiyasından üzüaşağı düşən yoldan dəvət etdim. Müdafiəçi də çağırdıq. Təxminən 20 dəqiqəyə müdafiəçi gəldi. Hal şahidlərinin iştirakı ilə Fərəc Kərimlinin üzərinə baxış keçirildi. Onun üstündən 1 ədəd telefon, pul və arxa cibindən sellofana bükülmüş heroin aşkar olundu. Özü etiraf etdi ki, 5 gün əvvəl yaşadığı evin qarşısında yerdən götürüb. Protokola özü qol çəkdi. Narkotiki ekspertiza göndərdik".

Şahidin ifadəsindən sonra suallar verildi. O, müdafiə tərəfinin vəkili Nemət Kərimlinin əksər suallarından yayındı. "Xatırlamıram, hadisənin üstündən 9 ay keçib" tipli cavab verirdi. Hətta vəkilin "sizə əməliyyat barədə kim tapşırıq verib" sualına açıq şəkildə "bilmirəm" cavabını verdi.

N.Kərimli çıxışında şahidin ifadələrində ziddiyyətli məqamların olduğunu və təqsirləndirilən şəxsin ifadəsi zamanı çarpaz dindirmə təyin edilməsini tələb etdi.

**Təqsirləndirilən şəxsin şahidə sualı daha gözlənilməz oldu:** "Qondarma Dağlıq Qarabağ Respublikası"nda mühakimə olunan girovlarımızın üzünə duran ermənilərlə sənin fərqin nədir?".

Bundan sonra məhkəmədə dava düşdü. Proses iştirakçıları yalan ifadə verdiyinə görə C.İmamverdiyevi tənqid atəşinə tutdular. Şahid onları küçə söyüşləri ilə təhqir etdi. Polislər məcburiyyət qarşısında qalıb, onu zalın arxa qapısından çıxardılar. C.İmamverdiyevə verilən suallar yarımçıq qaldı.

**Məhkəmə hal şahidi Rövşən Məmmədovun ifadələri ilə davam etdi:** " Fərəc Kərimlini ilk dəfə idarədə gördüm. Məni ora 23 iyul tarixində idarənin əməkdaşı Ceyhun adlı şəxs dəvət etdi. O, mülkü geyimdə idi. Məndən hal şahidi olmağı xahiş etdi. Yanımda Fərəc Kərimlinin üzərinə baxış keçirdilər. Üstündən 20 manat məbləğində pul, telefon və arxa cibindən sellofana bükülmüş heroin çıxdı. Özü bildirdi ki, 5 gün qabaq evlərinin qarşısında yerdən götürüb".

**Nemət Kərimli şahiddən işlədiyi yer və ustanın adını soruşdu. O, maraqlı cavab verdi:** "Mən burada kiminsə adını çəkmək fikrində deyiləm. Ustanın adının işə nə dəxli var?" Prokuror və hakim də suala etiraz etdi. Nəticədə sual cavabsız qaldı. Şahid əksər suallara cavab vermədi.

**Fərəc Kərimli isə şahidə bu sözləri dedi:** "Sən narkoman adamsan. Məni aldatdın. İdarədə üzümə durdun. İndi gəlib burada hal şahidi kimi çıxış edirsən. Sənə narkoman olduğuna görə heç bir sualım yoxdur".

Hakim digər iki şahidin məhkəməyə gəlmədiyini elan etdi. Növbəti prosesə onların məcburi şəkildə gətirilməsi barədə qərar qəbul edildi.

**Proses 8 aprel saat 11:00-a təxirə salındı.**



**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# "Ən böyük mühakimə vicdan məhkəməsindədir"

## Qızı İntiqam Əliyevə duyğusal məktub yazdı; **Nərmin Kamilsoy**: "Belə vicdanlı atam olduğuna görə..."

**Həbsdəki Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin martın 31-də keçirilən məhkəmə prosesində qızı Nərmin Kamilsoya etdiyi təsirli müraciət barədə xəbər vermişdik. Hüquq müdafiəçisi müraciətinin sonunda qızına " övladım olmaqdan peşmançılıq hissi keçirirsənmi?" sualını vermişdi.**

**Nərmin Kamilsoy** məhkəmədən sonra atasına məktub ünvanlayıb. O yazır: "Məhkəmədə sual verdin ki, özəl günlərdə yanımızda ola bilmədiyinə, bizimlə daha çox maraqlanmağa vaxtın olmadığına, bizə gələcəkdə yaşadacağın çətinliklərə və məhrumiyyətlərə görə "mənim qızım olduğun üçün məyusluq hissi keçirirsənmi?" Təəssüf ki, verdiyin sualı məhkəmədə cavablandırmağıma imkan vermədilər. Və yazmaq qərarına gəldim. Yazıram ki, hamı bilsin biz səninlə necə fəxr edirik.

Düzdür, sənin doğum günlərimizdə, məktəbə, universitetə başlayanda, xəstə olanda yanımızda olmağını istəyərdik. Amma biz bilirik ki, bizdək ideallar uğrunda mübarizə aparanların məhrumiyyətləri də böyük olur. Mənim ad günlərim olanda həbsdə mən yaşda gənclər yatırdılar və onların da doğmaları yanlarında olmurdular. Sən və həbsdəki dostların vaxtınızı onların azadlığa çıxmasına sərf edirdiniz. Elə həbsindən 2 həftə sonra dünyaya gələn Arazın da 2 həftədən sonra 2 yaşı olacaq, Rəşadət Axundov bu doğum günündə də onun yanında olmayacaq.

Düzdür, sənə görə bizə heç yerdə iş verməyəcəklər, dövlət orqanlarında, banklarda, şirkətlərdə işləyə bilməyəcəyik, xaricdə təhsil üzrə Dövlət Proqramından təqaüd də ala bilməyəcəyik, heç sabah Vəkillər Kollegiyasına da qəbul etməyəcəklər. Amma ataların, özlərinin ictimai fəaliyyətinə görə bu çətinlikləri yaşayan tək gənclər də biz deyilik, biz heç kimin övladından da artıq deyilik.

Düzdür, heç bizim təhsilimizlə də maraqlanmamısan. Məktəbi nə vaxt qurtarıb, universitetə qəbul olmağımızdan da xəbərin olmayıb. Amma gecə-gündüz yatmayıb kitablar yazmısan, ölkənin hər bölgəsində seminar, təlimlər keçib gəncləri cəlb etmisən. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin yetişdirdiyi qədər illərlə hüquqşünas, tələbələr yetişdirmisən. Elə tələbələr ki, səsləri dünyanın müxtəlif ölkələrindən gəlir, həmişə onlardan fəxrlə danışırsan.



Nərmin Kamilsoy

Hə, sən və həbsdəki dostların təkcə bizim yox, ölkədəki bütün gənclərin təhsili üçün mübarizə aparırdınız. Çalışırdınız ki, Cabbarların, Şahinlərin, Ömərlərin, Məmmədlərin təhsili yarımçıq qalmasın.

Düzdür, biz 20 il ərzində 3 otaqlı, balaca bir mənzildə yaşamışıq. Hər cür imkanların ola bilərdi ki, biz həqiqətən yarım milyonluq villada yaşayaq. Amma insanların ev-eşiksiz, mənasız tikililərə görə evləri sökülüb kompensasiyasız qaldığı bir vaxtda sən daha yaxşı yaşamaq haqqında düşünə bilməzdin. Əksinə, onların pozulmuş hüquqlarını müdafiə etməklə vicdanlarını rahatladırdın.

Sənin və həbsdəki dostlarının etdikləri bizim daha yaxşı cəmiyyətdə yaşamağımız üçün idi. Mübarizə aparırdınız ki, insanlar fərqli fikirlərinə, düşüncələrinə görə təqiblərə məruz qalmasınlar, həbs olunmasınlar. 7-8 yaşlı Aysellər, Zeynəblər ataların məhkəmələri önündə gözləməsinlər, təcridxanalarda şüşə arxasından atalarını qucaqlamaq istədiklərinə görə göz yaşı tökməsinlər.

Həm səninlə, həm azadlıqda mübarizə aparan, həm də övladlarının daha ədalətli cəmiyyətdə yaşamaları uğrunda azadlıqlarından keçən dostların və dostlarımızla qürur duyuram. Arzu edirəm ki, haqqınızda siyasi sifarişi verənlərin, bu sifarişləri icra edənlərin də övladları onlarla belə fəxr etsinlər, bir gün ataların qurduqları qanunsuz, sifarişli məhkəmələrin qurbanlarına çevrilməsinlər.

8 aydır ki, şüşə arxasından görüşməyimiz və bu müddət ərzində bir dəfə də qucaqlaşıb bir-birimizə toxuna bilməməyimiz də bizim mübarizə əzmimizi qıra bilməz. Ən böyük mühakimə vicdan məhkəməsindədir. Sən isə həmin məhkəmədən mənəvi qələbə ilə çıxmısan. Belə vicdanlı atam olduğuna görə təəssüf yox, ancaq fəxr hissləri keçirə bilərəm".

**❑ Cavanşir ABBASLI**

# Demokratiyanın düşməni



**Azər RƏŞİDOĞLU**

**Müasir dövrümüzə nəzər saldıqda, "neft ağaları"nın özlərini dünyanın sahibi kimi apardıqlarını müşahidə edirik. Neft pullarının zəngin etdiyi "yaxşı" oğlanlar vaxtlarını əla və çox dəbdəbəli keçirirlər.**

Bundan əlavə, neftlə zəngin ölkələr getdikcə dünyaya meydan oxumaqdadırlar. Neftlə zəngin Rusiyada hakimiyyət başına gələn Vladimir Putin "qara qızıl"dan gələn gəlir hesabına opponentlərini zindana saldı və SSRİ-ni bərpa etməyə girişdi.

Neft və qaz pulları ilə dolu Nigeriya, Özbəkistan, Anqola, Səudiyyə Ərəbistanı, Çad və Suriya ən kövrək demokratik addımlardan rahatca imtina edirlər.

Neft və demokratik təsisatlar tərs mütənasib olaraq qalırlar. Siyasi təhlilçilərin sözlərinə görə, neftdən asılılıqla avtoritarizmin güclənməsi arasında birbaşa əlaqə mövcuddur. Bu özünü Yaxın Şərq və Şimali Afrika ölkələrinin timsalında daha bariz nümayiş etdirir ki, onların sırasına Azərbaycanı da aid etmək olar.

Bu gün Qərb geosiyasət, enerjidaşıyıcıları maraqları, anti-Rusiya koalisiyasında yer almaq kimi məsələlər barədə Bakı ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirir, bölgədə sabitliyin qorunub saxlanılmasını arzu edir, demokratiya ilə bağlı tələblərini isə birmənalı şəkildə dondurur.

Qərb üçün Rusiya ilə savaşda rəsmi Bakı gözəl tərəfdaşdır. Elə buna görə də Vaşinqton avtoritar rejimlərin müttəfiqi simasında çıxış edir.

Lakin  Rusiya siyasi elitası özü də anlayır ki, gələcək perspektiv Avropa ilə əməkdaşlıqla bağlıdır.

Məhz buna görə də Rusiya siyasi elitası pullarını Avropa banklarında saxlayır. Rusiya siyasi hakimiyyətinin ən yüksək pilləsində təmsil olunan simaların övladları Avropada təhsil alır, orada biznes fəaliyyəti ilə məşğul olur. Biznes maraqları, təhsilin və səhiyyənin səviyyəsinə, insan kimi yaşamağa görə də Avropa daha təhlükəsizdir.

ABŞ və müttəfiqlərinin regionun sərvətlərinə, resurslarına çıxışda açar rolu oynamalı olan Xəzər hövzəsinə və Azərbaycana olan marağı hələ SSRİ dövründə yaranmışdı. Ekspertlərə görə, Rusiya və ABŞ arasında təhlükəli geosiyasi qarşıdurma şəraitində neft müqaviləsinin imzalanmasına müvəffəq olan Əliyev hakimiyyəti bu gün də öz nüfuzunu qoruyub saxlaya bilib. Əslində müqavilə ölkə üzərində Amerikanın təhlükəsizlik çətirini açmağa və gənc müstəqil dövlətin dinc şəkildə qurulması üçün şərait yaratmağa imkan verdi.

Müqavilə Bakının sözdə deyil, əməldə daha dəqiq qərbyönümlüyünü əks etdirdi və o, Cənubi Qafqazda və Xəzər hövzəsində ABŞ-ın maraqlarının irəli çəkilməsi üçün bir növ hüquqi zəmanətə çevrildi.

Bakı və Vaşinqton arasında münasibətlərin belə statusu sayəsində Qarabağ münaqişəsi dondurulmuş mərhələyə keçdi, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında hərbi-siyasi Rusiyayönümlü müxalifət məğlubiyyətə uğradı.

Rusiya-İran arasındakı Gülüstan müqaviləsinin ləğvini arzulayan İranın Azərbaycana qarşı iddiaları kəskin şəkildə məhdudlaşdı.

Müqavilənin Azərbaycanın inkişafına təsirini iki onilliyə bölmək olar. 1994-2004-cü illəri əhatə edən birinci dövr - *(bu dövrü neft hasilatına hazırlıq mərhələsi adlandırmaq olar)*, - investisiya axını, siyasi və sosial-iqtisadi sabitlik gətirdi, qeyri-hökumət təşkilatları, müstəqil KİV yarandı, siyasi plüralizm formalaşdı.

2005-2015-ci illəri əhatə edən resursların fəal şəkildə işləndiyi ikinci dövrü tənəzzül dövrü adlandırmaq olar.

Əhalinin rifahı yaxşılaşsa da, dünya siyasi azadlıqların məhdudlaşdırılmasının, müstəqil KİV və QHT-lərin məhvinin, bütün sahələrdə dövlət inhisarının və korrupsiyanın artmasının şahidi oldu. Neftin gətirdiyi fəsadlar özünü daha açıq göstərməyə başladı...

**"Yeni Müsavat" "125-lər" Siyasi Klubunun təqdimatını davam etdirir. Budəfəki qonağımız klubun sədr müavini Günel Səfərovadır. Günel xanım Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Uzun illərdir vətəndaş cəmiyyəti institutlarında yerli və beynəlxalq donorların xətti ilə sosial layihələr həyata keçirir. 2015-ci il parlament seçkisinə 21 saylı Nəsimi seçki dairəsindən qatılmağa hazırlaşır.**



## "Biz demokratik düşünən cəmiyyət qurmaq istəyirik"

# "Yaxın hədəfimiz Milli Məclisdə təmsil olunmaqdır"

## Günel Səfərova: "Sabah mən deputat olsam, seçicimin övladının oynadığı park sökülsə, susmalıyammı?"

***- Günel xanım, necə oldu "125-lər"i seçdiz?***

- "125-lər" bir ildir yaradılsa da ideya çoxdan vardı. İlk dəfə biz bu haqda Ümid Partiyasının sədri İqbal Ağazadə ilə 2010-cu ildə müzakirələr aparmışıq. Əslində "125-lər"ə qoşulana qədər siyasi fəaliyyətim olmayıb. Daha çox beynəlxalq qurumlarla, vətəndaş cəmiyyəti institutlarının tərkibində sosialyönümlü layihələrdə çalışmışam. Ancaq düşündüm ki, artıq miqyası bir qədər də genişləndirməyin, topladığım təcrübədən vətəndaşlar üçün daha geniş yararlanmağın zamanıdır. Klubda ortaq dəyərləri paylaşdığım insanlar toplaşdığına görə hesab elədim ki, siyasi karyeramı məhz burada qurmaq daha rahat olar.

***- "125-lər"in hədəfi nədir - Milli Məclisdə təmsil olunmaq, yoxsa demokratik prosesin iştirakçısı olmaq istəyirsiz?***

- Biz düşünürük ki, demokratiya hansısa konkret hadisə - seçki, ya da inqilab deyil. Mən uzun illərdir demokratiya məsələləri ilə bağlı təlimlər keçirəm. Həmin təlimlərdə də dəfələrlə vurğulayırıq ki, demokratiya yanaşmadı, baxış bucağıdır, mədəniyyətdir. Bu gün Azərbaycan qanunlarından çıxış edib deyə bilərik ki, biz demokratik ölkədə yaşayırıq. Ancaq hamımız bilirik ki, idarəetmədə çox ciddi problemlər var. Bizim yaxın hədəfimiz Milli Məclisdə təmsil olunmaqdır. Ancaq 2015-ci il seçkisi bitdisə, bu, "125-lər"in missiyasını başa vurması demək deyil. Biz uzun müddət Azərbaycandakı demokratikləşdirmə prosesinin içərisində olmaq istəyirik. Bizim təcrübəmiz gələcəkdə seçki prosesinə qoşulacaq insanlar üçün də çox yaxşı bir məktəb ola bilər. Seçki prosesinin öyrədilməsi ilə bağlı yaxşı bir ənənə yarada bilərik. Sıralarımızda 2010-cu il parlament seçkisində iştirak edən insanlar da var. Bu gün onların təcrübəsi bizim üçün olduqca faydalıdır, demək, biz də gələcəkdə indiki təcrübəmizlə siyasi proseslərə yeni qoşulan insanlara fayda verə bilərik. Çox təəssüf, Azərbaycanda bu məsələ ilə bağlı çalışan qurumların fəaliyyəti dayandırılıb. Nə ABŞ-ın Milli Demokratiya İnstitutu (NDİ) var, nə Seçki Monitorinq Mərkəzi. Hər iki qurum bağlanıb, SMM-in rəhbəri Anar Məmmədli həbsdədir. Bu gün faktiki olaraq Azərbaycanda Mərkəzi Seçki Komissiyasından başqa seçki ilə məşğul olan qurum qalmayıb. Vətəndaş cəmiyyəti institutlarının ortaya alternativlər qoymasına imkan verilmir. Ümid edək ki, bu proses yaxın zamanlarda müsbət yönə istiqamətlənəcək.

**"İnanırıq ki, hakimiyyət prosesə müdaxilə etməsə, seçicini seçkiyə gətirmək, normal seçki keçirmək mümkündür"**

***- "125-lər" indi neçə nəfərdir?***

- Hələlik 67. Sentyabra qədər rəqəm arta da bilər. Əslində bizim hədəfimiz 125 dairənin hamısında təmsil olunmaq deyil. 125 Milli Məclisdəki deputat sayını göstərən simvolik rəqəmdir. Təbii, biz 125 dairənin hamısında təmsil olunmaq arzusundayıq. Ancaq bu, bizim əsas hədəfimiz deyil. Məqsəd başladığımız prosesi aparıb yaxşı nəticə əldə etməkdir.

***- Cəmiyyətlə yetərincə işləmək təcrübəniz var. Ölkə reallıqlarına bələdsiniz. Belə bir durumda nəticələrin ədalətli olacağına inanırsızmı? "Qutudan çıxsanız" qələbənizin tanınacağına ümidiniz varmı?***

- Aydındır ki, Azərbaycanda seçki azad, şəffaf deyil. Hakimiyyətin ciddi səyləri ilə vətəndaşlar siyasi proseslərdən mümkün qədər uzaqlaşdırılıb, insanlarda seçkinin azad keçiriləcəyinə, seçki yolu ilə həyatlarının yaxşılığa doğru dəyişəcəyinə ümid qalmayıb. Bütün bunlar gerçəklikdir. Biz məhz bu durumu dəyişmək üçün siyasi mübarizəyə qoşulmuşuq. Azərbaycanın potensialı köklü dəyişikliklərə imkan verir. Biz bunun üçün bacardığımızı edəcəyik. Məqsədimiz əhalini seçkiyə gətirmək və "qutudan çıxmaq"dır. Sonra nə qərar veriləcək, nəticələr necə olacaq, onu deyə bilmərik.

**"Heç bir düşünən insan ölkəsində "müəllim yaşaya bilmirsə, getsin axşam da fəhləlik etsin" deyən deputat görmək istəmir"**

***- Əhalidə seçki prosesinə necə maraq oyatmağı düşünürsüz?***

- İşimlə bağlı həm paytaxtda, həm də regionlarda vətəndaşlarla təmaslarım çox olur. İnsanlar həyatlarından çox narazıdır. Biz sorğular keçirəndə başlanğıcda sabitliyə görə, bir sıra infrastruktur layihələrinə görə hökuməti tərifləyənlər təhsil, səhiyyə, bank sistemi, digər sosial məsələlərlə bağlı ciddi narazılıqlarını bildirirlər. Manatın devalvasiyasından sonra insanların etirazları lap çoxalıb. 2 həftə öncə manat sabit qalacaq deyən hökumətin bir gecənin içərisində manatla bağlı belə ciddi qərar verməsi insanları qəzəbləndirib. Vətəndaş heç bir halda məmurları, seçdiyi insanları yanında görmür. Döyməyə qapısı, inanmağa kimsəsi qalmayıb. İnsanların bu gün ən böyük istəyi səlahiyyət sahiblərinin onları dinləməsidir. Milli Məclisin səlahiyyət müddətinin bitməsinə qısa bir müddət qalıb, ancaq bir çox yerdə vətəndaşlar öz deputatlarını tanımır. Deputatlar yalnız seçki dönəmində öz ərazisində işləyib, seçildikdən sonra isə seçicisinin günü-güzəranı ilə maraqlanmağı unudub. Seçicinin də millət vəkili ilə bağlı gözləntiləri, düşüncələri yanlışdır. Hələ də çoxları düşünür ki, deputat yol çəkən, damı qırlayan, məhəlləni abadlaşdırandır. Biz vətəndaşlarla təlimlərdə bu baxışın yanlış olduğunu onlara anlatmağa çalışırıq. Təbii, deputat seçildiyi dairənin problemlərini bilməlidir, onların çözümü üçün hökumətlə vətəndaş arasında vasitəçilik etməlidir. Sabah mən Milli Məclisin üzvü olsam, məgər seçicimin övladının oynadığı park sökülsə, susmalıyammı? Təbii yox... Problem çözülənə qədər seçicimin yanında olmalıyam. Millət vəkili millətin səsidir. Qanunlara görə deputatlar biznes fəaliyyəti ilə məşğul ola bilməz. Onların yalnız könüllülük prinsipi ilə ictimai fəaliyyətlə məşğul olmaq səlahiyyətləri var. Biz bəzən insanlardan soruşuruq ki, siz seçici olaraq konkret deputatın seçki dönəmində məhlləniz üçün gördüyü işlərin hansı qaynaqlar hesabına başa gəldiyi ilə maraqlanmısınızmı? "Yox" cavabı alırıq. Problemlər o qədər çoxalıb, onların çözümü o qədər yubadılıb ki, insanlar bu prosesdə şəffaflıq haqqında ümumiyyətlə düşünmürlər. Bizim istəyimiz odur ki, cəmiyyətdəki bu stereotipləri dağıdaq. Əsl namizəd, əsl millət vəkili necə olmalıdır, seçiciyə onu göstərə bilək. Biz demokratik düşünən cəmiyyət qurmaq istəyirik. Biz istəyərik ki, bu ölkədə hüququ tapdalananda onu qoruya bilən vətəndaş yetişsin. Bunun üçün də bu sistemi yaradacaq mexanizmlərin yerində olmasını istəyirik. Çoxları deyir ki, bu gün ölkədə dəyişiklik mümkün deyil. İcra orqanları öz vəzifələrini yerinə yetirmir, rüşvət var, korrupsiya var, qanunlar işləmir, məhkəmələr sifarişli qərarlar çıxarır. Biz bu naqislikləri görürüksə onları bir şəkildə düzəltmək üçün nələrdənsə başlamalıyıq. Problemləri sadəcə üzə çıxarmaqla, deməklə iş bitmir, onların çözümü üçün çalışmaq gərəkdir. Biz inanırıq ki, hakimiyyət prosesə müdaxilə etməsə, seçicini seçkiyə gətirmək, normal seçki keçirmək mümkündür.



**"İnsanların bu gün ən böyük istəyi səlahiyyət sahiblərinin onları dinləməsidir"**

***- Günel xanım, siz təlimləriniz zamanı müxtəlif yaş qrupları ilə işləyirsiniz. Orta yaşlı nəsillə gənclik arasında düşüncə fərqi varmı? Yoxsa bütün təbəqələr siyasi proseslərə eyni dərəcədə biganədir, ümidsizdir?***

- Yeni nəsil fərqli düşünür. Bu sistem mexanizmi istər-istəməz bu gəncliyə uyğunlaşmaq məcburiyyətindədir. Valideynləri, yaxınları bu sistemdə çalışan, xaricdə təhsil alan xeyli sayda gənc də ölkədə demokratik dəyişikliklər etmək, Azərbaycanı daha sivil, daha azad ölkə kimi görmək istəyir. Ona görə də düşünürəm ki, ləng olsa da bu prosesin qarşısını tamamilə almaq mümkün deyil. Biz bu prosesi mümkün qədər sürətləndirmək istəyirik. Heç bir düşünən insan ölkəsində "müəllim yaşaya bilmirsə, getsin axşam da fəhləlik etsin" deyən deputat görmək istəmir. İnsanlar, xüsusən gənclər dəyişiklik istəyir.

***- Seçkiyə 21-ci dairədən qatılmağı düşünürsüz. Seçiminizin əsas səbəbi nədir?***

- Bu dairədə xeyli sayda tanışlarım, qohumlarım, tələbə yoldaşlarım yaşayır. Mən araşdırmışam, bu dairədə çox sayda orta və ali məktəb müəllimləri, həkimlər yaşayır. Nəzərə alsaq ki, mən özüm də xeyli müddətdir təlimlər keçməklə məşğulam, müəllimliyi mənə yaxın, doğma peşə hesab etmək olar. Düşündüm ki, bu təbəqə ilə mən çox rahat anlaşa, daha ciddi nəticələr əldə edə bilərəm. Biz vətəndaşlarla işləmə mexanizmləri üzərində işləyirik. Birgə səylərimizlə effektiv bir model ortaya çıxaracağımıza şübhə etmirəm. İnsanla işləməyin elə metodunu tapacağıq ki, onlar öz həyatlarına biganə yanaşmağa son qoysunlar, imkanları daxilində siyasi proseslərə qoşulsunlar. Həyatımın heç bir dönəmində mən kabinetdə oturmamışam. Regionlar gəzmişəm, insanlarla təmaslar qurmuşam, onların günlük qayğılarını öyrənməyə çalışmışam. Bir sözlə, Azərbaycan vətəndaşını ən çox narahat edən məsələləri aydınlaşdırmağa çalışmışam. Millət vəkili seçiləndən sonra da kabinetlərə qapanmaq fikrində deyiləm. Mənim, "125-lər" Siyasi Klubunda təmsil olunan digər namizədlərin timsalında seçicilər yeni bir format görəcəklər. Biz ümid edirik ki, təyin olunmayacağıq, biz seçiləcəyik.

**"Valideynləri, yaxınları bu sistemdə çalışan, xaricdə təhsil alan xeyli sayda gənc də ölkədə demokratik dəyişikliklər etmək, Azərbaycanı daha sivil, daha azad ölkə kimi görmək istəyir"**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015

# Sabiq nazirlə bağlı yeni şok faktlar

**Azərbaycan dünyada neft və qaz yataqları ilə məşhurdur. Ölkəmizin dörd bir tərəfi faydalı qazıntılar, müalicəvi su qaynaqları, bir sözlə, yeraltı və yerüstü sərvətlərlə zəngindir. Bu zənginliklər Azərbaycan məmurlarını milyonçuya çevirib. Xalqa məxsus sərvətlər oğurlanaraq ayrı-ayrı nazirlər, digər yüksək rütbəli məmurlar, onların yaxın çevrələri tərəfindən dağıdılır. Xalqın və ölkənin sərvətlərini istismar edən, yeyib-dağıdan məmurlardan biri də sabiq müdafiə naziri Səfər Əbiyev və onun ən yaxın çevrəsi olub. Tovuz rayonundakı Ağdağ seolit yatağı uzun illər Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinin sabiq rəisi, hazırda ev dustağı olan Elçin Xəlilovun nəzarətində olub.**



# Səfər Əbiyev Azərbaycanın dağlarını necə satırmış

Tovuzdakı nəhəng seolit yatağından hər il əldə edilən 130 milyon dollar keçmiş müdafiə nazirinin cibinə axıb; ona bu talançılıqda yaxın adamı Elçin Xəlilov kömək edib; ölkənin ən strateji məhsullarından biri Qara dəniz üzərindən Avropaya daşınır...





Apardığımız araşdırma nəticəsində bəlli olub ki, Azərbaycanda çıxarılan seoliti almaq istəyən xarici və yerli biznesmenlər bu gün də E.Xəlilova müraciət etməlidirlər. Daha doğrusu, E.Xəlilovun prezidenti olduğu "İntergeo-Tetis" şirkətinə. Çünki bu qiymətli mineralın çıxarılaraq xammal şəklində satılmasında əsas şəxs odur *( bu linkdə İntergeo Tetis-in seolit satışı elanı var - http://baku.all.biz/intergeo-tetis-mmc-e6891#.VRvnJHysVe8)*

Linkə daxil olub oradan şirkətin əlaqə telefonunu - 596-30-59 - əldə etdik. Kənd təsərrüfatı ilə məşğul olan şirkətin nümayəndəsi kimi "İntergeo-Tetis"in satış menecerindən mineralın istehsalı ilə bağlı bəzi məqamları dəqiqləşdirə bildik. Məlum oldu ki, hazırda Tovuzdakı seolit yatağında işlər dayandırılıb. Menecer işlərin sentyabr ayında yenidən bərpa olunacağını dedi. Satış meneceri işlərin dayanma səbəbi haqda məlumatsız olduğunu desə də, bu dayanmanın E.Xəlilovun həbsi ilə əlaqəli olmasını ehtimal etmək çətin deyil. Menecerin işlərin sentyabr ayında bərpa olunması haqda dediklərini də E.Xəlilovun məhkəmələrdəki işlərinin sentyabra qədər yekunlaşacağına dəlalət edən məqam kimi qəbul etmək olar.

Menecerdən öyrəndik ki, Tovuzda çıxarılan təbii seolit heç vaxt Bakıya daşınmayıb. Bu səbəbdən də Tovuzda tonu keyfiyyətindən asılı olaraq 130-250 manata satılıb. Təbii mineral Bakıya gəlməyibsə, bəs hara gedib? Satış meneceri "xaricə daşınır" deməklə özü də bilmədən bizə ipucu vermiş oldu...

### Seolit nədir və onun istifadə sferaları haqda bilgilər

Seolit təbii mineraldır. Onu tibb sahəsində, kənd təsərrüfatında, su təsərrüfatında, neft-qaz, parfüm sənayelərində istifadə edirlər. Dünyada ən böyük seolit ehtiyatlarına malik dövlət ABŞ-dır. Seolitdən alınan dərmanlar şişlərin zərərsizləşdirilməsində, bədəndən zərərli maddələrin çıxarılmasında, dərinin təmizlənməsində, insan orqanizmindəki maddələr mübadiləsinin normallaşmasında istifadə olunur. Kənd təsərrüfatında bu mineralın bioloji aktiv əlavə kimi quş və mal-qara yeminə qatılması da təcrübədə yoxlanılmış və müsbət nəticələr verib. Heyvandarlıqda bu mineraldan istifadə 30-40 faiz artıma, bitkiçilikdə isə daha artıq məhsul yığımına zəmanət deməkdir. Seolit təbii mənşəli süzgəcdir. Seolitdən keçirilən gölməçə, kanalizasiya suyu göz yaşı kimi duru və təmiz olur. Belə təbii süzgəcdən keçirilən suyu qaynatmadan, hər hansı dezinfeksiyaedici məhlul qatmadan içmək olur. Bu mineralın bir çox möcüzəvi xüsusiyyətləri var və alimlər hər il seolitin yeni-yeni xassələrini müəyyən etməkdədirlər.



### Azərbaycan seolitdən ildə 130 milyon dollar qazana bilər!

Tovuzdakı yatağın işlənməsinə ilk dəfə Ayaz Mütəllibovun prezidentliyi dövründə təşəbbüs göstərilib. Bu məqsədlə ABŞ-dan mütəxəssislər dəvət olunub. Azərbaycana gələn mütəxəssislər yatağın il ərzində 1 milyon ton seolit vermək gücündə olduğunu və yatağın bu templə 1 əsr işlənə biləcəyi haqda rəy veriblər. Burada haşiyə çıxaraq qeyd edək ki, əgər bugünkü ən minimum qiymətlə, həm də xammal şəklində Azərbaycan il ərzində 1 milyon ton seolit satsa, illik 120-130 milyon dollar gəlir əldə etmiş olar.

ABŞ-dan gəlmiş mütəxəssislər seolitin çıxarılaraq Bakıda qurulacaq istehsal müəssisəsinə daşınmasının, emal prosesinin rentabelli olmayacağını bildirərək yatağın işlənməsindən imtina ediblər. Sonradan bəlli olub ki, ABŞ-dan gələn mütəxəssislərin özəl maraqları olub. ABŞ-da zəngin seolit yataqları var və bu dövlət qiymətli mineralın təbii inhisarçısı hesab edilir. Seolitdən geniş istifadə edən ölkələr sırasında ilk yerdə ABŞ, sonrakı yerdə Yaponiya gəlir. Yaponlar süni, amerikalılar isə təbii mineraldan istifadə edirlər. Yaponiyada süni seolit həyatın bütün sferalarında istifadə olunur. Seolit industriyası bu dövlətlərdə güclü inkişaf edən və gəlirli sahə hesab edilir.

### Seoliti dünya bazarına Elçin Xəlilov çıxarır

1993-cü ilin ortalarında Azərbaycanda seolit yatağının işlənməsi məsələsi yenidən gündəmə gəlib. O dövrdə Geologiya Komitəsinin rəyi, geoloq kimi Elçin Xəlilovun səyi nəticəsində Yerli Sənaye Nazirliyinin Tovuz İstehsalat Kombinatının bazası əsasında "Azərseolit" elmi-sənaye birliyi yaranıb. Təsisçilərdən biri Geologiya Komitəsinin sədri Əkrəm Şəkinski, digəri isə "İntergeo-Tetis" şirkətinin prezidenti E.Xəlilov olub. Seolitin xassələri Su Problemləri İnstitutunda yoxlanıb və artıq 1995-96-cı illərdə Ceyrabatan su anbarında su süzmə qurğularında seolitdən təbii süzgəc kimi istifadəyə başlanıb. Sonradan isə heç bir səbəb göstərilmədən bundan imtina olunub. 1994-cü ildə Azərbaycan Qırğızıstana seolit göndərib. Həmin seolitdən Oş şəhərinin kanalizasiya sularının təmizlənərək çaylara axıdılmasında istifadə olunub. Təbii mineraldan ölkə ərazisində geniş istifadə edilməsi planlaşdırıldığı bir vaxtda işlər qəfil dayandırılıb və mineralın xammal kimi Gürcüstanın Poti limanı vasitəsilə Avropa dövlətlərinə daşınması və satılmasına başlanıb.

### Xəlilov həbsdə olsa da...

Bu gün E.Xəlilov ittihamlarla üz-üzə qalmış şəxsdir, lakin həmin yataq yenə də onun nəzarətindədir! E.Xəlilov ötən il aprelin 26-da Müdafiə Nazirliyinin səlahiyyətlisi olaraq həbs edilib. Ona Cinayət Məcəlləsinin 308.2.(vəzifə səlahiyyətlərindən sui-istifadə) və 179.3.2-ci (dövlət əmlakını külli miqdarda mənimsəmə və israf etmə) maddələri ilə təqsirli bilinərək barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə Elçin Xəlilovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. Hakim heç bir səbəb göstərmədən E.Xəlilovun məhkəməsinin qapalı keçirilməsi haqda qərar verib. Bu gizliliyin arxasındakı məqsəd nədir? Sual aktual olsa da, bu araşdırmanın mövzusu deyil.

### Əbiyevlə Xəlilovu birləşdirən biznes sahəsi - seolit yatağı

E.Xəlilovu təsadüfən həbs etməyiblər. Bu şəxs sabiq nazirin kabinetinə heç bir maneəsiz istədiyi vaxt keçə bilən biri olub. Hətta Müdafiə Nazirliyinin baş qərargah rəisi Nəcməddin Sadıkov nazirin qəbul otağında 2 saat gözlədiyi vaxtlarda belə qapılar E.Xəlilovun üzünə açıq olub. Hazırda məlum olan budur ki, Əbiyevlə Xəlilovu birləşdirən təkcə sonuncunun Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinin rəisi olması deyil. Seolit yatağının işlənməsi də Əbiyevlə Xəlilovu birləşdirən biznes sahəsi olub. 1995-ci ildən bu günə qədər də yataq Əbiyevlə Xəlilovun ixtiyarındadır. Təkcə bu yatağın işlənməsindən əldə edilən gəlir hər il milyonlarla dollar olub. Və bu pulların hara getməsi haqda mətbuatda zaman-zaman məlumatlar yayılıb.

### Macarıstanda üzə çıxan 65 milyon vəsait seolit satışından əldə edilib?

2013-cü ildə Səfər Əbiyev vəzifədə ikən "Ehtiyatda və İstefada olan Zabitlər" İctimai Birliyinin sədri, hərbi ekspert Yaşar Cəfərli nazirin 65 milyonluq bank hesabı ilə bağlı məlumat yaymışdı. Y.Cəfərli hüquq-mühafizə orqanlarından Macarıstanın OTR BANK-nın müdafiə nazirinin 65 milyon avroluq bank hesabını dondurduğu haqda məlumatların araşdırılıb hüquqi qiymət verilməsini istəmişdi. Y.Cəfərli 2013-cü il ərzində Səfər Əbiyevin digər Avropa ölkələrində - Almaniyada, Avstriyada, İspaniyada, İsveçdə və İsveçrədə belə bank hesablarının olduğunun üzə çıxdığını qeyd etmişdi.

Faktiki S.Əbiyevin ayrı-ayrı şəxslərin adına olan 17 bank hesabının olduğu, seolit satışından və digər mənbələrdən əldə olunan vəsaitlərin həmin hesablara yatırıldığı da qeyd olunur. E.Xəlilovun çox vaxt S.Əbiyevin bank məsələləri üzrə meneceri rolunda çıxış etməsi haqda da bilgilər var. Sonda qeyd edək ki, bu məlumatlar qısa araşdırmamız nəticəsində əldə olunub və ortada olan faktlar hələlik böyük bir aysberqin görünən hissəsidir...

❑ **E.MƏMMƏDƏLİYEV**

# “Böyük ehtimalla Müsavat bu seçkilərdə təkbaşına iştirak edəcək”

## **Arif Hacılı:** “Belə bir şəraitdə hakimiyyət-müxalifət dialoqu istiqamətində bizim mövqeyimizdə hər hansı dəyişikliyin olması üçün əsaslar yoxdur”

**Müsavat Partiyasının başqanı Arif Hacılı ölkəmizdə, regionda gedən proseslər, siyasi qüvvələrin seçkilərə hazırlığı, Müsavat Partiyasındakı proseslər, mitinq, hakimiyyət-müxalifət dialoqu və digər aktual məsələlərlə bağlı “Yeni Müsavat”ın suallarını cavablandırıb.**

*(əvvəli ötən sayımızda)*

***- Qayıdaq ölkəmizin siyasi qüvvələrinin, həmçinin Müsavatın fəaliyyətinə. Son aylarda Müsavatın rayon təşkilatlarının zona müşavirələri keçirildi. Partiyanın yerli şöbələrinin vəziyyəti, resurslar nə yerdədir?***

- Azərbaycanda hətta minimal da olsa, siyasi rəqabət şəraiti mövcud deyil. Bütün siyasi partiyalara bərabər imkanlar yaratmalı olan hakimiyyət nəinki bu prinsipə əməl etmir, əksinə, müxalifət partiyalarının, xüsusilə Müsavat Partiyasının fəaliyyətinə hər vasitə ilə problemlər yaratmağa çalışır. Bununla belə, Müsavat Partiyası Azərbaycanda struktur fəaliyyəti ilə məşğul olan, yeni mütəmadi olaraq bütün strukturlarında nizamnamədə nəzərdə tutulan prosedurları həyata keçirən yeganə partiyadır. Müsavat yeganə partiyadır ki, bütün rayon təşkilatlarının şura iclasları, İdarə Heyəti toplantıları keçirilir, rayon təşkilatlarında, hətta əksər özəklərdə nəzərdə tutulduğu müddətlərdə hesabat-seçki toplantıları, gizli səsvermə yolu ilə strukturlara seçkilər keçirilir. Üç aydan bir bütün respublika ərazisində olan rayon təşkilatlarının zona müşavirəsi keçirilməklə partiyanın rəhbər strukturları ilə yerli strukturları arasında əlaqələr qurulur. Partiyanın hər üç aydan bir Məclisi, hər həftə Divanının toplantıları keçirilir. Müsavat Azərbaycanda öz struktur fəaliyyətini həyata keçirən yeganə siyasi partiyadır. 2006-cı ildən sonrakı dövrdə qurultayın ləngiməsi, yeni başqan seçkiləri və digər seçkilərlə əlaqədar yaranmış qeyri-müəyyənlik, qurultay zamanı ortalığa çıxan müəyyən fəsadlar aradan qalxmaqdadır. Tam əminliklə deyirəm ki, bu gün Müsavat Partiyasının strukturları bundan bir il əvvəl olduğuna nisbətən daha güclüdür, daha stabildir. Müsavat Partiyasında nəsil dəyişmə prosesi, yeni strukturların formalaşması prosesi demək olar ki, başa çatıb. Yaxın zamanlarda Müsavatın strukturlaşmasının, nizamnaməsinə uyğun olaraq öz strukturlarını yeniləməsinin müsbət nəticələri aydın şəkildə görünəcək.

***- Müsavatın deputatlığa namizədlərinin irəli sürülməsi prosesi nə yerdədir? Bu prosesdə hansısa problemlər yaşanırmı? Vurğun Əyyubun və Ellada Məmmədlinin namizədliklərini partiyanın təşkilatları irəli sürüb. Onların namizədliyinin qəbul edilməsi məsələsi necə olacaq?***

- Müsavat Partiyası demokratik bir təşkilatdır. Müsavat Partiyasında bütün prosedurlar şəffafdır. Biz partiya üzvlərinin istər partiyadaxili , istər ölkə miqyasında olan seçkilərdə öz fikirlərini, iradələrini ifadə etməsinə daim şərait yaratmışıq. Bundan sonra da belə olacaq. Hazırda namizədlərin irəli sürülməsi prosesi gedir. Hər bir partiya üzvü, hətta partiya üzvü olmayanlar da öz namizədliyini irəli sürmək, hər hansı bir dairədən partiyanın namizədi olmaq istəyini irəli sürə bilər. Bütün təkliflər müzakirə olunacaq.

Mən uzun müddət seçkilərlə məşğul olan bir şəxs kimi belə bir təklif irəli sürmüşəm ki, namizədlərin ilkin olaraq müzakirəsi rayon təşkilatlarında getsin. Çünki bir çox rayon təşkilatları gələcəkdə seçkilər zamanı hər hansı bir namizədin müdafiə işinin əsas təşkilatçıları olacaqlar. Bu mərhələdə bir dairədən istənilən sayda namizədin irəli sürülməsi mümkündür və burada hər hansı məhdudiyyət yoxdur. Müsavat Partiyasının üzvü olmayan şəxslər də Müsavat Partiyası adından namizəd olmaq üçün müraciət edə bilər. Lakin sonda bu təkliflər Müsavat Partiyasının Məclisində müzakirə ediləcək. Dairələr üzrə namizədlər səsvermə yolu ilə müəyyənləşəcək. Bu, nizamnamə tələbidir.

***- Partiyanın Məclis üzvü Mustafa Hacıbəyli bugünlərdə bəyan etdi ki, ADR rəhbərliyi alternativ siyahı hazırlayıb və cəmiyyətdə belə bir rəy yaratmaq istəyirlər ki, guya Müsavatın parlament seçkilərində iki siyahısı var. Yəni çalışırlar ki, Müsavatın bir dairədən iki namizədinin olduğunu nümayiş etdirsinlər. Bu, mümkündürmü?***

- Mümkün deyil. Biz Müsavat Partiyasının namizədlərinin müəyyənləşməsi işinə həmişə çox ciddi yanaşmışıq. Hətta bir sıra demokratik ölkələrdə namizədlər partiyaların sədrləri və ya rəhbər strukturları tərəfindən müəyyənləşdiyi halda biz partiyanın bütün strukturlarına bu prosesdə iştirak imkanları yaratmışıq. Xatırlayırsınızsa, 2000-ci ildə bütövlükdə partiya strukturlarında ilkin seçki keçirilməsi vasitəsilə partiyanın proporsional seçki sistemi üzrə namizədlər siyahısını müəyyənləşdirmişdik. İstənilən halda sonda Müsavat Partiyasının Məclisi namizədlərin müəyyənləşməsi ilə əlaqədar qərar qəbul edəcək. Müsavat Partiyasının hər seçki dairəsində bir namizədi olacaq. Yalnız Müsavat Partiyasının Məclisi tərəfindən namizədliyi təsdiqlənmiş şəxslər Müsavat Partiyasının namizədi kimi seçkilərdə iştirak edəcək.

***- Məclisin aprelin 4-də sessiyası olacaq. Hansı məsələlərin müzakirəsi nəzərdə tutulur? Məclisdə Müsavatın mitinq qərarı verməsi gözlənilirmi? Məclisdən cəmi bir gün sonra Milli Şuranın mitinqi olacaq. Müsavat Partiyasının 5 aprel mitinqinə münasibəti necədir?***

- Partiyanın Məclisində Məclis üzvlüyünə və Mərkəzi Nəzarət Təftiş Komissiyası üzvlüyünə boş qalmış yerlərə seçkilər keçiriləcək. Biz artıq namizədlərin irəli sürülməsi müddətini elan etmişik. Bu müddət aprelin 3-ü gündüz saat 15-də başa çatacaq. Hazırda namizədlər öz təbliğat kampaniyasını həm partiya strukturlarında, həm də sosial şəbəkələrdə aparmaqda davam edirlər. Məclisdə ictimai-siyasi vəziyyət, partiyanın bu aylar ərzində gördüyü işlər barədə məlumat veriləcək. Seçkilərə hazırlıq işləri ilə bağlı məlumat veriləcək. Partiyanın qarşısında duran vəzifələr müzakirə olunacaq. Eyni zamanda Müsavat Partiyasının kütləvi aksiyalara başlaması məsələsi də Məclisin gündəliyinə salınaraq müzakirə edilə bilər. Təyin olunmuş mitinqdə iştirakla bağlı bizə müraciət edilmədiyi üçün bu məsələnin müzakirəsi gözlənilmir. Partiya üzvləri hər bir Azərbaycan vətəndaşı kimi bu mitinqdə iştirakla bağlı qərar qəbul etməkdə sərbəstdir.



**“Müsavatın hər seçki dairəsində bir namizədi olacaq”**

***- Bir müddət əvvəl mənə müsahibənizdə demişdiniz ki, bu gün üçün Müsavat Partiyasının parlament seçkilərində təkbaşına iştirak etməsi ehtimalı böyükdür. Bu vəziyyət yenə də qalırmı?***

- Biz real müxalifət qüvvələri ilə əməkdaşlığın tərəfdarıyıq. Bu barədə öz fikirlərimizi həm mətbuat vasitəsilə, həm də birbaşa təmaslarda həmin təşkilatların rəhbərlərinə bildirmişik. Eyni zamanda biz müxalifət qüvvələrinin seçki bloku şəklində bu seçkilərdə iştirak imkanlarını araşdırırıq. Ancaq hər hansı bir ittifaqda, müttəfiqlik münasibətlərində bir tərəfin xoşməramlı mövqeyi yetərli deyil. Burada koalisiyada və ya əməkdaşlıq münasibətlərində iştirak edəcək digər tərəfin, yaxud tərəflərin də bu məsələyə xoşməramlı yanaşması zəruridir. Təəssüf ki, hələlik bu istiqamətdə hər hansı müsbət nəticələr yoxdur. Bir daha qeyd edirəm ki, seçki blokunun yaradılmasında maraqlıyıq və bu istiqamətdə imkanları tükənmiş hesab etmirik. Ancaq siyasi analizlərimiz, digər siyasi təşkilatların bizim irəli sürdüyümüz təkliflərə münasibətlərindən çıxardığımız nəticə ondan ibarətdir ki, çox böyük ehtimalla Müsavat Partiyası bu seçkilərdə təkbaşına iştirak edəcək. Ona görə də biz seçkilərdə təkbaşına iştiraka hazırlaşırıq. Biz bir neçə dəfə seçkilərdə təkbaşına iştirak etmişik və müttəfiqlik təklif etdiyimiz bütün digər siyasi qüvvələrin birgə topladığı səslərdən daha çox səs toplamağa nail olmuşuq. Hesab edirəm ki, minimum demokratik seçkilər şəraiti olacaqsa yenə də Azərbaycan seçicilərinin əksəriyyətinin səsini almağa və bu seçkilər vasitəsilə ölkədə süni surətdə, zorakılıqla yaradılmış, ölkədəki real vəziyyətə düz mütənasib olmayan siyasi status-kvonun dəyişdirilməsinə nail olacağıq.

***- Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyaların üçüncü görüşünün aprel ayında keçiriləcəyi haqqında xəbərlər var. Ötən dəfə keçirilən görüşə Sizə də dəvət olsa da bir neçə məsələni əsas göstərib iştirak etmədiniz. O vaxtdan iki aya yaxın vaxt keçir. Bu dəfə də müraciət olacağı halda münasibətiniz necə olacaq? Deyilənlərə görə, sonuncu əfv fərmanından sonra Müsavat əvvəlki mövqeyində bir qədər qətiləşib. Doğrudurmu?***

- Novruz bayramı ərəfəsində dəfələrlə açıqlama verdim ki, istər iqtidar-müxalifət dialoqu məsələlərinə, istər Avropa oyunları ilə əlaqədar olan məsələlərə münasibətimizin formalaşmasında Novruz bayramı ərəfəsində imzalanacaq əfv fərmanının rolu ola bilər. Dəfələrlə hakimiyyətə siyasi məhbus problemini həll etmək üçün ciddi addımlar atmağın zəruriliyi barədə mesajlar verdim. Ancaq hər kəs şahid oldu ki, siyasi məhbus probleminin həlli istiqamətində hətta xırda addımlar belə atılmadı. Yenə də yüzdən artıq siyasi məhbus həbsxanalarda qalmaqda davam edir. Təbii ki, belə bir şəraitdə istər Avropa Oyunlarına münasibət məsələsində, istərsə də hakimiyyət-müxalifət dialoqu istiqamətində bizim mövqeyimizdə hər hansı dəyişikliyin olması üçün əsaslar yoxdur. Hakimiyyət dairələri dediklərimizi eşitməməzliyə vuraraq belə əsaslar yaratmadı. Üç müavini həbsdə olan partiyanın rəhbəri həmin şəxsləri qondarma ittihamlarla həbs edən hakimiyyətlə digər məsələlər barədə siyasi müzakirələr apara bilməz.

❑ **Etibar SEYİDAĞA**

# AXCP daxilində gərginlik

## Sabiq sədr müavini gənc fəallara dəstək verdi

**Bir neçə gündür AXCP rəhbərliyi ilə partiyanın gənc fəalları arasında qarşıdurma olduğu barədə informasiyalar yayılır. Mediada yayılan xəbərlərdə bildirilir ki, iki gün öncə partiyanın Gənclər Komitəsinin üzvü Ehtiram Mehdiyev, Kamandar Hüseynov və Cavid Musazadə bu qarşıdurmanın nəticəsi olaraq AXCP-dən xaric olunub.**

Gərginliyə səbəb kimi isə Gənclər Komitəsinin üzvü Ehtiram Mehdiyevin AXCP sədrinin müavini Fuad Qəhrəmanlı haqqında yazdığı bir facebook statusu olub. Həmin statusda Ehtiram Mehdiyev martın 15-də Milli Şuranın keçirdiyi mitinq zamanı Fuad Qəhrəmanlının tribunanın yanında dayanan yaşlı insanı və gəncləri təhqir etməsini sərt şəkildə tənqid edib. AXCP Gənclər Komitəsinin bəzi üzvləri də Ehtiram Mehdiyevə dəstək veriblər. Bundan sonra isə Ehtiram Mehdiyev və Gənclər Komitəsinin digər üzvü Cavid Musazadə partiyadan çıxarılıblar. Bu qərardan əsəbiləşən Gənclər Komitəsinin üzvləri ilə partiya rəhbərliyi arasında ciddi gərginlik yaşanıb. Xəbərlərdə həmçinin deyilir ki, Gənclər Komitəsinin üzvlərinin yaxın günlərdə bəyanat verərək, kütləvi şəkildə partiyadan çıxacaqları gözlənilir.

**Gənclərlə AXCP rəhbərliyinin qarşıdurmasına bu yaxınlarda partiya sıralarından istefa vermiş sabiq sədr müavini Razi Nurullayev özünün facebook səhifəsində münasibət bildirib. R.Nurullayev gənclərin müdafiəsinə qalxıb. O qeyd edib ki, gəncliklə savaşanlar məğlub olur:** "Əlbir olub bu rejimə qarşı mübarizə aparmaq lazımdır. Daha partiya içində sənin siyasətini tənqid edənlərlə yox. Günümüzün gəncliyi fərqlidir. Onların hamısını zombiləşdirmək və beynini yumaq mümkün deyil. AXCP sədrini və yaxın ətrafının siyasətini tənqid edənlər partiyadan uzaqlaşdırılıb. Bu gənclər Ehtiram Mehdiyev, Cavid Musazadə və Kamandar Hüseynovdur. Səbəb obyektiv tənqiddir. Amma onlar unudublar ki, AXCP-də tənqid qadağan olunub. Səmərəli təklif vermək və onu keçirmək mümkün deyil. Təklif yalnız partiyanın inkişafına yox, həm də sədrin maraqlarına cavab verməlidir. Əli Kərimli də məğlub olacaq. Çünki o, gəncliklə və onu obyektiv tənqid edənlərlə savaş yolunu seçib. Partiya resursları onun özünə və seçdiyi ətrafına xidmət edir. Partiya üzvləri və təəssübkeşlərinin çalışmaq üçün hansı stimulu və motivasiyası var? Sədri tərifləmək və onun dediklərini qeyd-şərtsiz yerinə yetirmək insan üçün stimul ola bilərmi? Axı bu insanlar hakimiyyətin məhrumiyyətləri və təzyiqi altında mübarizə aparırlar. Onlar bir parça çörək üçün, ailəsini dolandırmaq üçün çaba göstərir və bir çoxları ailəsindən çox partiyaya əmək sərf edir.



Razi Nurullayev

Onların tənqid etmək və fərqli fikir söyləmək hüququ ola bilməzmi? Axı onlar cəsarətlə YAP-ı, dövlət başçısı İlham Əliyevi tənqid edirlər, Əli Kərimlini və onun ətrafında çirkin oyun qurub gözünə girənləri niyə tənqid etmək olmaz?

Həyatını partiyaya sərf edənlərin, canını bu yolda fəda edənlərin üzərinə qışqırmaq, onları istismar etmək partiya rəhbərliyinə yaraşmaz. Müxalifət adını ləkələməyin. Buraxın, xalq başına çarə qılacaq. Çəkilin xalqın önündən. Fərqli fikrə dözümlü yanaşın, ya da gedin durun iqtidarın yanında. Daha gizlində yox, açıqda".

**AXCP təşkilat şöbəsinin rəhbəri Rafiq Daşdəmirov isə dünən hafta.az-a deyib ki, həmin gənclərin çıxarılması ilə bağlı hər hansı müzakirə aparılmayıb, partiyada bu barədə müzakirə olacaq:** "Məsələyə Rəyasət Heyətində baxacağıq. Yalnız müzakirə aparıldıqdan sonra bu barədə danışmaq olar".

Məsələ ilə bağlı Cavid Musazadə isə bildirib ki, onun partiyadan çıxarılması ilə bağlı yayılan məlumat həqiqəti əks etdirmir.

❑ **E.SEYİDAĞA**

# MŞ-nin 5 aprel mitinqinə müsavatçılar da qatılacaq

## Sahibkarlara mitinqə dəstək üçün müraciət ünvanlandı

**Milli Şuranın 5 aprel saat 15:00-da "Məhsul" stadionunda "Talana son!" şüarı ilə keçirmək istədiyi mitinqlə bağlı müraciətə Bakı Şəhər İcra Hakimiyyəti hələ cavab verməyib. Təşkilatçılar isə mitinqə hazırlıqları davam etdirirlər. Milli Şuraya daxil olan AXCP bu işdə xüsusi fəallıq göstərir. Rayon təşkilatlarında mitinqə hazırlıqla bağlı toplantılar keçirilir.**

Mitinqdə iştirak üçün Milli Şuradan kənarda olan partiyalara heç bir müraciət və ya təklif edilməyib. Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev bu barədə deyib ki, belə bir müraciət edilməsi nəzərdə tutulmayıb, mitinq hamı üçün açıqdır, kim istəsə qatıla bilər.

Qeyd edək ki, Milli Şuranın 15 martda bahalaşma əleyhinə keçirdiyi mitinqə Müsavat Partiyasının üzvləri də qatılmışdı. 5 aprel mitinqində iştirak məsələsində də partiya Divanı üzvlərə sərbəstlik verib.

**Müsavat Gənclər Təşkilatının sabiq sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, ötən mitinqə qatıldığı kimi növbəti aksiyaya da qatılmaq fikrindədir: "Mən təbii ki, bu mitinqə qatılacağam. Çünki qiymət artımı ümumi bir məsələdir. Yəni bu məsələ ətrafında siyasi rəqabət aparmaq olmaz. Müsavat Partiyasının mitinqə qatılmaqla bağlı qadağa qərarı yoxdur. Odur ki, istənilən partiya üzvü bu mitinqdə iştirak edə bilər və mən cə, iştirak da etməlidir".



**5 aprel mitinqinin kütləviliyi barədə gözləntilərə gəlincə, T.Abbaslı hesab edir ki, 15 mart mitinqindəkindən çox insanın iştirakı ehtimalı azdır:** "Təbii ki, könül istət ki, yüksək olsun. Ancaq mənim müşahidələrim və cəmiyyətdəki siyasi fəallıq deməyə əsas verir ki, qatılım artan istiqamətdə olmayacaq. Hətta nisbətən əvvəlki mitinqdən zəif ola bilər. Mən şəxsən sonuncu mitinqdəki qədər insanın qatılımını uğur kimi qiymətləndirərəm. Ancaq yenə də qeyd edirəm ki, belə mitinqlərdə kütləvilik olduqca önəmli və lazımlıdır. Odur ki, hər kəsi bir daha mitinqdə iştiraka dəvət edirəm".

**AXCP sədri Əli Kərimli isə Milli Şuranın aprelin 5-nə təyin etdiyi mitinqlə bağlı sahibkar təbəqəsinə facebook səhifəsində müraciət edib. O qeyd edib ki, 5 aprel mitinqində "Talana son!" tələb etmək ən çox bu ölkənin sahibkarlarına lazımdır. Mitinq təşkilatçılarının bu mitinqlərdə monopoliya, korrupsiya və rüşvətə son qoyulması, qeyri-rəsmi vergilərin, gömrük rüsumlarının və müxtəlif qanunsuz ödənişlərin ləğv edilməsini tələb etdiklərini xatırladan Ə.Kərimli vurğulayıb ki, bütün bunlar hər bir sahibkarın arzusudur, ancaq onlar aksiyaya qatılmağa ehtiyatlanırlar:** "Amma sahibkarlar, iş adamları "Talana son!" mitinqlərini dəstəkləmək üçün çoxlu yollar tapa bilərlər. Bu həmvətənlərimiz ən azı öz işçilərinin, ətraflarının mitinqə gəlməsinə mane olmamaqla, mitinqə uzaqdan gəlmək istəyən insanlara kömək etməklə, "demokratik açılımın tək çarə" olması barədə ictimai rəyin formalaşmasına yardım etməklə ümumi mübarizəyə öz töhfələrini verə bilərlər. Dünyanın hər yerində sahibkarlar, milli burjuaziya demokratik dəyişikliklərin əsas tərəfdarı kimi çıxış edib və edir. Və bu, təbiidir. İş adamları bilir ki, monopoliyanın dağıdılması, korrupsiyanın ləğv olunması, azad rəqabətin, hüququn aliliyinin, hamıya bərabər imkanların təmin edilməsi ilk növbədə sahibkarların daha çox qazanmasına və özlərini daha təhlükəsiz hiss etməsinə səbəb olacaq".

❑ **E.SEYİDAĞA**

# Bu illər ərzində böyümədik...



**Hüseynbala SƏLİMOV**

**Bütün bu illərin birinci nəticəsi o oldu ki, "İran baharı" baş vermədi. Doğrusu, buna ürəkdən çalışanlar da tapılmadı... Hamını daha çox bir məsələ narahat edirdi ki, görək, necə edək, nə təhər edək ki, İran nüvə silahı yaratmaq fikrindən daşınsın...**

Bu yazı yazılanda proses pik nöqtəsinə çatmaqda idi, hətta saata baxanlar da var idi. Amma biz ifrat optimist də ola bilmirik. Bir neçə dəfə olub ki, İran və ABŞ razılaşma əldə etməyə yaxın olub. Amma son anda alınmayıb...

İndi ABŞ diplomatları az qala saatları saysa da, İran bir az da "naz" etsə də, İsrail də hər iki tərəfin əlindən "kəndir çeynəsə" də, son anda yenə də heç nə alınmaya bilər, elə ola bilər ki, bütün proses təzədən başlasın, çünki bu minvalla İran həmişə vaxt udub ki, öz bildiyini etsin...

Amma ABŞ indi iki cəbhədə vuruşa bilməz, hətta İsrail bunu istəsə də. Rusiya ilə münasibətlər çox gərgindir, bu ölkəyə qarşı sanksiyalar tətbiq olunur. İndiki məqamda ABŞ qətiyyən istəməz ki, bölgədə yeni bir siyasi vektor, İran-Rusiya vektoru qurulsun... Münasibətlərdə dialoqa meyl açıq-aşkar hiss edilir...

Bəs bu, bizə nə vəd edir? İranla ABŞ arasında münasibətlərin azacıq da olsa mülayimləşməsi rəsmi Bakının maraqları daxilindədir... Bizim hakimiyyət bir sıra təzyiqlərdən xilas olur. ABŞ həmişə onu İrana qarşı, İran da öz növbəsində ABŞ-a qarşı yönəltməyə çalışırdı. Son anda da rəsmi Bakı bundan ABŞ-dan və Qərb ölkələrindən bir qədər məsafə götürməklə canını qurtarırdı...

İndi proses alınsa, danışıqlar baş tutsa, buna ehtiyac olmayacaq, daha nə ABŞ, nə də ki, İran rəsmi Bakını əvvəlki kimi ehtiyatlandırmayacaq və o, iki dövlət arasında qalmaq aqibətindən qurtulacaq...

Amma Azərbaycanın hakimiyyət maraqları baxımından deyil, milli maraqları nöqteyi-nəzərindən təbii ki, İran rejiminin axıra qədər təqib olunması daha sərfəli idi. Bu, bəlkə də Cənubdakı vəziyyətin azacıq da olsa dəyişməsi ilə bağlı yaxın vaxtlar üçün son ümid idi...

Amma hiss olunur ki, amerikalıları bu ssenari o qədər də maraqlandırmadı. Əgər maraqlansaydılar müəyyən bir proses başlaya bilərdi...

Amma güman etmirik ki, İran nüvə sevdasından birdəfəlik əl çəkmiş olsun. O son ana qədər bu məsələyə marağını saxlayacaq. Düzdür, eyforik ümidlərin astanasında bu, bir qədər inandırıcı görünmür...

Amma baxın. İran neçə illərdir ki, nüvə silahı əldə etmək üçün çalışır. Güman etmək olarmı ki, o, nəyinsə müqabilində bundan əl çəkmiş olsun?

O gün siyasətçilərdən birinin Ukraynadakı proseslərlə bağlı fikirlərini oxuyurdum. Həmin adam deyirdi ki, Ukrayna 1994-cü ildə, nüvə silahından imtina edərkən "sındı". Bəli, o vaxt Ukraynanın təhlükəsizliyinə təminat verən ölkələrdən, daha doğrusu, bunu vəd edən ölkələrdən biri də Rusiya idi. Bəs indi nə baş verir?..

İranda bunu düşünmürlərmi? Güman ki, düşünürlər. İran rejimi dünya ölkələri üçün təhdid mənbəyi kimi qalır. Ölkə hələ ki, bu rejimdən imtina etmək niyyətində deyil. Deməli, münasibətlər ideal formada normallaşa da bilməz və bir gün təmaslar yenə də buz bağlayacaq...

Bölgədəki ölkələr də ABŞ-la İran arasında münasibətlərin istiləşməsindən elə də razı deyillər - ərəb rejimləri bunu istəmir, İsrail isə bunun qəti əleyhdarıdır.

Hətta indiki vaxtda Yəməndəki prosesləri də İranla ABŞ arasındakı son təmaslarla bağlayanlar da var. Amma ən maraqlısı bilirsiniz nədir? Mollaların təmsil etdiyi rejim bizim çoxumuzdan əzmkar çıxdı...

Nə vaxtsa İrəvana qayıdacağımızı vəd edən məmurlarımız qorxudan bir dəfə də Təbrizin, Güneyin adını çəkməyə cəsarət etmirlər...

Baxıb görürsən ki, bu illər ərzində biz böyümədik, əksinə kiçildik, yalnız mədəsini düşünən istehlakçı cəmiyyətə çevrildik. Elə bil heç Güney yox imiş, elə bil heç Təbriz yox imiş...

Bir-iki il bundan əvvəl bir ABŞ konqresmeni Güney problemi ilə maraqlanmışdı. O, hətta Azərbaycana da gəlmişdi. Amma Azərbaycanda ona nə dedilərsə kitab-dəftərini bağlayıb öz yerində oturdu...

İndi Azərbaycanda təhdid deyəndə yalnız hakimiyyətə qarşı təhdidlər nəzərdə tutulur. Milli maraqlar deyəndə hakimiyyətin maraqları nəzərdə tutulur...

İrana da bu, xoşdur. Sonra da Bakı məmurları özlərini elə aparırlar ki, sanki bütün dünya siyasətinin konturunu elə bunlar cızıblar...

Amma bir sualı verməkdən özümüzü saxlaya bilmirik: bir başı girələmək, bir mədəni dolandırmaq nə çətin imiş, cənablar?..



# Mətbuatı sevən deputat

Zamin HACI
zaminhaci@gmail.com

**3 gün qabaq çox sevindirici bir məktub almışam. Məktubun müəllifi hörmətli deputat yoldaş Novruzəli Aslanovdur. Yəqin diqqətli oxucuların yadında olar, keçən ay mən Novruzəli müəllimin həyat və yaradıcılığı haqda iki yazı dərc etmiş, xüsusilə də onun deputat seçiləndən sonra bir çox zərərli adətlərə son qoymasını, spirtli içkiləri tərgitməsini (daha doğrusu miqdarında içməyə başlamasını) tərənnüm etmişdim. Elə Novruzəli müəllimin məktubu da bu haqdadır. 17 mart, 2015-ci il tarixində yazılan, "Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, nömrə 10-86-285DP" kodu ilə işarələnmiş, böyük bir ağ konvertə qoyulmuş məktub cəmi 1 (bir) cümlədən ibarətdir. Haşiyə çıxaraq onu da qeyd edim ki, konvertin üzərində 2014-cü ildə buraxılmış, üzərində balaca it şəkli olan Azərbaycan poçt markası da yapışdırılmışdır, buna görə də bir filateliya həvəskarı, marka toplayan olaraq Novruzəli müəllimə dərin minnətdaram.**

**Məktub budur:** "Yeni Müsavat" qəzetinin əməkdaşı Zamin Hacıya. "Yeni Müsavat" qəzetinin 17 mart 2015-ci il tarixli sayının 8-ci səhifəsində müəllifi olduğunuz "Deputat içkini necə atdı" başlıqlı yazı ilə tanış oldum. Millət vəkili Novruz Aslanov". Daha sonra qəti şübhə yeri qalmasın deyə Novruzəli müəllim yalan olmasın, Bakıdan İsmayıllının Basqal kəndinə çatacaq qədər uzunluqda bir qol da çəkmişdir.

Görün necə mərifətli, mətbuata diqqətlə yanaşan deputatlarımız vardır... Əhsən! Mən ümid edirəm ki, Novruzəli müəllim mənim 8-ci səhifədəki başqa yazılarımla da tanış olur, bu münasibətlə mənə məktublar yazır. O cümlədən qəzetin 3-cü, 4-cü, 5-ci və sairə səhifələrindəki yazılar haqda müəlliflərə məktublar göndərir. Böyük ehtiramdır. Əgər başqa deputatlar da mətbuata diqqəti bu cür göstərsələr, tanış olduqları yazılar haqda jurnalistlərə məktub göndərsələr bəyəm iqtisadiyyatımız daha məqsədyönlü inkişaf etməzmi? Mən başqa dairənin seçicisiyəm, ancaq qabaqdan gələn seçkilərdə Novruzəli müəllimə səs vermək üçün İsmayıllıya köçmək fikrindəyəm.

Bayaq qeyd elədiyim kimi, ola bilsin bu, Novruzəli müəllimin yeganə məktubu deyil. Bəs qalan məktublar hardadır? Hesab edirəm ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində oturan yoldaşlar bu suala cavab verməyə borcludur. Məsələn, mən 27 mart tarixində dərc edilən "Peşmanlıq qanunu" adlı yazımla Novruzəli müəllimin tanış olub-olmadığını indi necə öyrənim? Halbuki, bunu bilsəm yeni yaradıcılıq uğurlarına həvəslənərdim. Elə yetişən məktubun tarixi - 17 mart da hər şeyi deyir. Təsəvvür edin, poçt xidmətimiz deputatın məktubunu 2 həftəyə çatdırırsa, sadə insanların məktubu neçə günə çatır? Deməli, poçt xidmətimiz Novruzəli müəllimin klassik adaşının vaxtındakından bir addım da irəli getməyibdir. Bəlkə də Əli Abbasov poçt qutularının yanında durub poçtalyonların qarnına təpik vurur. Bütün bunlar, əlbəttə, mənfi hallardır, 1-ci Avropa Oyunlarına hazırlaşan paytaxtımıza yaraşmır.

Söhbət düşmüşkən, başqa insanlarımız, məmurlarımız da kaş deputatlarımız kimi qəzet oxuyardılar. Dövlətçilik möhkəmlənərdi. Son günlərdən 2 örnək göstərmək istərdim.

Zərdabda icra hakiminin müavininin oğlu sərxoş olub maşın sürdü, həbs edildi, atası işdən çıxarıldı. Bakının Qaradağ polisində bölmə rəisinin müavini olan bir polkovniki isə yol polisləri güclə tutub saxladılar, bunun da sərxoş olması ortaya çıxdı. "Deputat içkini necə atdı" yazımızla vaxtında tanış olsaydılar heç bu işlər başlarına gəlməzdi. Novruzəli müəllimin dediyi "Deputat seçildikdən sonra həyatımda olan bütün mənfi çalarların üstündən xətt çəkdim və hətta içkini də atdım" sözləri həmin yazının leytmotivini təşkil etmişdir. Əgər Zərdab icra hakiminin müavininin oğlu həmin yazını oxusaydı bəlkə indi deputat olardı, papası da yerində qalardı.

Qəzet oxumaq lazımdır, ay camaat.

**İki gün öncə bütün Türkiyə ərazisində elektrikin kəsilməsi, daha sonra ard-arda baş verən üç terror olayı ölkənin milli təhlükəsizliyi ilə bağlı ciddi narahatlıqlar yaradıb. Martın 31-də səhər saatlarında Van istisna olmaqla, Türkiyənin bütün ərazisində elektrik olmayıb. Problemin çözümü 10 saatdan çox zaman aparıb. Gündüz saatlarında isə İstanbul Çağlayan Ədalət Sarayında "Gəzi Parkı" olaylarının qurbanı Berkin Əlvanın işini aparan prokuror Mehmet Selim Kiraz girov götürülüb və təhlükəsizlik qüvvələrinin keçirdiyi əməliyyatda həlak olub. Aprelin 1-də isə AKP-nin Kartal bölməsinin ofisinə silahlı hücum olub. Polislər terrorçuları tərk-silah edib və prokurorluğa aparıblar.**

# Qardaş Türkiyəni qarışdıran xain əllər kimindir - adlar çəkilir...

## Ölkənin milli təhlükəsizliyinə təhdidləri iqtidar və müxalif düşərgə fərqli qiymətləndirir; Azərbaycanın sabiq baş naziri "narahatıq" dedi, PKK-nı hədəf göstərdi; Türkiyə ekspertləri, iqtidar və müxalifəti isə...




Dünən Bakı vaxtı ilə saat 20 radələrində Türkiyə daha bir terrorla üzləşib. Vatan Caddəsində yerləşən İstanbul Əmniyyət Müdürlüyündə atışma olub. İlkin informasiyaya görə, 2 terrorçu Əmniyyət Müdürlüyünün binasını atəşə tutub. Musavat.com qardaş ölkə mediasına əsasən xəbər verir ki, onlardan biri qadın olub. Həmin qadın "canlı bomba" adlanan, intihar terrorçusu olub. Olaya dərhal müdaxilə edən polislər onlardan birini zərərsizləşdirib. Aldığı güllə yarasından terrorçu olay yerində ölüb. Atışmada 2 polis yaralanıb.

Binaya aparan yollar bağlanıb. Qaça bilən terrorçu 40 dəqiqə sonra həbs olunub.

Bütün bu olaylar Türkiyədə ictimai sabitliyi pozub, artıq Azərbaycanda da hər kəs qardaş ölkə üçün narahatdır. Türkiyənin bir sıra ekspertləri iddia edirlər ki, seçkilər öncəsi böyük güclər "düyməyə" basıblar və ölkəni qarışdırmaq istəyirlər.

***

Prokuror M.S.Kiraz dünən Çağlayan Ədalət Sarayındakı törəndən sonra torpağa tapşırılıb. Türkiyə mediası prokuroru son mənzilə 10 minlərlə məsləkdaşının və şəhər sakininin yola saldığını yazır. Eks-prezident Abdulla Gül də təziyəyə gələnlər arasında olub. Bu arada bəlli olub ki, hökumət Çağlayan Ədalət Sarayına terrorun qurbanı Kirazın adını verməyə hazırlaşır.

İndi Türkiyəni ən çox məşğul edən sual ölkədə sabitliyin pozulmasına yönələn bu hücumların arxasında hansı gücün dayanmasıdır.

"Biz sonuna qədər terrora qarşı mübarizə aparacaq, direnəcəyik". Bu sözlər prezident Rəcəb Tayyib Ərdoğan Rumıniya səfəri zamanı Türkiyədəki terror olaylarına münasibət bildirərkən deyib. O deyib ki, Ədalət Sarayına hücumun da, AKP ofisinə basqının da arxasında PKK dayanır. Ərdoğan deyib ki, bütün bunlar "çözüm süreci"nin dayandırılması üçün qəsdən atılan addımlardır: **"Bəs bunlar deyirdi, biz silahı qoyub siyasətlə məşğul olacağıq? Onlar bugünə qədər heç dürüst olmadılar. Ümid edirəm ki, bu olay bu yola həvəsli olanlar üçün ciddi dərs olacaq".**

Ölkəsində baş verən olaylara görə Ərdoğan Rumıniya səfərini yarımçıq qoyaraq Ankaraya dönüb. Uçaqda mediaya açıqlama verən prezident qısa zamanda prezident yanında Təhlükəsizlik Şurasının toplantısının keçiriləcəyini deyib.

Müxalifət düşərgəsi isə baş verənlər üçün əsas məsuliyyəti AKP iqtidarının daşıdığını bildirir.

**MHP sədri Dövlət Baxçalı** ölkədə bir-birinin ardınca yaşanan gərginliklərlə bağlı yazılı açıqlama yayıb: **"Türkiyənin başına bəla olan "lampa"** ***(AKP-nin simvolu nəzərdə tutulur)*** **sadəcə partlamayıb, elektriki də kəsib. Türk milləti bir yanda elektrik problemi ilə çarpışırkən digər yanda İstanbul Ədalət Sarayında terror hadisəsinə kilidlənib. Şəhid prokurorumuza görə üzüntümüz çox böyükdür. Bu xain hücum sadəcə bir prokurorumuza qarşı yönəlməyib. Onunla birlikdə Türkiyə vurulub, türk ədalətinin qanı axıdılıb, 78 milyon hədəf alınıb, Berkin Elvan bir daha öldürülüb. Anlaşılan odur ki, İstanbuldakı terror bilərəkdən Çağlayanda həyata keçirilib. Türkiyənin siyasi basqı yaşadığı, dartışmaların yeni, təhlükəli mərhələyə keçdiyi dönəmdə DHKP-C adlı terror qrupu ortaya çıxıb. Türkiyə bir ucunda AKP, o biri ucunda qanlı qruplaşmaların yer aldığı kirli bir əməliyyatın tam göbəyindədir. Türkiyə son dərəcə şübhəli münasibətlərin içərisinə itələnib. Bu ölkədə milli təhlükəsizlik idarələri nə işlə məşğuldurlar. Ərdoğana yorulduğunu söyləyən, Məclisə girmək üçün çalışan, prezidentin razılığını almadığı üçün yenidən kürsüsündə əyləşən sirr küpü Hakan Fidan haralarda gəzməkdədir? Terror qruplaşmasının planlarını deşifrə edə bilməyən, ədliyyə koridorlarına qədər gələn terrorçuları, onların silahlarını görməyən, tapmayan istihbarat kimə xidmət edir, kimin üçün işləyir?"**

Baş nazir Əhməd Davudoğlu olayla bağlı çıxışında yaşananlardan böyük təəssüf hissi keçirdiyini deyib. O, vətəndaşları terrorla mübarizədə birliyə çağırıb. MHP lideri baş nazirin bu mövqeyini də tənqid edib: **"Davudoğlu "gün terrora qarşı bir olma, terrora qarşı çiyin-çiyinə vermək günüdür" deməklə sanki günah çıxarmış olur. Onun heç şübhəsi olmasın ki, türk milləti terrorla mübarizə üçün hər zaman birlik göstərib və göstərir. Ancaq terrora qarşı bir olmaq yerinə terrorla birlikdə olan, terrorçularla qol-qola yürüyən baş nazir və onun hökumətidir. Bugünə qədər terrora kimi dəstək verdiyi, kimlərin bölücülük taqımında canilərlə eyni səfdə durduğunu hər kəs bilir. PKK-ya yardım edənlərin terrorla mücadilə üçün birlik çağırışları siçanın pişik ovuna çıxması, aslanın safariyə həvəslənməsi qədər abtallıqdır. Türk milləti terrorun yedəyinə çevrilən, terrorçulara xilasedici kəmər uzadan AKP-ni heç zaman bağışlamayacaq və 7 iyun parlament seçkisində ona gərəkli cavabı verəcək".**

"Bu gün bir neçə qonşu ölkə Türkiyədə sabitliyin pozulması üçün ciddi projelər üzərində işləyir. Son günlər yaşananlar bu planın bir hissəsidir". Bunu isə "Yeni Müsavat"a açıqlamasında Türkiyənin Bakı böyükelçiliyinin keçmiş mətbuat attaşesi **Turqut Ər** deyib. Onun sözlərinə görə, bütün cəhdlər Türkiyənin milli təhlükəsizliyini ciddi təhlükə altına almaq üçündür: "Türkiyə içərisində fəaliyyət göstərən PKK-nın da, DHKP-C-nin də Avropa ölkələrində uzantıları var. Çağlayan ədliyyəsində prokuror Kirazı öldürən qrupun üzvləri bir neçə il öncə Sabançı ailəsinin üzvünü qətlə yetirmişdi, həmin terrorçuları Brüssel hələ də Türkiyəyə təhvil verməyib. Buna görə də son dərəcə ehtiyatlı olmaq lazımdır. Bu məsələdə Türkiyə iqtidarının da zəif nöqtələri var təbii. Ancaq mən şübhə etmirəm ki, Türkiyənin təhlükəsizliyinə yönələn bütün cəhdlərin qarşısı alınacaq".

T.Ər bildirir ki, hökumət üzvlərinin bir sıra məqamları inkar etməsinə baxmayaraq, xalq içərisində bu terror olaylarının eyni mərkəzdən idarə olunması ilə bağlı tərəddüdlər var: **"Vətəndaşlar çox tədirgindirlər. Təhlükəsizliklə bağlı ciddi problemlərin olduğu göz qabağındadır. Deməli, dövlətin görməli olduğu çox ciddi işlər var. Həmin qruplaşmaları böyük güclər müdafiə etsə də mən bu cür cəhdlərin Türkiyəni yıpradacağını, sabitliyi poza biləcəyini gözləmirəm. Türk milləti bu cəhdlərin qarşısını almaq üçün özündə güc tapacaq. İllərdir ölkəyə uzanan əllər bir şəkildə kəsilib, bu dəfə də kəsiləcək. Türkiyə dövlət strukturları ilə, ordusu ilə, vətəndaşı ilə güclü bir sistemdir. Onu terrorlar çökdürmək istəyən heç bir qüvvə başarılı ola bilməz".**

Azərbaycanın sabiq baş naziri, **AXP sədri Pənah Hüseyn** deyir ki, bu hadisələr bizi də narahat edir və baş verənləri üzüntülü həssaslıqla izləyirik: **"Türkiyədəki sabitlik türk-islam arealında olan sabitliyin əsasıdır. Konspirolojiyə qapılmadan, narahatlıqla bildiririk ki, bu olayların dalbadal baş verməsi, həm texnogen qəzanın, həm 24 saatda 3 silahlı terror eyləmi təsadüf olmaya bilər. Bizim diqqətimiz PKK üzərinə yönəlib. Bir neçə gün əvvəl bu terror təşkilatı bəyanatlarla çıxış edərək, Türkiyəni, onun istiqrarını təhdid etmişdi. Səbəb də budur ki, "çözüm süreci" deyilən mövzuda iqtidarla anlaşa bilmirlər... Bizi üzən bir detal da Türkiyənin bu tipli böyük hadisələrə hazır olmamasıdır. Doğrudur, elektriklə bağlı texnogen qəzalar ABŞ, Kanada da baş verib. Lakin Türkiyənin xüsusi xidmət orqanları hər zaman hazır və tətikdə olmalıdırlar. Biz başımıza gələcək hər hansı bir qlobal fəlakətdə Türkiyəyə güvənirik. Onu zəif görəndə biz də sarsılırıq".**

❑ Aygün MURADXANLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015

# "Azərbaycan və Türkiyə əleyhinə formalaşdırılan qərəzli stereotiplər dağıdılıb"

## Əli Həsənov xüsusi bəyanatla çıxış etdi; "Erməni dairələrinin təxribatçı fəaliyyəti Azərbaycan-Rusiya münasibətlərinə kölgə sala bilməz"

**Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla əlaqələr üzrə komitəsinin sədri Leonid Slutskinin Ermənistana səfərindən sonra erməni mediası onun adından bir sıra anti-Azərbaycan yönümlü məlumatlar yayıb. L.Slutski Azərbaycanın Rusiyadakı səfirliyində mətbuat konfransı keçirərək onun adından yayılmış fikirləri təkzib edib, Azərbaycan rəhbərliyinin və Azərbaycan xalqının dostu olaraq qaldığını vurğula-**

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bununla bağlı xüsusi bəyanatla çıxış edib.

AzərTAc-ın verdiyi məlumata görə, Ə.Həsənov bəyanatında bildirib ki, son zamanlar Azərbaycan və Türkiyənin rəsmi orqanları, ictimai təşkilatları, eləcə də Azərbaycan və Türkiyənin dünyanın müxtəlif ölkələrindəki diaspor qurumları tərəfindən reallaşdırılan müştərək tədbirlər, layihələr, əks kampaniya - bir sözlə, birgə fəaliyyət həddən artıq effektli və uğurlu olub, nəticədə Ermənistanın Türkiyə və Azərbaycan əleyhinə illərdir ki, həyata keçirdiyi çirkin təbliğat kampaniyası iflasa uğrayıb: "Azərbaycan və Türkiyə əleyhinə formalaşdırılan qərəzli stereotiplər dağıdılıb, eyni zamanda ermənilərinin özləri haqqında uydurduqları "məzlum, əzabkeş erməni xalqı" obrazının, "erməni soyqırımı" iddialarının saxtalığı üzə çıxıb. Azərbaycan xalqının uzun illər ərzində erməni işğalçı qüvvələri tərəfindən məruz qaldığı soyqırım və təcavüz barədə dünya ictimaiyyətinin dolğun məlumatlandırılması sayəsində get-gedə daha çox beynəlxalq təşkilat, ayrı-ayrı dövlətlər, o cümlədən ABŞ-ın bir sıra ştatları təcavüzkarı öz adı ilə çağırmağa başlayıb. Son zamanlar Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləyən, Xocalı soyqırımının tanınmasını dəstəkləyən çoxsaylı qətnamələr qəbul edilib. Beləliklə, ermənilər qondarma "soyqırım"ın 100 illiyi üçün öz qarşılarına qoyduqları hədəflərə çata bilməyiblər. Qondarma "soyqırım"ın 100 illiyi ilə bağlı keçirəcəkləri tədbirlərdə ali səviyyəli xarici qonaqların iştirakı da sual altında qalıb".


Əli Həsənov

**Ə.Həsənov hesab edir ki, bütün bunlara görə Ermənistan dövləti, onun xarici siyasətinə, yalanlar üzərində qurulmuş təbliğatına məsul qurumlar və xaricdəki erməni diasporu isterika içərisindədir. İndi onlar öz yalanlarını başqa ölkə rəsmilərinin fikirlərini açıq-aşkar təhrif etməklə yaymağa cəhd edirlər:** "Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla əlaqələr üzrə komitəsinin sədri Leonid Slutskinin adından iki gün əvvəl erməni mediasında yayılmış fikirlər bu baxımdan növbəti uğursuz cəhddir. Belə addımlar ilk növbədə Azərbaycan və Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinə xələl gətirmək, iki ölkənin parlament təmsilçiləri, müxtəlif qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları, ziyalılar və s. arasında sıxlaşan əlaqələrə kölgə salmaq məqsədi güdür. Biz cənab Slutskini Azərbaycan xalqının, dövlətimizin və ölkənin siyasi rəhbərliyinin sadiq dostu hesab edirik. Bu dostluq Azərbaycan və Rusiya arasında çoxəsrlik tarixi ənənələrə, siyasi və iqtisadi maraqlara, bir-birinin suveren siyasətinə qarşılıqlı hörmətə və təbii ki, onilliklərin sınağından çıxmış insani münasibətlərə söykənir. Hesab edirik ki, Azərbaycan-Rusiya münasibətləri hər hansı təxribatların fövqündədir, ermənilərin belə ucuz şouları bizim əlaqələrə heç bir təsir göstərə bilməz. Əminik ki, bizim Rusiya ilə əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək, Azərbaycanın Leonid Slutski kimi dostları bu əlaqələrə öz töhfələrini verməkdə davam edəcəklər".

# "Bütün erməni hərbçiləri Azərbaycan tərəfə keçməyə çağırıram"

## Könüllü olaraq ölkəmizə təslim olan Andranik Qriqoryanın növbəti videomüraciəti yayıldı; Ermənistanın erməni əsilli suriyalı qaçqınları işğal altında saxladığı ərazilərdə yerləşdirməsi beynəlxalq konfransda bəyan edildi

**Müdafiə Nazirliyi bu il martın 22-də könüllü olaraq Azərbaycan tərəfinə təslim olan 1991-ci ildə Xocavənd rayonunda anadan olmuş, Ermənistan silahlı qüvvələrinin hərbçisi, müqavilə əsasında hərbi xidmət keçən hərbi qulluqçu Andranik Qriqoryanın növbəti videomüraciətini yayıb.**

Nazirliyin rəsmi saytında videomüraciət yerləşdirilib. Erməni hərbi qulluqçusu deyir: "Mən, Andranik Araratoviç Qriqoryan 1991-ci ildə Martuni rayonunun Berdaşen kəndində anadan olmuşam. 2012-ci ilin aprelində müqaviləli hərbi qulluqçu kimi xidmətə çağırılmışam. 2015-ci il martın 22-də Azərbaycan tərəfə keçmişəm. Dağlıq Qarabağda özümü yaxşı hiss etmirdim. Bizə yaxşı baxmırdılar, orda bizimlə pis rəftar edirdilər. Mən bunun üçün Dağlıq Qarabağdan Azərbaycan tərəfinə keçdim. Bütün hərbi qulluqçuları Azərbaycan tərəfə keçməyə çağırıram. Ona görə ki, Azərbaycan Respublikasında hərbi qulluqçularla necə rəftar edildiyinin şahidi oldum. Azərbaycanlılar müharibə istəmirlər, ancaq güclü müdafiə olunurlar. Bizim rəhbərlər isə bizi aldadır, xalqı öz maraqları xatirinə ölümə göndərirlər. Mən artıq mənasız savaşdan yorulmuşam, ölmək istəmirəm, mənasız müharibədən yorulmuşam. Azərbaycan Respublikasında bizə yaxşı baxırlar, yaxşı qulluq edirlər, paltarımı, geyimimi, yeməyimi yaxşı verirlər. Burada özümü çox yaxşı hiss edirəm. Bütün silahları yerə qoymağa, əsgərlərin valideynlərini, analarını, bacılarını Azərbaycan Respublikasına keçməyə çağırıram. Mənim Azərbaycan Respublikasına əsir keçməyimin səbəbi ölmək yox, yaşamaq və həyatımı davam etdirməkdir".

***

**Bu arada martın 31-də Küveytin Əl-Küveyt şəhərində keçirilən Suriya üzrə 3-cü Beynəlxalq Humanitar Donorlar Konfransında çıxışı zamanı Azərbaycan baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Qarabağdakı məskunlaşma ilə bağlı maraqlı faktlar açıqlayıb.**

"Hazırda bizi narahat edən məsələlərdən biri də budur ki, Ermənistan hökuməti erməni əsilli suriyalı qaçqınları Azərbaycana məxsus olan, lakin işğal altında saxladığı ərazilərdə, bütün beynəlxalq norma və prinsiplərə zidd olaraq yerləşdirir. Hesab edirik ki, konfrans zamanı toplanılan yardımlar yuxarıda qeyd edilən qeyri-qanuni məskunlaşma üçün deyil, məhz Suriya qaçqınlarının mühüm humanitar ehtiyaclarının ödənilməsi və həyat şəraitinin bərpası məqsədilə istifadə edilməlidir".


Əli Həsənov

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yaydığı məlumata görə, bunu həmin konfransda çıxışı zamanı baş nazirinin müavini Əli Həsənov bildirib.

**Baş nazirin müavini qeyd edib ki, Suriya münaqişəsi hazırda dünyada hökm sürən ən ciddi humanitar böhranlardan birinin yaranmasına səbəb olub:** "Münaqişə milyonlarla insanın, o cümlədən qaçqın və məcburi köçkünlərin ağır şəraitə düçar olması ilə nəticələnib və onların insan haqları pozulmaqda davam edir. Eyni zamanda Suriya qaçqınlarına öz ərazilərində sığınacaq vermiş qonşu ölkələr də münaqişənin nəticələrindən əziyyət çəkir".

**Ə.Həsənov bildirib ki, oxşar problemləri yaşayan ölkə kimi Azərbaycan Suriya xalqının əzab və əziyyətlərini daha yaxından hiss edir:** "20 ildən artıqdır ki, Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub və hazırda ölkəmizdə 1 milyondan çox insan qaçqın və ya məcburi köçkün kimi yaşamaqdadır. Hazırkı konfrans bizim üçün çox ağrılı bir günə təsadüf edir. 1918-ci il martın sonunda ermənilər tərəfindən Azərbaycanın müxtəlif bölgələrində çoxsaylı insan tələfatı ilə nəticələnən qırğınlar törədildiyi üçün 1998-ci il ildən etibarən 31 mart tarixi Azərbaycanlıların Soyqırım Günü kimi qeyd olunur".

**Azərbaycana gəlincə Ə.Həsənov deyib ki, dövlətimiz Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi və siyasi islahatlar nəticəsində artıq beynəlxalq aləmdə yeni donor ölkəsi kimi çıxış edir:** "Dünyada baş verən iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) Latın Amerikası, Afrika və Asiyanın 30-dan çox ölkəsində, həmçinin Heydər Əliyev Fondu Pakistan, Gürcüstan, Hollandiya, Misir, Rumıniya, Rusiya, Fransa, İtaliya, Vatikan, Bosniya, Herseqovina və başqa ölkələrdə humanitar və inkişaf məqsədli layihələri həyata keçirməkdə davam edir. Bu nəcib missiyanın davamı kimi, Suriyanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini dəstəkləyən, sülhsevər ölkə olan Azərbaycanda suriyalı qaçqınların humanitar vəziyyətinin yaxşılaşdırılması məqsədilə göstəriləcək maddi yardımın miqdarı dəqiqləşdirilir. Ümid edirik ki, Suriyada baş verən münaqişə tezliklə sülh yolu ilə həllini tapacaq, qaçqın və məcburi köçkünlər öz yurd-yuvalarına qayıdacaq və uzun müddət əziyyət çəkən Suriya xalqı beynəlxalq ictimaiyyətin səyləri ilə yenidən normal həyat şəraitlərinin bərpasına nail olacaq".

Konfransda ABŞ-ın, Səudiyyə Ərəbistanının, Birləşmiş Ərəb Əmirliklərinin, Danimarkanın, İsveçin, Türkiyənin, Almaniyanın və digər dövlətlərin təmsilçiləri çıxış edərək Suriyaya öz yardımlarını təklif ediblər.

**Konfransda çıxış edən BMT-nin baş katibi Pan Gi Mun Suriyada davam edən silahlı toqquşmalar nəticəsində humanitar fəlakətin yarandığını və bu münaqişənin tezliklə sona çatması üçün səylərin artırılmasının vacibliyini vurğulayıb:** "Daxili münaqişə irimiqyaslı hərbi əməliyyatlarla müşayiət olunur ki, bu da yerli əhalinin qaçqın düşməsi ilə nəticələnir. Minlərlə insan - uşaqlar və qocalar evsiz, qidasız qalıb. Onlara yardım üçün konfransda iştirak edən donor ölkələr öz səxavətlərini göstərməlidirlər".

Yekun nitqində isə Pan Gi Mun konfransın nəticəsi olaraq 3,8 milyard dollar məbləğində vəsaitin toplandığını, bunun da ötən illə müqayisədə 1,4 milyard dollar çox olduğunu diqqətə çatdırıb. O, donor ölkələr tərəfindən təqdim edilən vəsaitin Suriya qaçqınlarının həyat şəraitinin yaxşılaşması istiqamətinə yönəldiləcəyini bildirib.

**Konfransda Asiya, Afrika, Yaxın Şərq və Avropadan 78 dövlətin nümayəndələri ilə yanaşı, İslam Əməkdaşlıq Təşkilatının, Avropa İttifaqının təmsilçiləri də iştirak ediblər.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015

**Xəbər verdiyimiz kimi, martın 31-də Dövlət Neft Şirkətinin binasında keçirilən iclasda "Neftçi"nin Müşahidə Şurasının tərkibi təsdiqlənib. "Neftçi" İdman Sağlamlıq Cəmiyyəti yaradılıb və Müşahidə Şurasının da həmin qurumun tərkibində fəaliyyət göstərəcəyi müəyyənləşdirilib. Xalq yazıçısı Çingiz Abdullayevin şuranın sədri, rejissor və aktyor Bəhram Bağırzadə, futbol veteranları Səməd Qurbanov, Mübariz Zeynalov, SOCAR-ın vitse-prezidentinin müavini Cəbrayıl Məmmədov, "Neftçi"nin sabiq prezidenti Sadıq Sadıqov və SOCAR-ın Sərmayələr İdarəsinin rəis müavini Zaur Qəhrəmanov şuranın üzvləri seçiliblər.**

# "Bəlkə mən həqiqətən də kömək edə bilməyəcəm..."

## Çingiz Abdullayev "Neftçi" rəhbərliyinə gətirilməsindən danışdı

*Qərardan sonra "Yeni Müsavat"a geniş müsahibə verən Çingiz Abdullayev sözügedən qərar, strategiyaları, planları barədə danışıb. Müsahibimiz öncə bu təyinatla bağlı sualı cavablandırdı.*

***- Sizə bununla bağlı ilk təklif nə zaman gəlmişdi?***

- İki-üç ay bundan əvvəl mənə dedilər. Xahiş elədilər ki, razılığımı verim. Fikirləşdim ki, əgər mən nəyləsə kömək edə bilərəmsə, eləyim. Təbii ki, razılığımı verdim. Ondan sonra bu məsələ başlandı.

***- Razılığınızı verdiniz və indi nə düşünürsüz? "Neftçi"nin həyatında nə dəyişə bilər Çingiz Abdullayevdən sonra? Nələr edə bilərsiz bu klub üçün?***

- Mən hesab edirəm ki, şəffaflıq olacaq. Biz klubun dünyadakı imicini qaldırmalı, nəsə dəyişikliklər eləməliyik. Ümumiyyətlə, nəinki "Neftçi"də, futbolda hər şey dəyişməlidir. Axı görürsünüz ki, bizim idmanda nə qədər uğurlarımız var. Futbolda isə hələ uğur qazanmamışıq. Hesab edirəm ki, futbolda da belə uğurlar olmalıdır.

***- Siz dünya şöhrətli yazıçısınız. Bu təyinat baş tutanda belə rəy yarandı ki, Çingiz Abdullayevin "Neftçi"yə gətirilməsi həm də onun şöhrətinə hesablanmış bir qərar idi...***

- Yox, axı siz məndən də yaxşı bilirsiniz ki, bizdə idman federasiyası rəhbəri var. Hansısa nazirdir və ya tanınmış adamdır. O, ona görə deyil ki, gəlib orda iştirak edəcək. Vallah, mən meydana çıxıb, qapıçı olmayacam. Xahiş də eləsəz, gedib ola bilmərəm. Çox cavanam, məni götürməzlər. (gülür) Amma rəhbərliyə gətirilən adamlar kömək edirlər. Bəzi məsələlər olur ki, onları həll etmək lazım gəlir. Özümü demirəm, amma o məsələlərin həlli üçün nüfuzlu adamlar olmalıdır. Mən tək deyiləm, idman federasiyalarına baxanda, hərəsində bir tanınmış adam var. Özü də nəinki Azərbaycanda, xaricdə də bu, belədir. Tanınmış adamlar klubların prezidenti, rəhbəri olur. Təbii ki, kömək də edirlər. İndi götürün "Milan" klubunu. Sabiq baş nazir Berluskoni onun sahibi və prezidentidir. Görün o, klub üçün nə qədər işlər görüb, nələr edib. Ya da "Çelsi"ni götürün, biznesmen Abramoviç bu klub üçün görün nə qədər iş görüb. İndi bunlar həmin klubların sahibidirlər.

***- Yəni bu vəzifəyə seçilməniz o demək deyil ki, siz futbol haqqında yüksək biliklərə, vərdiş və bacarıqlara malik olmalısınız.***

- Yox, birincisi, biliklərə malik olmalıdır. Amma ikincisi də deyim ki, mən məşqçi, qapıçı olmayacam ki... Kömək edəcəm, sadəcə. Orda məşqçi



### "Ümumiyyətlə, futbolda hər şey dəyişməlidir"

də olacaq, qapıçı da. Peşəkar insanlar olacaq. Mən yalnız kömək edib idarə edəcəm. Ona görə gəlməmişəm ki, hücumçuya, qapıçıya yol göstərim, dərs keçim. Bizdə Şahmat Federasiyasının sədri Mərkəzi Bankın prezidenti Elman Rüstəmovdur. Başa düşürəm ki, o, şahmatı çox yaxşı oynayır. Amma o qrossmeyster kimi oturub onlarla oynamayacaq ki. Təbii ki, onları təşkil edir, kömək edir və çox sağ olsun. Taekvando, karate federasiyasına bizim nazirlərimiz rəhbərlik edir. Hesab edirəm ki, çox yaxşı kömək etdikləri üçün bizim həmin sahələrdə belə yaxşı uğurlarımız var. Mən təzəlikcə gəlmişəm Sankt- Peterburqdan. Bizim hörmətli deputatımız Adil Əliyev mənimlə orda idi. O da orda Kikboksinq Federasiyasının rəhbəri kimi təmsil olunurdu. Təbii ki, o, orda çıxıb dalaşmamalıdır. Sadəcə, o, federasiyaya kömək edir, rəhbərlik edir. Görün bu, necə nüfuzlu federasiyadır, onu dünyada necə tanıyırlar. Heydər Əliyev kuboku uğrunda orda yarışlar aparırdılar...Təbii ki, bütün dünyada belə olur və bizdə də belədir.

***- Müşahidə Şurası üzvlərindən biri də Bəhram Bağırzadədir. Belə məlum olur ki, məqsəd populyar şəxsləri vitrinə yığıb, kluba diqqət çəkmək idi?***

- Xeyr, səhv başa düşmüsüz. Bəhram Bağırzadə futbolu sevən adamdır. Axırıncı bir neçə ildə bir dəfə də olsun, futbolu buraxmayan adamdır. O da ora kömək üçün gəlib.

***- Şəxsi hesabınızdan kluba hər hansı maliyyə yönləndirməsi etməyi də planlaşdırırsız?***

- Onsuz da bilirsiniz ki, SOCAR "Neftçi"yə kömək edir. Mən istəməzdim ki, mövzunu maliyyə tərəfə yönləndirək. Ümumiyyətlə, təşkilati və digər məsələlər var ki, istəyirlər, nəsə olsun. Köməklik göstərək ki, bir az bəlkə səviyyəni qaldıraq. Düşünürlər ki, bəlkə tanınmış adam gəlsə, bunu edə bilər. Bəlkə düz eləmirlər, düz fikirləşmirlər? Bəlkə mən həqiqətən də onu edə bilməyəcəm? Çalışaram ki, kömək edim. Hesab edirəm ki, hər azərbaycanlı öz vətəninə kömək etməlidir, onu pisləməməlidir. Hər bir adam fikirləşməlidir ki, Azərbaycandan götürməyim, onun üçün nəsə edim. Onu fikirləşəndə təbii ki, yaxşı olacaq.

***- İndi strategiyanızı müəyyənləşdirmisiniz?***

- Bu sahə üzrə peşəkarları yığmaq və onlarla təbii ki, bu mövzuda söhbətləri etmək. İlk strateji addım budur. Mən hamısından ağıllı ola bilmərəm ki. Onlar ömür boyu futbolla məşğul olan insanlardır. Onları da yığıb, birgə müzakirə edəcəyik. Təbii ki, biz strategiyanı futbol məşqçiləri, peşəkarlarla oturub danışacağıq ki, onların fikri nədir. O mənada olacaq müzakirə. Daha o mənada yox ki, populyar adamlar gəliblər və heç nə edə bilmirlər, bacarmırlar. Xeyr, biz ora gəlmişik ki, nəsə kömək edək.

❑ **Sevìnc TELMANQIZI**

# Mənzil sahibi olmaq daha asan olacaq!

## İpoteka yenilikləri nə vəd edir?



**Mərkəzi Bank ipoteka proqramının təkmilləşdirilməsi istiqamətində yeni layihə hazırlayır. Layihə mətbuatda həm sadə insanlar, həm də iqtisadçı ekspertlər tərəfindən müsbət qarşılanıb. İpoteka proqramında edilən son dəyişikliklərdə, ipotekaya ayrılan vəsaitlərin artırılması, "Sosial evlər"in tikintisi, proqramın regionlarda tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. Bəs görəsən, bu yeniliklərin tətbiqi mənzil bazarında nəyi dəyişəcək? Aztəminatlı insanların mənzil sahibi olması reallaşacaqmı?**

"Yeni Müsavat"a açıqlamasında ipoteka proqramında edilməli olan zəruri dəyişikliklərdən danışan **iqtisadçı ekspert Natiq Cəfərli** bildirib ki, layihə özlüyündə çox müsbət nəticələrə səbəb ola bilər: "Diqqət çəkən əsas məqam ilkin ödənişin ləğvi və Bakıda və regionlarda paritet əsaslarla ipotekaların paylanılması metodologiyasının tətbiqidir. Bundan əlavə, sosial ipotekada faizlərin azaldılması nəzərdə tutulur. Bu deyilənlər nə qədər reallaşacaq, bəlli deyil. Son variant hazırlandıqdan sonra rəsmi məlumat veriləcək və o zaman məlum olacaq. Burada bir neçə maraqlı məqam var. Əgər regionlarda ipotekaların verilməsini təşviq etmək istəyiriksə, Mərkəzi Bank buna çalışırsa, bu, təkcə ipotekaların ayrılması ilə olmayacaq. Regionlarda ev almaq istəyən gənclərin gələcəkdə işlə təminatı, biznes qurmaq imkanlarının olmasını da nəzərə almaq lazımdır. Çünki regionlardan Bakıya axın ona görə baş verir ki, orada iş tapmaq çətindir. Regionlara ipoteka kreditlərinin verilməsi pozitiv addımdır, ancaq bu addımın yan tərəflərini də düşünmək lazımdır. Təkcə ipoteka verməklə əhalinin regionlarda qalmasını təmin etmək və ya Bakıya gəlmiş insanların geri dönüşünü təmin etmək mümkün olmayacaq. Ona görə də paralel olaraq regionların inkişafını ehtiva edən kompleks proqram hazırlanmalıdır. Düzdür, Azərbaycan hökuməti iki dəfə regionların inkişaf proqramını qəbul etsə də, biz onun nəticələrini görmədik. Ona görə də düşünülmüş, orta və uzunmüddətli hədəflər qoymuş və ciddi planları ehtiva edən proqramın hazırlanmasına ehtiyac var".

### İlkin ödənişsiz ipoteka krediti!

İkinci məsələ, ilkin ödənişin ləğvi məsələdir. Bu da maraqlı yanaşmadır və bir çox ölkələrdə tətbiq olunur. Sosial ipoteka bildiyiniz kimi, 4 faizdir və 1 faiz də azalması gözlənilir. 3 faizli ipoteka çox yaxşı rəqəmdir. Bu, insanların həyatına müsbət mənada çox ciddi təsir göstərə bilər. Ancaq sosial ipotekanın həcmi həddindən artıq aşağıdır. Normal kommersiya ipoteka 14-15 faizlə verilir, ən ucuz halda isə 12 faizdən başlayır. Bu böyük rəqəmlərdir və bu qədər faizlə ipoteka götürmək xüsusən gənc ailələr üçün çox çətindir. İndiki durumda əhalinin qazancının azaldığını, biznesdə durğunluq yaşandığını, bəzi yerlərdə ixtisarların aparıldığını, Rusiyadan gələn pulların kəskin şəkildə azalmasını da nəzərə alaraq 12-15 faizlə verilən ipotekaların insanlar tərəfindən həvəslə qarşılanacağını demək çox çətindir. Hesab edirəm ki, sosial ipotekadan başqa ipotekanın digər növləri ilə bağlı da qərarlar qəbul olunmalıdır və ipoteka faizlərinin aşağı salınması yolları tapılmalıdır. Bildiyimiz kimi, yanvar ayından sonra ipoteka bazarında durğunluq hökm sürür. Bu səbəbdən yeni qərarlar ipoteka bazarını canlandıra bilər.

### "Sosial ev" nə deməkdir?

**Sosial evlərin yaradılmasına gəlincə, N. Cəfərli bildirdi ki, bu, aztəminatlı əhalinin mənzil sahibi olması baxımından çox yaxşı bir proyektdir:** "Bu haqda ən yaxşı təcrübə qonşu Türkiyənindir. Orada Toplu Konuk İdarəsinin ölkənin müxtəlif şəhərlərində belə proyektləri var. Kvadratmetri elə də böyük olmayan, əsasən ikiotaqlı, 70-80 kvadratmetrdən ibarət olan evlər tikilir və ilkin ödəniş olmadan 25 illik kreditlə əhaliyə paylanır. Belə evlər şəhərlərin mərkəzində olmur, nisbətən kənarlarda olur və çox ucuz başa gəlir. İnsanlar ayda 250-300 lirə, yəni təxminən 150 manat ödəməklə 25 ildən sonra mənzillərin tam sahibinə çevrilirlər. Qazaxıstan hökuməti də bu istiqamətdə addımlar atır. Azərbaycanda bu necə həyata keçiriləcək, dövlət tərəfindən tikiləcək, yoxsa özəl şirkətlərə həvalə olunacaq, bu bəlli deyil. İdeya olaraq çox yaxşıdır, ancaq ola bilər ki, həyata keçirilməsi zamanı xroniki problemlərlə qarşılaşsın və gözlənilən effekti verməsin. Çünki Azərbaycanda mənzillərin maya dəyərinin yüksək olmasının səbəbi yalnız banklarda deyil, ölkədəki neqativ hallar, xüsusilə də monopoliyanın olması da qiymətlərə təsir edir. Bu layihə ciddi şəkildə, xarici investorların cəlb edilməsi ilə həyata keçirilsə, yaxşı effekt verə bilər. Ancaq ənənəvi üsullarla yanaşılsa, bu yaxşı ideya da həyata keçirilmədən iflasa uğrayacaq".

### İpoteka yenilikləri mənzil bazarına necə təsir edəcək?

**İqtisadçı ekspert bildirdi ki, ipoteka sisteminə tətbiq ediləcək yeniliklər özünü doğrultsa, mənzil bazarında mövcud olan şişirdilmiş qiymətlər tənzimlənəcək:** "Azərbaycanda mənzil bazarında qiymətlər həddindən artıq şişirdilib. Bunun heç bir iqtisadi izahı yoxdur. Əgər ölkədə rəqabətli mühit olsa idi, mənzil bazarında qiymətlər bu qədər şişirdilməzdi. İllərdir Azərbaycanda mənzil bazarına ən böyük təsir edən amil Rusiyada çalışan insanların ölkəyə göndərdiyi pullar idi. Orada çalışan minlərlə insan qazancının böyük bir hissəsini Azərbaycanda daşınmaz əmlaka yatırırdı. Çünki digər biznes strukturlarına girmək onsuz da mümkün deyildi. Mənzil bazarında bu cür əcaib vəziyyətin yaradılmasında onların da ciddi rolu olurdu. Ancaq son dövrlərdə görürük ki, Rusiyadan gələn vəsaitlər təqribən 5-6 dəfə azalıb. Bu o deməkdir ki, mənzil bazarı həmin kapitaldan məhrum qalacaq. Hətta əks proses də gedir, burada bir neçə evi olan iş adamları Rusiyadakı bizneslərini qorumaq üçün həmin mənzilləri bazara çıxarırlar. Bu da gələcəkdə mənzil bazarında qiymətlərin enməsinə təsir edəcək amillərdən biridir.

Bundan əlavə, qeyd etdiyimiz sosial proyektlər baş versə, bu da mənzil bazarında qiymətlərin düşməsinə səbəb olacaq. Hazırda isə bazardakı qiymətlər anormaldır. Azərbaycanın iqtisadi potensialına uyğun gəlməyən qiymətlərdir. Bakının mərkəzindəki evlərin qiymətinə Avropada 2-3 mənzil və ya bir villa almaq olar. Düşünürəm ki, bu addımlar mənzillərin qiymətini tənzimləyəcək".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015

**Qardaş Türkiyədə Çanaqqala zəfərinin 100-cü ildönümü ilə bağlı möhtəşəm tədbirin hazırlıqları davam edir. Bu arada Milli Məclisin deputatı Fazil Mustafa 24 aprel tarixində Çanaqqala Zəfərinin 100 illiyini Azərbaycanın da rəsmi şəkildə qeyd etməsi təklifini irəli sürüb. Deputat bu təklifi Milli Məclisdə də səsləndirəcəyini qeyd edib. Bu məsələni də əhatə edən suallarla Türkiyənin Azərbaycandakı səfirliyinə yeni təyin olunmuş mətbuat üzrə müşavir Hamid Karadenizə müraciət etdik.**

# "Kim Türkiyəyə, Azərbaycana qarşı necə davranacaqsa, qarşılığını görəcək"

## **Hamid Karadeniz:** "Kim barış, qardaşlıq, hüzur istəyirsə, buyursun, Çanaqqalaya gəlsin"



***- Hamid bəy, Çanaqqala zəfərinin 100 illiyi ilə bağlı hazırlıqlar nə yerdədir? Bu törənlərdə başlıca mesaj, əsas hədəf nə olacaq?***

- Türkiyə Çanaqqala zəfərinin 100-cü ildönümündə dolayısı ilə bütün dünyaya bir mesaj verir. Prezidentimiz başda olmaqla, iqtidarımız bununla deyir ki, ey dünya, biz savaş, düşmənlik istəmirik, barış, qardaşlıq, insan kimi yaşamaq tərəfdarıyıq. Biz hər kəsə barış əlimizi uzadırıq. Prezidentimizin bəyanatlarında da bu, zaman-zaman yer alır. Biz hər kəsə gül - çiçək uzadırıq. Nifrətlər, düşmənliklər, qovğalar aradan qalxsın, barış, qardaşlıq, hüzur üzərinə bir dünya quraq, deyirik. Bunun üçün Çanaqqalada böyük bir tədbir düzənlənəcək. Amma bunun qarşılığında Ermənistan kin, nifrət üzərində tədbir keçirəcək. Kimlərisə Ermənistana çağırıb Azərbaycana, Türkiyəyə, türklərə qarşı kin və nifrət tədbiri keçirəcəklər. Bizimlə onların fərqi budur. Bütün dünyaya barış, qardaşlıq, hüzur gətirilməsi, dünya insanının firavan yaşaması üçün deyirik ki, keçmişdə yaşananlar olub, keçib artıq. Çanaqqala zəfərinə dünya güclərinin liderləri də çağırılıb. Artıq keçmiş keçmişdə qalıb, buyurun, gəlin, dünyanı gözəlləşdirək, firavan yaşayaq, deyirik.

***- Prezidentlər səviyyəsində mərasimə kimlər qatılacaq, indiki situasiya üçün məlumatımız varmı?***

- Hazırda konkret say və ya ad deyə bilməyəcəyəm. Amma uzaqdan-yaxından, Çanaqqala ilə əlaqəli olan, o dövrdə savaşa qatılanların hamısı dəvətlidir.

***- Putin və Olland isə Ermənistanı seçdi...***

- Təbii, hər kəs sevdiyi ilə bərabər olacaq. Onların da seçimi belə oldu. Bizim prezidentimiz hər zaman eyni şeyi söylədi: "Biz qardaşlıq, barış, hüzur istəyirik. Kim barış, qardaşlıq, hüzur istəyirsə, buyursun, Çanaqqalaya gəlsin". Ermənistan və ona yaxın olanlar da istədiklərini seçirlər. Onlar hələ də kin, nifrət üzərində bir şeylər edirlər.

***- Çanaqqala zəfərinin keçirildiyi gün - 24 apreldə yalançı "erməni soyqırımı"nın 100 illiyi İrəvanda qeyd olunacaq. Ermənilərin "soyqırım" şousunun mənfi nəticəsi olaraq Türkiyəyə qarşı sərt təpkilər başladıla bilərmi?***

- Təbii keçmişdə bunu tanıyanlar oldu. Türkiyə bu məsələyə çox önəm vermir. Kim Türkiyəyə, Azərbaycana qarşı necə davranacaqsa, qarşılığını görəcək. Türkiyə açıqca, qəti şəkildə söyləyir ki, biz qardaşlıq, barış istəyirik. Kimin mövqeyi necə olacaqsa, biz də ona uyğun şəkildə siyasətimizi, mövqeyimizi sərgiləyəcəyik. Bizim bu məsələdə mövqeyimiz açıq və qətidir. Sayın cümhurbaşqanı hər dəfə dedi ki, biz hər kəsə qardaşlıq, barış əli uzadırıq, gəlin qardaşlığı birlikdə paylaşaq, dünyada firavan yaşayaq. Yəni hədəfimiz budur.

***- Azərbaycanın millət vəkili Fazil Mustafa Çanaqqala zəfərinin Azərbaycanda da dövlət səviyyəsində keçirilməsini təklif edib. Sizin buna münasibətiniz maraqlı olardı...***

- Allah razı olsun, nə gözəl. Əlbəttə ki, Türkiyədə savaşların baş verdiyi zaman Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Azərbaycandakı qardaşlarımızın köməyinə gəldi. Eyni zamanda burdan da azərbaycanlı qardaşlarımız Çanaqqala savaşında qardaşlarının yardımına getdi. Yəni o zaman qardaşlığın ən zirvə dönəmini yaşadıq. Bu gün də onları yad etmək tarixə bir yolçuluq etmək, bu olayları bizdən sonra gələn nəsillərə də təqdim etmək paylaşma adına gözəl bir şeydir. Şəxsən mən bunu təqdir edirəm. Əlbəttə ki, Türkiyə ilə Azərbaycanın qardaşlığı dünyada nadir rast gəlinən qardaşlıqdır. Bizim tarixi, mədəni, qan bağlarımız, tarixi dərinliyimiz var. "İki dövlət, tək millət" boş yerə söylənilməyib. Bunu deyənlər bu işin icrasında, şüurunda olan insanlardır. Onun üçün də Azərbaycanın üzüntüsü üzüntümüz, sevinci sevincimizdir. Azərbaycanlı qardaşlarımız üçün də Türkiyə eyni məna kəsb edir.

***- Hamid bəy, Ənvər Paşanın nəvəsi Bakıya gəlir. Türkiyə səfirliyinin bununla xüsusi proqramı varmı?***

- Təşkil olunmuş bir səfərdir. Səfirliyi ziyarət edərlərsə, səfirimiz də, hazırda izinlidir, gərgin qrafiklə çalışır, ona görə hazırda konkret fikir bildirə bilmirəm. Lakin dolayısı ilə səfirliyimizdə olarlarsa, səfirliyimizin onu qonaq etməsi böyük şərəf olar...

❑ **Elşad PAŞASOY**

# Böyük siyasətdə "yumşaq güc" effekti

## ABŞ-ı digər fövqəlgüclərdən üstün edən təkcə hərbi-iqtisadi qüdrəti deyil...

**Siyasi və geosiyasi proseslərin, situasiyaların təhlilində və təqdimatında tez-tez müxtəlif terminlərdən istifadə edilir. Son zamanlar şərhçilərin, "beyin mərkəzləri"nin vaxtaşırı yararlandığı belə terminlərdən biri də "yumşaq güc" anlayışıdır.**



Arayış üçün bildirək ki, "yumşaq güc" ("soft power") anlayışını elmi ədəbiyyata ilk dəfə 1990-cı ildə amerikalı tarixçi və publisist Cozef Nay gətirib. Ən geniş anlamda "yumşaq güc" - hər hansı ölkənin mədəni, iqtisadi, siyasi potensialını reallaşdırma səviyyəsi ilə bağlıdır. Burada daxili siyasətlə yanaşı, böyük ölçüdə xarici siyasət də ciddi şəkildə nəzərə alınır.

Yəni əslində söhbət dövlətin öz gücünü təkcə "hərbi əzələləri" ilə deyil, paralel surətdə və ya eyni zamanda digər sahələr (iqtisadiyyat, mədəniyyət, hüquq və s.) üzrə, çoxşaxəli şəkildə təsbit eləmək və bunun nəticəsində öz siyasi, geosiyasi, başqa maraqlarını daha əlverişli şəkildə reallaşdırmaq bacarığından gedir.

O zaman bu terminin siyasi-diplomatik dairələrdə geniş istifadə ediləcəyi bilinmirdi. Lakin artıq dünya liderliyinə can atan dövlətlərin hərəkətlərini, siyasətlərini xarakterizə etmək üçün onda geniş istifadə edilməkdədir. Söhbət ilk növbədə ABŞ, Rusiya və "Şərqin balinası" sayılan Çindən gedir.

BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən üçü kimi bu dövlətlər yüz illərdir dünya hegemonluğu uğrunda gizli-açıq mübarizə aparır. Konkret olaraq Rusiya (SSRİ) və ABŞ son olaraq 2-ci Dünya müharibəsi illərində müvəqqəti, məcburi müttəfiqlərə çevrilsələr də, müharibədən dərhal sonra yenindən əvvəlki biçimlərinə qayıdaraq, dünyaya hökm eləmək yarışına qoşuldular.

Keçmiş SSRİ-nin hərbi-siyasi blok olaraq NATO-ya qarşı yaratdığı sosialist düşərgəsi, təxminən yarım əsr sürən "soyuq savaş", Qərblə dərin ideoloji-mədəni cəbhələşmə, dünyadakı kommunist (sosialist) və antikommunist rejimlərə hər cür siyasi, maddi, hərbi dəstəyin verilməsi - bu yarışın ən amansız təzahürləri idi.

Ayrı sözlə, iki əsas qütb arasında rəqabət təkcə klassik üsullarla - sürətlə silahlanma, kosmosun daha geniş tədqiqi ilə aparılmırdı. Dünyaya, irili-xırdalı başqa ölkələrə təsirlər eyni zamanda "yumşaq güc" faktoru hesabına - güclü iqtisadiyyat, qabaqcıl mədəniyyət, bənzərsiz elmi-texnoloji uğurlar, hətta böyük idman göstəriciləri hesabına həyata keçirilirdi.

Yəni əslində və ən əvvəl dəyərlər savaşı gedirdi. Bu savaşda qalibin kimliyi bəllidir - Qərb, Amerika. Səbəbi də sirr deyil. Çünki SSRİ, ardınca isə onun hüquqi varisi kimi Rusiya dünyaya, postsosialist düşərgəsinə və postsovet ölkələrinə sonadək özünün "yumşaq güc" effektli təsirini saxlaya bilmədi.

Rusiya indi olsa-olsa, öz hərbi və nüvə potensialına arxalanan, bir az da xammal ölkəsi qismində böyük güc sayılır. "Yaxın qonşular" üçün o, ciddi iqtisadi, texnoloji, elmi-mədəni örnək kəsb eləmir. Bu ölkənin dünyaya real təsiri imkanı Ukraynadakı qanlı olaylardan da göründüyü kimi, sırf hərbi-nüvə gücünün şərtləndirdiyi xofdan qaynaqlanır. Yerdə qalan sahələr üzrə Moskva "yumşaq güc" təsirli siyasət yürütmək qüdrətində deyil.

Doğrudur, son vaxtlar Kreml ideoloqları postsovet məkanında rus dilinin, rus mədəniyyətinin daha yaxşı oturuşmasına diqqət yönəltməyə başlayıblar. Nədən ki, dilin oturuşması həm də bu dilə məxsus mədəniyyətin oturuşması, yerli topluma mədəni təsir forması, Moskva üçünsə üstəlik, "5-ci kolon", separatizm ocağı deməkdir. Lakin dünya tarixi göstərir ki, təkcə mədəni faktorla "yumşaq güc" təsbiti mümkün deyil. Bundan ötrü siyasi-hərbi, iqtisadi, mədəni gücün vəhdəti gərəkdir.

Rusiyanı ABŞ-dan fərqləndirən, onu birmənalı şəkildə qlobal fövqəl güc olmağa qoymayan, qıcıqlandıran əsas cəhət də belə "təsir buketinin" yoxluğudur - Rusiya bu gerçəkliklə barışmaq istəməsə də. ABŞ isə əksinə, belə "buket"ə sahibdir. Məhz bu üzdən Amerika hərbi gücə əl atmadan, hərbi güclə hədələmədən, xarici siyasət hədəflərinə çətinlik çəkmədən nail ola bilir. Çünki həm də iqtisadi, mədəni, elmi, virtual gücdür. Rusiyanı zəiflətmək üçü neftin qiyməti ilə edilən manipulyasiya buna ən parlaq örnək sayıla bilər.

Son illər "iqtisadi möcuzə"yə imza atmış Çin isə Rusiyadan fərqli olaraq, Amerika ilə rəqabətdə daha sanballı "yumşaq" güc siyasəti yürütmək iqtidarında görünür. Bu yerdə yada salaq ki, ötən il Ümumi Daxili Məhsulun həcminə görə "Şərqin balinası" ilk dəfə olaraq ABŞ-ı da ötüb keçib.

Bəzi təhlilçilər Çinin "yumşaq güc" imkanlarını Qərb dövlətlərindən üstün sayırlar. Səbəbi də məhz Şərq mədəniyyətinin xüsusiyyətləri ilə bağlayırlar. Ancaq dünya siyasətinə və düzəninə həlledici təsir imkanı hələ ki yenə Amerikaya məxsus olaraq qalır. Ona görə ki, qlobal güc - təkcə üstün hərbi potensial deyil, üstün və cəlbedici iqtisadiyyat, üstün və cəlbedici mədəniyyət, idarəçilik sistemi, üstün əxlaqi-mənəvi dəyərlər, o sırada təməl insan haqlarına, vicdan azadlıqlarına verilən önəm deməkdir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015



# "Qıfılı bağla, at dənizə, gözlə..."

Samir SARI

**Bir müddət öncə Bakıda öldürülən falçının qatilinin ali təhsilli hüquqşünas olduğu barədə xəbəri oxuyanda, yəqin ki, şoka düşənlər olub.**

Təbiidir. Hüquqşünaslar hələm-hələm adam öldürməzlər, çünki onun cəzasının nə olduğunu hamıdan yaxşı bilirlər.

Burada qeyri-təbii olan şey falçının ölməsidir. Adətən başqalarını gələcəkdə nə gözlədiyini deyən, özlərindəki fövqəl istedadla *(vergiylə)* onların mərəzinə əlac qılan adamlar gərək öz başlarına da nə gələcəyini bilsinlər. Təəssüf ki, bilmirlər. Artıq neçə falçı qolu qandallı halda içəridədir, bir-ikisi öldürülüb, yerdə qalanı isə vaxtaşırı söyülür-döyülür.

Hüquqşünasın falçıya dua yazdırması isə lap anormal haldır. Adam orta məktəbi əla qiymətlərlə bitirib, yüksək balla hüquq fakültəsinə daxil olub, oxuyub-bitirib, pis-yaxşı öz ixtisasına uyğun işdə işləyir, camaatın içində "oxumuş adam" sayılır, amma durub gedib falçının yanına ki, bəs mənim dərdimə bir əlac et.

Adam, əsəblərin yerində deyil, dispanserlər var, psixiatrlar var, get, müayinə eləsinlər, müalicəyə başlasınlar. Başın ağrıyır, yenə cürbəcür həkimlər var, get analiz ver, müayinə olun, dərdini bil. Falçı sənə nə edəcək? Onun hansısa bir tibb təhsili, bilgisi, məlumatı varmı ki, sənə də kömək eləsin...

Dünyagörüşsüz, elmsiz, savadsız, nadan, cahil, xurafatçı, mövhumatçı adamların falçıya, yeni terminlərlə desək, ekstrasensə pənah aparması, bu kimi dələduzlardan mədəd umması bir az başadüşüləndir, amma ali təhsilli adamların falçı qapısında boynubükük oturub gözləməsi dünyanın ən tragikomik tablosudur.

Çox təəssüf, yüz dəfə təəssüf, min dəfə əfsus ki, bu saat bizim ölkəmizdə istənilən falçı ikicə dəfə telekanalda görünməklə 40 ilin tibb professorundan daha çox pasiyent toplaya bilir.

İnsanlarda möcüzəvi şəfaya inam hardandır, mat qalmalı işdir. Hamı istəyir ki, bir dua ilə bütün sağlıq problemləri həll olunsun, hətta o dua onun karyerasına, biznesinə də ciddi təkan versin.

Prinsipcə, mümkün deyil. Üstünə üç-beş kəlmə mənalı və ya mənasız söz yazılmış kağızı cibə qoymaqla başdakı miqrenin müalicəsi mümkünsüzdür. Bir əməkdaşımız var, belə bir hadisə danışır: "Bir gün anam xaricdə oxuyub gəlmiş molla qohumumuza məni göstərib dedi ki, bizim uşağın başı ağrıyır, ona bir dua yaz. Molla anama baxıb başını buladı, dedi ki, ay bacı, oğlunun başı ağrıyır, həkimə apar dəə, dua ona nə edəcək axı".

Əlbəttə, həmin molla qohumu olduğu üçün qadına belə deyib, başqası olsaydı, o da kağıza "bismillah" yazacaq, 10-15 manatını alıb qoyacaqdı cibinə.

Söz yox, bütün dünyada ekstrasenslərə inanırlar, pul verirlər, amma bizdə bu inam kütləvidir, cəmiyyətin bütün təbəqələrini, bütün qruplarını əhatə edir. Hər gün minlərlə adam "bəxtini açdırmaq" və kimlərinsə "bəxtini bağlatdırmaq" üçün falçıların, ekstrasenslərin, cürbəcür dələduzların yanına gedir.

Elektrik mühəndisi olan və Bakı bulvarındakı yük terminalında işləyən bir tanış vardı, o, bir dəfə bulvarda görüb ki, iki qız sahilə yaxınlaşdı, oğrun-oğrun o tərəfə-bu tərəfə baxaraq çantalarından kağıza bükülü ağır bir şey çıxarıb suya atdılar. Qızlar gedəndən sonra mühəndis maraqlanıb, dənizin dibində güclü maqnit sahəsi yaradan qurğunu işə salıb, əşyanın suya atıldığı yerə sallayıb, sonra onu sudan çıxarıb, görüb ki, qurğunun baltasına əlliyə yaxın paslı və qəttəzə qıfıl yapışıb. Bəzilərinin açarı da üstündəymiş. Bu o deməkdir ki, həmin qızlar yenicə kiminsə "evini yıxıblar" və buna inana-inana, xoşbəxtcəsinə evə yollanıblar.

Təsadüfən həmin "qıfılı bağlanmış" oğlan o günlərdə qəzaya düşsə, ya da başına nəsə xoşagəlməz bir iş gəlsə, qızlar təbii ki, onlar üçün bu savab işi görmüş ekstrasensə inanacaq və bir daha yanına gedəcəkdilər.

Əksinə olsaydı, yəni "bəxti bağlanmış" oğlan özünə qəşng toy eləsəydi, daha böyük vəzifəyə təyin olunsaydı, o halda qızlar başqa tədbirlərə əl atacaqdılar, ağıllarına gəlməyəcəkdi ki, qıfılı kilidləyib suya atmaqla insanların həyatını pisləşdirmək mümkün deyil.

Hamı falçını öldürən hüquqşünas qədər hövsələsiz deyil axı, gedib məsələni birdəfəlik həll eləsin...

# Baş bankir Milli Məclisdə suallara cavab verdi

## Vahid Əhmədov: "Nəyə görə dollar 78 qəpik olanda dollarla alınan kreditlər indi 1 manat 5 qəpiklə ödənməlidir?"

**Milli Məclisin İqtisadi siyasət komitəsinin aprelin 1-də keçirilən iclasında Mərkəzi Bankın İdarə Heyətinin indiki sədri Elman Rüstəmovun Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyünə namizədliyi təsdiq edilib.**

Komitə Mərkəzi Bankın İdarə Heyəti sədrinin müavini Xaqani Abdullayevin də Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyünə namizədliyini təsdiq edib. Modern.az-ın məlumatına görə, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov artıq dördüncü beşillikdir ki, bu strateji dövlət qurumuna rəhbərik edir. Elman Rüstəmov ilk dəfə 1995-ci ilin yanvarında Milli Bankın (Mərkəzi Bankın) İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Daha sonra o, 2000 və 2005-ci illərdə yenidən 5 il müddətinə Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə təsdiqlənib.

Sonuncu təyinat 2010-cu ilin aprelində baş tutub. 2010-cu il aprelin 6-da prezident İlham Əliyevin sərəncamı ilə Elman Rüstəmov daha 5 illiyə Mərkəzi Bankın İdarə Heyətinin sədri təyin edilib. İqtisadiyyat elmləri üzrə doktor E.Rüstəmov 2012-ci ilin fevral ayında Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətinə görə "Şöhrət" ordeni ilə təltif edilib. E.Rüstəmovun səlahiyyət müddəti bu il aprelin 6-da başa çatır.

Parlamentdəki müzakirələrdə E.Rüstəmov deputatların suallarını cavablandırmalı olub. "Manatın korreksiyasından sonra da valyuta satışı davam edir. Bundan sonra 1 milyarddan çox valyuta satmışıq", - deyə E.Rüstəmov bildirib. O, manatın ucuzlaşmasından sonra Azərbaycan cəmiyyətinin etibarını necə bərpa etmək yollarından da söz



**Elman Rüstəmov:** "Kim hansı valyuta ilə kredit götürübsə, həmin valyuta ilə də geri qaytarmalıdır"

açıb. Baş bankirin sözlərinə görə, Azərbaycan xalqının inamı hər şeyi açıq danışmaqla, şəffaflıqla bərpa ediləcək. E.Rüstəmov bildirib ki, Azərbaycan dollarlaşma üçün öz valyutasını satmaqdan imtina edə bilməz. O, bugünkü valyutanın yarısının dollarlaşmaya sərf olunduğunu vurğulayıb: "Bu proses hələ ki davam edir. Çox güman ki, aprel-may aylarına qədər davam edəcək".

**Mərkəzi Bankın İdarə Heyətinin sədri E.Rüstəmov deputat Vahid Əhmədovun manatın devalvasiyasının ardından manatla götürülən kreditlərin aqibəti barədə verdiyi sualı da cavablandırıb.** "Kim müqavilə ilə hansı valyuta ilə kredit götürübsə, həmin valyuta ilə də geri qaytarmalıdır. Bazar iqtisadiyyatı şəraitində bankların hansı valyuta ilə kredit verməsi onların öz işidir. Onlar öz risklərini özləri müəyyənləşdirir. Biz banklara tövsiyə edirik ki, kreditlərin vaxtını uzatsınlar. Bu bankların da marağındadır".

**E.Rüstəmovun sözlərinə görə, faiz dərəcələri yüksək olan banklar əhali üçün güzəştə getməlidirlər:** "Bu proses başlayıb. Yaxın vaxtlarda rübün yekunları əsasında açıqlamalar veriləcək". **Onun bu açıqlaması V.Əhmədovun növbəti sualına səbəb olub:** "Nəyə görə dollar 78 qəpik olanda dollarla alınan kreditlər indi 1 manat 5 qəpiklə ödənməlidir?".

**E.Rüstəmov bir daha xatırladıb ki, kredit müqavilədə göstərilən valyuta ilə qaytarılmalıdır. Bununla belə, o bildirib ki, bank müştərinin razılığı olmadan kreditləri dollarla hesablayırsa, bu çox ciddi qanun pozuntusudur:** "Belə qanun pozuntuları varsa, siz bunun hamısını bizə göndərin. Bununla bağlı çox ciddi tədbirlər görəcəyik. Amma müqavilə öhdəliyində kreditin manatla və ya dollarla qaytarılması nəzərdə tutulubsa, buna əməl edilməlidir. Kursun isə önəmi yoxdur. Kim krediti hansı valyuta ilə götürübsə, onunla da qaytarmalıdır". **E.Rüstəmov onu da əlavə edib ki, ipoteka məbləğlərinin artırılması ilə bağlı hökumətə təkliflər edilib:** "Bu həm sosial, həm də kommersiya ipotekalarına aiddir. Biz bununla yanaşı, təklif edirik ki, ucuz tikintilər həyata keçirilsin".

❑ ELŞAD

# Türkiyədəki elektrik böhranı Azərbaycanda yaşana bilərmi?

## İlham Şaban: "Azərbaycanda oxşar hadisə bir neçə dəfə baş verib"

**Martın 31-də səhər saatlarında Türkiyədə yerli vaxtla 10.30-dan başlayaraq elektrik sistemində qəfildən nasazlıq baş verib və nəticədə Ankara, İstanbul şəhərləri də daxil, ölkənin əksər bölgələrində işıqlar sönüb. Elektrik enerjisinin kəsilməsi metro, tramvay və qatarların, həmçinin fabrik, zavod, xəstəxana və bir çox müəssisələrin fəaliyyətini iflic hala salıb. Bir sözlə, Türkiyədə ötən gün ən böyük ajiotajlardan biri yaşanıb.**

Baş verən qəza ilə bağlı baş nazir Əhməd Davudoğlu bəyanat verərək "Terror hücumları ehtimalını araşdırırıq" deyib. Qardaş ölkənin başına gələn arzuolunmaz hadisə Azərbaycanda da həyəcanla izlənilib. "Oxşar tendensiya bizdə də baş verə bilərmi" sualı cəmiyyətdə narahatlığa səbəb olub.

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev Azərbaycanda bu kimi hadisələri mümkünsüz hesab edir:** "Çünki gördüyünüz kimi, ölkəmizdə ən güclü küləklərin olduğu vaxtda belə hadisə baş verməyib. Narahatlığa əsas yoxdur. "Azərişıq" olaraq biz artıq təkcə Bakı şəhərində yox, bütün regionlarda fəaliyyət göstəririk. Hazırda bütün rayonlarda elektrik xətlərinin dəyişdirilməsi prosesi gedir. Bu da bütün regionların fasiləsiz elektriklə təchizatı deməkdir. Türkiyədə baş verən hadisəyə gəlincə, bu bizim üçün də gözlənilməz oldu. Ancaq bu haqda heç nə demək mümkün deyil".



**Tanrıverdi Mustafayev:** "Ölkədəki elektrik stansiyalarının təhlükəsizliyi daim nəzarətdədir"

**Terror hücumlarının ola biləcəyi ehtimalına gəlincə, Mustafayev bildirdi ki, Azərbaycanda elektrik stansiyalarının təhlükəsizliyi də daim nəzarətdədir:** "Çünki bu sistem özü təhlükəlidir. Cənab prezident bu qurumun adını dəyişib "Azərişıq" qoyanda orada təhlükəsizliyi və elektrik sistemlərinin yüksək dayanıqlı olmasını vacib şərt kimi qeyd etmişdi. "Azərişıq" tərəfindən də təhlükəsizlik tədbirləri çox yüksək səviyyədə həyata keçirilir".

**Enerji məsələləri üzrə ekspert İlham Şaban isə bildirdi ki, Azərbaycanda oxşar hadisə dəfələrlə yaşanıb:** "2000-ci ildə Azərbaycanda belə bir hadisə olmuşdu. Bakıda, o cümlədən ölkənin bir sıra rayonlarında elektrik enerjisinin kəsilməsi baş verdi. Səbəb isə o idi ki, Mingəçevirdən bölgələrə gedən yüksək gərginlikli elektrik xətlərinin üçündən ikisində açılma baş vermişdi. Sonradan məlum oldu ki, bu, Ağsu rayonunda baş verən yanğınla əlaqədardır. Bu hadisə zamanı Abşeron rayonunun 80 faiz ərazisində elektrik təchizatı dayanmışdı. Ondan sonra belə bir hadisə bir də 2011-ci ildə Bakıda qısamüddətli olmuşdu. Bu zaman hətta metro da yarım saatdan çox tuneldə qaldı. O vaxt da yüksək gərginlikli elektrik xətlərində açılma olmuşdu. Bakının enerji təhlükəsizliyi tam təchiz olunmayıb. "Azərenerji"nin o zamanlar Azərbaycanın siyasi rəhbərliyi qarşısında öhdəlik götürməsinə baxmayaraq, bu həyata keçirilməyib.

Modul elektrik stansiyalarını istifadəyə verəndə, onların planını ortaya qoyanda, Sumqayıt İstilik-Elektrik Stansiyasının və Şirvan Elektrik Stansiyasının tikintisini həyata keçirəndə qeyd olunmuşdu ki, bunlar əsasən Bakının və Abşeronun elektriklə təchizatını tam həyata keçirəcəklər. Ancaq reallıq bundan ibarətdir ki, yenə də əsas yük Mingəçevir Elektrik Stansiyasının üzərinə düşür. Bu qurumun rəhbərliyi açıqlama verməyə borcludur ki, 1 milyard manata başa gələn Şirvan Elektrik Stansiyası bu funksiyanı yerinə yetirə bilmir. Enerji strategiyasına görə, məhz bu iki elektrik stansiyası istifadəyə veriləndən sonra Mingəçevirdəki stansiyanın əsas gücü ixracata sərf olunmalıydı, Bakı və Abşeronun elektrik təchizatına yönəlməməli idi".

**Azərbaycanda il ərzində elektrik itkisinin həcmindən danışan İlham Şaban bildirdi ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2013-cü ildə 3,5 milyard kilovat elektrik enerjisi itkiyə gedib:** "Bu itkinin əsas hissəsi nəqletmə zamanı baş verib. Nəqletmənin əsas hissəsi Mingəçevir Elektrik Stansiyasından Bakı şəhərinə ötürmədədir. Əgər istehsal orada olmasa idi, Bakıya elektrik enerjisi yaxınlıqdakı elektrik stansiyalarından ötürülsəydi, itki də az olardı. Təəssüf ki, deyilən çox yaxşı sözlər reallıqda həyata keçirilmir. Müəyyən tədbirlər görülüb, ancaq gözlənilən hədəflərə çatmayıb".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 68 (6096) 2 aprel 2015

# "O, artıq özünü öldürmək həddinə çatıb"

## Akif Nağı Qarabağ qazisi ilə bağlı rəsmi qurumlara müraciət etdi

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı ölüm həddinə çatdırılan, 7 nəfər ailə üzvü ilə birlikdə küçədə qalan Gəncə şəhər sakini, Qarabağ əlili Kamran Məlikovun ağır vəziyyəti ilə bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümova, fövqəladə hallar naziri Kəmaləddin Heydərova və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə müraciət edib.**





**Müraciətdə göstərilir:** "Gəncə şəhər sakini, 2-ci qrup Qarabağ müharibəsi əlili Kamran Qüdrət oğlu Məlikovun bizə ünvanlanmış ərizəsi ilə bağlı Sizə müraciət edirik. Kamran Məlikov Qarabağ müharibəsində iştirak edib, döyüşlərdə ağır yaralanıb, bir gözünü itirib və bu gün 7 nəfər ailə üzvü ilə birlikdə küçələrdə qalıb, yaşamağa yeri, ailəsini saxlamağa imkanı yoxdur. Vəziyyət belə davam edərsə, küçələrə düşüb dilənməkdən başqa yolu qalmayacaq. O, artıq özünü öldürmək həddinə gəlib çatıb. Sabah özünə qəsd edəcəksə, bunun məsuliyyəti hər birimizin üzərinə düşəcək.

Vicdanı olan hər bir kəs Qarabağ əlilinin bu həddə çatmasına imkan verməməlidir".

A.Nağı bildirib ki, K.Məlikov 2003-cü ilədək Gəncə şəhəri, Cavad xan küçəsi, 79 ünvanında, dörd mənzilli binanın mənzillərindən birində yaşayıb. Həmin il zəlzələ nəticəsində bina uçub, sakinlər müvəqqəti kirayə evlərində yerləşdiriliblər. Gəncə Şəhər İcra Hakimiyyəti bir müddət onların kirayə haqqını ödəyib, icra hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi onların evlə təmin olunacaqlarına söz verib. Lakin onlara ev verilməyib, kirayə haqları da artıq 3 ildir ödənilmir. Aidiyyəti qurumlara dəfələrlə müraciət etmələrinə baxmayaraq, heç kəs bu zavallı insanlara kömək etmək istəmir.

Qarabağ əlilinə bu münasibət dövlətçiliyimizə ağır zərbədir. Burada kimin bu işlə məşğul olmalı olduğunu araşdırmağa ehtiyac yoxdur. Bu, Azərbaycan dövlətçiliyi məsələsidir, hakimiyyətin və cəmiyyətin öz vətəndaşı, özü də Vətən, torpaq qarşısında öz borcunu yerinə yetirərkən sağlamlığını itirmiş vətəndaşı qarşısında borc məsələsidir. Sizin vətəndaşların, təşkilatların müraciətinə diqqətlə yanaşdığınızı bilir, ona görə də Sizə müraciət edirik və xahiş edirik ki, məsələyə müdaxilə edəsiniz, Qarabağ əlilinin bu ağır vəziyyətdən çıxmasına yardımçı olasınız, onun özünə qəsd etməsinə imkan verməyəsiniz".

❑ **Cavid TURAN**

# Manatın yenidən ucuzlaşma məsələsi ciddiləşir...

## Ekspertlər növbəti devalvasiyanın olacağını proqnozlaşdırsalar da, Mərkəzi Bank təkzib edir...

**"Azərbaycan Mərkəzi Bankı manatın məzənnəsində hər hansı ciddi dəyişiklik gözləmir". Bunu son olaraq Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib. O, APA-ya açıqlamasında qeyd edib ki, kəskin devalvasiya gözlənilmir: "Azərbaycanda kəskin devalvasiya gözlənilmir. Lakin xarici bazarlarda baş verə biləcək hadisələr, xüsusilə neftin qiymətinin kəskin aşağı düşəcəyi halda, manat buna adaptasiya olacaq. Lakin bu gün əksər iri maliyyə institutlarının neftin qiyməti ilə bağlı proqnozları 50-55 dollardır. Neftin hazırkı qiymətləri də uzun müddətdir ki, bu zonada hərəkət edir. Bizim də cari il üzrə neftin qiyməti ilə bağlı hesablamalarımız 50-55 dollar civarındadır".**



E.Rüstəmov qeyd edib ki, gələn ilin dövlət büdcəsində neftin baza qiyməti "50 dollara hesablanacaq".

Ekspertlər isə qeyd edirlər ki, ölkədə tezliklə yeni devalvasiyaya baş verə bilər və bu, gözlənilləndir. Fevralda sərt devalvasiyaya qərar verən hökumət yenidən bu addımı bir də ata bilər. Ekspert Vüqar Bayramov isə hesab edir ki, manatın məzənnəsi ilə bağlı proqnoz vermək çətindir: "Çünki manatı bazar tənzimləmir. Manatın məzənnəsi Mərkəzi Bank tərəfindən tənzimlənir. Bəzi hallarda əsassız olaraq 1 dolların 2 manat olacağı və manatın yaxın vaxtlarda yenidən kəskin devalvasiya olunacağı ilə bağlı açıqlamaların yayılması əslində düzgün olmamaqla yanaşı, peşəkar yanaşma deyil. Manatın yenidən kəskin ucuzlaşacağı ilə bağlı məlumatların yayılması dollara tələbatı artırır. Dollara tələbat artdığı üçün Mərkəzi Bankın intervensiya xərcləri çoxalır. Nəticədə də dolların manata təzyiqi güclənir".

**Ekspert qeyd edib ki, manatın növbəti dövrdəki məzənnəsi birbaşa dünya bazarında neftin qiymətindən asılı olacaq. Çünki neftin dünya bazarında olan qiyməti Azərbaycan ixracatının çəkisini müəyyənləşdirir və eyni zamanda bu, birmənalı şəkildə ixracatda profisitin həcmini müəyyənləşdirən əsas faktordur:** "Əgər neftin dünya bazarında qiyməti bu səviyyədə qalacaqsa, praktiki olaraq növbəti aylarda Mərkəzi Bank mövcud məzənnəni qoruyub saxlayacaq. Xüsusilə manata olan inamın bərpa edilməsi üçün növbəti aylarda manatın müqayisəli şəkildə möhkəmlənməsi də ola bilər. Bu, manatın devalvasiyasından ötən bir ayda müşahidə edilir. Manatın kəskin möhkəmlənəcəyi isə proqnozlaşdırılmır".

**Onun sözlərinə görə, ilin ikinci yarısında isə neftin qiyməti və Azərbaycanın dövlət gəlirləri artarsa, manatın yenidən möhkəmlənməsi mümkündür. İndiki məqamda isə proqnoz vermək çətindir:** "Növbəti aylarda Mərkəzi Bank müəyyənləşdirdiyi təxminən 8 faizlik dəhliz daxilində manatın məzənnəsini dollara nisbətən dəyişməyə çalışacaq. Çalışacaq ki, ən azı iyun ayına qədər kəskin azalma qeydə alınmasın. Həmin dəhliz daxilində manatın məzənnəsi dəyişsin. İlin ikinci yarısında isə qonşu ölkələrdə valyutaların vəziyyəti və dünya bazarında neftin qiymətinə əsasən proqnoz vermək mümkün olacaq".

❑ **RÖYA**





# Xarici jurnalistlərə olar, yerli mediaya yox?

## "Bakı 2015" Avropa Oyunlarını işıqlandırmaq istəyən müstəqil qəzetlərə "qırmızı işıq"

**Birinci Avropa Oyunlarını işıqlandıracaq jurnalistlərlə bağlı məsələ ilk gündən mətbuatın gündəmindədir. Məlum olduğu kimi, bununla bağlı "Media Kəndi" hazırlanıb. Milli Olimpiya Komitələrinin kommunikasiya əməkdaşları ilə yanaşı, avropalı jurnalistlərin "Bakı-2015" Avropa Oyunlarına qatılması nəzərdə tutulub. Mətbuatın böyük maraq göstərməsi səbəbi ilə jurnalistlərin akkreditasiyası üçün son müraciət tarixi aprelin 3-dək uzadılıb.**

Birinci Avropa Oyunlarını 600-dən artıq beynəlxalq və yerli media nümayəndəsi işıqlandıracaq. İyunun 10-da beynəlxalq mətbuat nümayəndələri üçün tədbir təşkil ediləcək. Bu tədbiri 100-dən artıq ölkəyə yaymaq üçün 43 şirkətə yayım hüququ verilib və beləliklə də oyunları Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika və Avstraliyada izləyə biləcəklər.

Amma bu mövzuda diqqət çəkən məqam yerli media orqanlarının akkreditasiyası ilə bağlıdır. "Yeni Müsavat" iki ay bundan öncə "Media Kəndi"ndən reportaj hazırlamaq üçün Avropa Oyunlarının təşkilat komitəsinə müraciət edib. Əməkdaşlarımıza kəndin yerləşdiyi məkandan reportaj hazırlamağa icazə verilməyib. Onlara bunun üçün komitədən rəsmi icazə almaq, saytda qeydiyyata düşmək tövsiyə olunub. Deyilənlərə riayət etsək də, "Yeni Müsavat"a bu şərait yaradılmayıb. Hətta qəzetin rəhbərliyi səviyyəsində əməkdaşlarımızın qarşıdan gələn oyunları izləmək üçün akkreditasiyadan keçməsi üçün təşəbbüs edilsə də, buna rədd cavabı verilib. Halbuki Bakıda keçirilən "Eurovision" yarışmasında əməkdaşımızın akkreditasiyasına hər hansı bir əngəl yaradılmamışdı. Qəzetimizin rəhbərliyi bunu müstəqil mediaya qarşı diskriminasiya hesab edir və yarışlar başlanana qədər sözügedən problemin yoluna qoyulmasında israrlıdır.

Maraqlıdır, digər media orqanlarında vəziyyət necədir?

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov bildirdi ki, onlar akkreditasiya üçün müraciət etməyiblər. Müsahibimiz bundan sonra müraciət olunmasının nə dərəcədə faydalı olacağını da bilmir:** "Son müraciət tarixinin nə zaman olması ilə bağlı məlumatımız yoxdur. Amma əməkdaşlarımızdan heç kim akkreditasiya olunmasa belə, xəbərlərin işıqlandırılmasında hər hansı problem olmayacaq. Onsuz da xarici media bizdən daha operativ məlumat verir. İnformasiya qıtlığı hiss etməyəcəyik. İnformasiya canlı işıqlandırılacaq. Qalan digər detallı məlumatları isə xarici mediadan alacağıq".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də müraciət olunma mərhələsində iştirak etmədiklərini söylədi. Onun sözlərinə görə, bu mərhələ ümumən nəzərdən qaçırılıb:** "Bu, sırf məlumatsızlıq üzündən baş verib. Müraciət mərhələsinin nə zaman yekunlaşması barədə məlumatımız yoxdur. Yenidən müraciət edib, iştirak etmək mümkün olsaydı biz məmnuniyyətlə müraciət edərdik".

❑ **Sevinc TELMANQIZI**

# Müəllimlərin artımdan sonra nə qədər maaş alacağı açıqlandı

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi yeniliklərə əsasən, müəllimlərin əmək haqlarının artımının necə və hansı formada hesablanacağını, diaqnostik qiymətləndirmədən keçmiş müəllimlərin 1 dərs saatının dəyərinin necə hesablanacağını və artımın neçə faiz təşkil edəcəyini açıqlayıb.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Azərbaycan prezidentinin "Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əmək haqqının artırılması haqqında" 2015-ci il 16 yanvar tarixli sərəncamının icrası çərçivəsində 2015-ci ilin yanvar-mart ayları üçün əmək haqqı artımı ilə bağlı vəsait təhsil müəssisələrinin hesabına köçürülüb.

Müəllimlərin vəzifə maaşları pedaqoji stajdan asılı olaraq ali təhsilli müəllim üçün 320 manatdan 410 manatadək, orta ixtisas təhsilli müəllim üçün 290 manatdan 350 manatadək müəyyən edilib.

Sərəncama əsasən, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə artırılmaqla, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. Müəllimin vəzifə maaşının məbləğini 18 saata bölməklə, 1 saatın dəyəri müəyyən edilir. Hazırda müəllimin 1 dərs saatının dəyəri orta hesabla 34 faiz artıb.

## Falçı yazdığı duaya görə öldürülübmüş



**Bakıda falçını öldürən şəxsin adı məlum olub. Səbayel Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, martın 14-də İçərişəhər ərazisində 1970-ci il təvəllüdlü Tahir Talıbovu qətlə yetirən Goranboy rayonu Dəliməmmədli qəsəbə sakini, 1987-ci il təvəllüdlü Məhəbbət Vilayət oğlu Cahangirov yaşadığı rayonda tutularaq Bakıya gətirilib.**

M. Cahangirov ilkin ifadəsində qətl hadisəsini ona yazdığı duaya və həmin duanın onun həyatına mənfi təsir etdiyinə görə etdiyini bildirib. Polisdən M. Cahangirovun "Azəriqaz" İstehsalat Birliyinin Goranboy rayon şöbəsinin hüquqşünası olduğu bildirilib. Qeyd edək ki, martın 14-də İçərişəhər ərazisində, Firdovsi küçəsi 5 ünvanında T. Talıbovun üzərində çoxsaylı xəsarətləri olan meyiti tapılıb. Polisdən T. Talıbovun qətlə yetirildiyi ünvanda falçılıqla məşğul olduğu bildirilib.

## Şəkidə 25 yaşlı oğlan müəmmalı şəkildə öldü

**Şəkidə 25 yaşlı şəxs müəmmalı şəkildə ölüb. Şəki Şəhər-Rayon Polis Şöbəsindən APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, hadisə dünən səhər saatlarında Şəki şəhəri 1-ci rayon Haqverdiyev küçəsi, ev 3 ünvanında qeydə alınıb. 1990-cı il təvəllüdlü Mövlan Vaqif oğlu Vahabov evində ölmüş vəziyyətdə aşkarlanıb.**

Məlumata görə, dünən səhər anası oğlunu işə getmək üçün çağırmaq istəyəndə onun yatdığı yerdə hərəkətsiz vəziyyətdə olduğunu görüb. Hadisə yerinə çağırılan Şəki Rayon Mərkəzi Xəstəxanasının (RMX) Təcilli Tibbi Yardım Stansiyasının əməkdaşlarının müayinəsi zamanı 25 yaşlı Mövlan Vahabovun öldüyü müəyyən olunub. Mövlan Vahabovun ölümünün dəqiq səbəbi məhkəmə tibbi ekspertizanın rəyindən sonra məlum olacaq. Faktla bağlı araşdırma aparılır.

## Dayanacaq gözətçisi özünü yandırdı

**Bakıda 36 yaşlı kişi ofisdə özünü yandırıb. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, hadisə Nəsimi rayonu ərazisində baş verib. Bir neçə avtomobili cərimə meydançasına aparılan şəxs buna etiraz edib. Cəlilabad rayon sakini 1979-cu il təvəllüdlü Niyaməddin Fərəcov Füzuli 53-də yerləşən Evakuator xidmətinin ofisinə gələrək avtomobillərinin evakuatorla götürülməsinə irad bildirərək üzərinə benzin töküb yandırıb. N.Fərəcov 3-cü dərəcəli yanıq xəsarəti ilə 5 saylı xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.**

Nəsimi RPİ 21-ci polis bölməsində "Qafqazinfo"ya verilən məlumata görə, N.Fərəcov həmin ərazidə qanunsuz formada parkinq xidməti göstərirmiş. Buna görə də nəzarət etdiyi maşınlar polis tərəfindən cərimələnərək meydançaya aparılıb. Cərimələnən avtomobillər N.Fərəcova məxsus olmayıb. Maşın sahiblərinin ondan öz əmlaklarını tələb etməsindən sonra "stayanşik" ofisə gedərək özünü yandırıb.

## Bakıda iki nəfər bıçaqlandı

**Bakıda iki nəfər bıçaqlanıb. ANS PRESS-in Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, hadisə müxtəlif ərazilərdə baş verib. Binəqədi rayonunda qanlı hadisəni törədən şəxs saxlanılıb. Əməliyyat Binəqədi Rayon Polis İdarəsi 4-cü polis bölməsi əməkdaşları tərəfindən keçirilib.**

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində martın 30-da Sakit Kərimova bıçaqla xəsarəti yetirməklə sağlamlığına ağır zərər vuran Bakı şəhər sakini, əvvəllər məhkum olunan Hüseyn Quliyev tutulub. Daha bir bıçaqlanma hadisəsi də Nərimanov rayonunda baş verib. Nərimanov Rayon Polis İdarəsi 17-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Ramil Zalova bıçaqla xəsarət yetirməklə sağlamlığına ağır zərər vuran Bakı şəhər sakini Ümüd Sultanov tutulub. Hər iki faktla bağlı araşdırma aparılır.

## 9 il əvvəl itkin düşən kişinin meyiti tapıldı

**Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində 4 həftə əvvəl tapılmış meyitin şəxsiyyəti müəyyən edilib. ANS PRESS-in Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, əməliyyat Qaradağ Rayon Polis İdarəsi 11-ci polis bölməsi əməkdaşları tərəfindən keçirilib. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində martın 5-də Ələt qəsəbəsi ərazisində tapılmış meyitin 2006-cı ilin iyun ayında itkin düşmüş Sabirabad rayon sakini Mərifət İsmayılov olması müəyyən edilib.**

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Bakı Beynəlxalq Avtovağzalında ölüm...

**Bakı Beynəlxalq Avtovağzalında bir nəfər dünyasını dəyişib."Qafqazinfo"nun verdiyi xəbərə görə, qəfildən ölən şəxs 46 yaşlı kişi olub. Sonradan onun kimliyi də müəyyənləşib. Ölən Sabirabad rayon sakini, 1969-cu il təvəllüdlü Taryel Ağaməmmədov olub. Onun ölümünə səbəb kimi ürəkçatışmazlığı göstərilir. T.Ağaməmmədov gözləmə zalında vəfat edib.**

## Bakıda qətl törədən boksçuya hökm oxundu

**Ağır Cinayətlər Məhkəməsində adam öldürməkdə təqsirli bilininən Bakı şəhər sakini, 1978-ci il təvəllüdlü Samir Həsənovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. «Trend»in məlumatına görə, hakim Əlövsət Osmanovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə Samir Həsənov 16 il müddətinə azadlıqdan məhrum edilib. Qeyd edək ki, ötən il iyulun 12-də Biləcəri qəsəbəsində peşəkar boksçular arasında dava düşüb. Dava zamanı 33 yaşlı Fərid Həsənov və onun 37 yaşlı qardaşı Şəhriyar bıçaqlanıb. Bıçaq Fəridin arterial qan damarını kəsdiyindən həyatını xilas etmək mümkün olmayıb. Şəhriyar isə xəstəxanaya yerləşdirilib.**

Qardaşları bıçaqlayan S.Həsənov da peşəkar boksçudur. Dövlət orqanlarından birində mühafizəçisi işləyən Samirlə qardaşlar arasında mübahisə düşüb. Mübahisəyə isə deyilənə görə, tərəflərdən birinin digərinin arxasınca danışması səbəb olub. Mübahisə zamanı onlar bir-birinə qarşılıqlı söyüş söyüblər. Bu zaman Samir cibindəki bıçağı çıxararaq qardaşları vurub. Şəhriyar isə pnevmatik tapança çıxararaq Samirə bir neçə dəfə atəş açıb. Tapançanın kürəcikləri Samirin bədəninin müxtəlif yerlərinə dəyib. Onu da əlavə edək ki, hər üç şəxs bir idman zalında məşq edirmişlər.

## Sumqayıtda top mərmiləri tapıldı

**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Sumqayıt şəhərində döyüş sursatının aşkarlanması barədə məlumat daxil olub. Lent.az nazirliyin saytına istinadən xəbər verir ki, müvafiq qurumlar lazımi tədbirlərin görülməsi üçün hadisə yerinə cəlb edilib və mütəxəssislər aşkarlanmış sursata baxış keçiriblər. Məlum olub ki, bu, istifadəyə yararsız 1 ədəd 152 mm və 3 ədəd 122 mm top mərmisinin korpusudur. Sursat aidiyyəti üzrə təhvil verilib. Xilasedicilər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birlikdə əraziyə əlavə baxış keçirib və digər növ şübhəli əşya aşkar etməyiblər. Əməliyyat saat 09:14-də başa çatıb.**




## ""Azercell"ə gəl, hər ay pulsuz 5 saat qazan" kampaniyasının müddəti uzadıldı

**Azərbaycanın lider mobil operatoru, "Azercell" Novruz Bayramı ərəfəsində abunəçilərinə təqdim etdiyi ""Azercell"ə gəl, hər ay pulsuz 5 saat qazan" kampaniyasının müddətini uzatdı. İndi abunəçilər bu kampaniyadan 2015-ci il 6 aprel tarixinə qədər yararlana biləcəklər.**

**Məlumat üçün bildirək ki, "Azercell" yeni fakturasız xətt nömrələri və nömrə daşınması xidməti çərçivəsində nömrələrini "Azercell" fakturasız xətt sisteminə daşıyan abunəçiləri üçün 2015-ci il 3 mart tarixindən etibarən yeni kampaniyaya start verib. Kampaniyanın şərtlərinə görə, SimSim nömrəsi aktivləşdirən hər kəs ayda ən azı 5 AZN yükləməklə, 6 ay boyunca hər ay pulsuz 5 saat şəbəkədaxili danışıq imkanı əldə edəcək. İstifadə müddəti 7 gün olan hədiyyə saatları şəbəkədaxili zənglər üçün nəzərdə tutulub. Onu da qeyd edək ki, abunəçi nömrədə mövcud Bizimkilər tarif paketini dəyişdiyi halda, kampaniyada iştirakı dayandırılır.**

**"Azercell" bu bahar 4,5 milyonluq abunəçi ailəsini yeni kampaniyalar və xidmətlər ilə sevindirməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondorz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Elan

Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.

Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.

Tel: (051) 984-90-63

## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

## Elan

Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.

Əlaqə nömrəsi: +79283706928

# Kürdəmirdə sahibkarlara təzyiqlər var- aksiya gözlənilir...

## Dövlət başçısına şikayət məktubu göndərən vətəndaşlar hədələnir, icra başçısı isə rayonda problem olmadığını deyir...

**Martın 29-da Kürdəmirdə baş verən aksiyadan sonra rayonda gərginlik qalmaqdadır. Həbs edilən rayon sakini hələ buraxılmayıb. Həmçinin aksiyaya çıxan və dövlət başçısına məktub yazan vətəndaşlara təzyiq edilir. Rayon sakinləri bildiriblər ki, onlar yenidən dövlət başçısı İlham Əliyevə müraciət etməyə hazırlaşırlar. Eyni zamanda rayonda yenidən aksiya keçirilməsi gözlənilir.**

Bildirilir ki, martın 29-da aksiyanın keçirilməsinə səbəb yerli sakinlərdən birinin həbs edilməsidir. Həmin şəxsin Kürdəmir rayonunda mövcud olan vəziyyətdən Bakıdakı dövlət orqanlarına şikayət etdiyi qeyd edilir. Şikayətdən xəbər tutan rayon rəhbərliyi onu həbs edib. Rayon rəhbərliyinin bu addımı isə Kürdəmir sakinləri arasında ciddi narazılıq yaradıb. Nəticədə təxminən 60-70 nəfərlik bir narazı qrup Kürdəmir Rayon Məhkəməsinin qarşısında piket keçirib və Kürdəmirdəki vəziyyətdən Bakıdakı mərkəzi dövlət orqanlarına şikayət etdiyinə görə həbs olunmuş həmin şəxsin azad olunması tələb edilib. Əldə etdiyimiz məlumata görə, həbs edilən rayon sakini Əlvan Nəbiyevdir. Ona beş sutka həbs verilib. Aksiyadan sonra isə rayonda daha bir neçə vətəndaşın həbs olunduğu bildirilir.

**Sakinlərdən Natiq Məmmədov musavat.com-a bildirib ki, problem martın 6-də 25 rayon sakininin dövlət başçısı İlham Əliyevə yazdığı məktubdan sonra ciddiləşib:** "Biz ayın 6-da prezidentə məktub yazdıq, rayondakı özbaşınalıqlardan cana doyduğumuzu bildirdik. Dövlət başçısına və xanımına məktub göndərdikdən sonra bizə təzyiqlər başladı. Dükanlarımızı, mağazalarımızı sökməyə, dağıtmağa başladılar. İcra başçısı Ceyhun Cəfərov və polis rəisi Oqtay Məmmədov bizə zülm edir. Deyirlər ki, niyə prezidentə məktub yazmısınız? Hətta polis rəisi hədə-qopxu gəldi ki, siz kimsiniz, neyləyəcəksiniz? Rəis icra başçısı ilə kirvədir və birləşib bizə zülm edirlər. Deyirlər ki, rayonda dövlət bizik. Bizə edilən zülmlərin sayı-hesabı yoxdur. Dükanları bağlayanda da ərizə yazanlardan Əlvan Nəbiyevi tutublar. Guya polisə tabe olmayıb. Ərizə yazanlardan bir neçəsi polis tərəfindən təhqir edilib, döyülüb. İndi gözləyirik ki, bu işin axırı necə olacaq. Burada özünü yandırmaq, binadan atmaq istəyənlər var. Bizi İsmayıllıdakı kimi hərəkətlər etməyə məcbur edirlər".




**Rayon sakinlərindən Taleh Nəbiyev isə musavat.com-a deyib ki, dövlət başçısına şikayət məktubu göndərən vətəndaşlara təzyiqlər edilir və onlar hədələnir:** "Bizə hədə-qorxu gəlirlər, incidirlər. Deyirlər ki, şikayətimizi geri götürməsək, həbs edəcəklər. Bizi şərləyəcəkləri ilə hədələyirlər. İcra başçısı və polis rəisinin tapşırığı ilə bizimlə bu cür davranırlar. Bizim dükanlarımızı bağlasalar da, həmin ərazidəki digər dükanlar fəaliyyət göstərir. Biz prezidentə məktub yazdığımıza, rayondakı haqsızlıqları dediyimizə görə dükanlarımızı sökdülər. Rayon rəhbərliyi qeyri-qanuni işlərlə, reketliklə məşğuldur. Biz dövlət başçısına müraciət yazıb kömək istəməyə məcbur qalmışıq".

**Sakinlərin sözlərinə görə, rayonda özbaşınalıq baş alıb gedir, sahibkarlar sıxışdırılır:** "Obyektləri işlətmək üçün pul tələb edirlər. Rayonda görülən abadlıq işlərinin hamısı sahibkarların hesabınadır. Büdcədən rayona ayrılan pulları "yeyirlər", sahibkarlarsa həmin abadlıq işlərinə görə pul ödəməyə məcbur edilirlər. Biz rayondakı özbaşınalıqdan, sosial vəziyyətin bərbadlığından yazmışıq. İcra başçısı bizi işləməyə qoymur".

**Qeyd edək ki, rayonun icra başçısı Ceyhun Cəfərov məsələ ilə bağlı mətbuata açıqlamasında bildirib ki, sahibkarlara təzyiq olması fikirləri həqiqəti əks etdirmir:** "Kürdəmirdə heç bir sahibkara təzyiq edilmir. Küçə ticarəti ilə mübarizə aparılır. Bu zaman kimsə polisin qanuni tələblərinə qarşı çıxıb və müqavimət göstərib. Həmin adama məhkəmə inzibati qaydada cəza kəsib. Təəssüf ki, Kürdəmir kimi sakit rayonda bəzən belə hallar olur. Bunu sahibkarlara təzyiq kimi qiymətləndirmək düzgün deyil". O qeyd edib ki, bir neçə ildir qazılan kanalizasiya xətlərinə görə yolların vəziyyəti pisdir. İşlər maya qədər yekunlaşacaq və yollara asfalt döşənəcək. Sakinlər isə vurğulayırlar ki, yenidən piketə hazırlaşırlar. Həmçinin dövlət başçısına da yenidən məktub yazacaqlar.

❑ **Röya RƏFİYEVA**

# Yapışqansız, mismarsız xariqələr yaradan şəbəkə ustası

## Hüseyn usta: "Kürə formasında olan şəbəkə dünyanın heç yerində yoxdur..."

**Taxta və rəngli şüşələrdən yapışqansız, mismarsız xariqələr yaradan Hüseyn Hacımustafazadənin əl işləri nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da böyük maraq doğurur. Əsərləri bir sıra xarici ölkələrin muzeylərini bəzəyir, sərgilərdə nümayiş etdirilir. Söhbət şəbəkə sənətindən gedir.**

27 ildir bu işlə məşğul olan Hüseyn usta işin incəliyini mərhum Əşrəf ustadan öyrənib. 15 yaşından bu sənətə xüsusi marağı olan Hüseyn kişinin artıq öz tələbələri də var.

Şəkinin sənətkarlar evindəki emalatxanasında şəbəkə düzəldə-düzəldə şirin Şəki ləhcəsi ilə bu işin incəliyindən danışan sənətkar şəbəkə sənətinin min ilə yaxın bir tarixi olduğunu bildirdi: "Şəbəkənin özəlliyi ondadır ki, yapışqandan və mismardan istifadə olunmur. Bir şəbəkə hazırlamaq üçün əvvəlcə onun eskizi çəkilir. Daha sonra taxta hissələr hazırlanır. Təkcə bir hissəni hazırlamaq üçün 12 dəfə əməliyyat etməli olursan. Şəbəkədə 5 min ədəd taxta və şüşə hissə olduğunu və onların hər bir hissəsinin 10-12 əməliyyata hazırlandığını nəzərə alsaq, orta ölçülü şəbəkədə 50 min əməliyyat aparıldığını və hissələr hazırlandığını görərik. Buna görə də orta ölçülü bir şəbəkənin hazırlanmasına 5-6 ay vaxt sərf edilir. Şəbəkədə istifadə edilən taxta əsasən şərq çinarından hazırlanır. Ən incə, ən gözəl şəbəkə Şəki Xan Sarayındadır. O şəbəkədən dünyanın heç yerində yoxdur. İncəliyinə və gözəlliyinə görə hamısından seçilir. Şəki Xan Sarayındakı şəbəkələrin hamısı şərq çinarından hazırlanıb və artıq 250 yaşı var. Şərq çinarının özəlliyi elastik olmasındadır. 2000-2005-ci illərdə Şəki Xan Sarayının 70 faizini bərpa etmişik. Şəbəkələrin 30 faizi isə 250 il keçməsinə baxmayaraq yaxşı qalıb. Şəbəkədə istifadə edilən taxtalar çürüməyib. Taxta hissələrin 250 ilə çürüməməsinin səbəbi isə onların buxarda bişməsidir. Ümumiyyətlə, şəbəkədə istifadə olunan taxta buxarda bişirilir və əlif yağında saxlanılır. Adi taxtaya dumanlı hava, rütubət tez təsir edir və beləcə taxta çürüyür ya da genişlənir. Amma bu cür taxtalara heç nə təsir etmir".

**Taxtalar yerli olsa da şüşələri xaricdən gətirtdiyini deyən Hüseyn usta şüşə tapmağın bir az çətin olduğunu dedi:** "250 il qabaq Şəki Xan Sarayı işlənən zaman Hüseyn xan ustalar üçün şüşələri Venesiyadan gətirərmiş. Həmin şüşələrdən istifadə etmək ustalar üçün rahat idi. Çünki onların qalınlığı bir millimetr idi. Azərbaycanda şüşə istehsal edilmir. Hazırda isə şəbəkə düzəltmək üçün Rusiya şüşələrindən istifadə edirik. Onun da qalınlığı 3 millimetrdir. Onu kəsmək çətindir. Şəki Xan Sarayında elə şəbəkələr var ki, onun bir kvadrat metrinə 15 min hissə gedir. Həmin şəbəkəyə şüşələr makkaşla qoyulur, əllə yığmaq mümkün deyil".

**Emalatxanadakı kürə formasında olan qeyri-adi bir şəbəkə diqqətimizi çəkdi. Bu şəbəkə diqqətimizi ona görə çəkdi ki, daha əvvəl bu tipdə şəbəkə heç yerdə görməmişdik. Həmçinin onun hazırlanması digər şəbəkələrlə müqayisədə çətin görünürdü. Düşüncələrimizdə yanılmamışdıq. Kürə formasında olan bu şəbəkənin dünyada analoqu olmadığını deyən usta onun öz ixtirası olduğunu və bu şəbəkəyə görə bir çox uğurlar qazandığını dedi:** "Kürə formasında olan bu şəbəkəni 38 ölkənin iştirak etdiyi beynəlxalq festivalda sərgiyə qoymuşam və birincilik qazanmışam. Lövhə şəkilli şəbəkələrə ərəb ölkələrində rast gəlinir. Amma kürə formasında şəbəkə dünyanın heç yerində yoxdur. Kürə formasında şəbəkəni hazırlamaq daha çətindir. Düşünün ki, eskizi fəzada, heç bir yapışqan və mismardan istifadə etmədən qurursunuz. Bu şəbəkəyə misirli ustalar baxıb öz heyranlıqlarını gizlədə bilməmişdilər. Onlar bu cür şəbəkənin eskizini işləməyin belə çətin olduğunu və "bunu heç vaxt bacara bilmərik" demişdilər. Avropalıların Tiflisdə keçirdiyi Gürcüstan, Ermənistan və Azərbaycanın iştirak etdiyi festivalda bu şəbəkə Qafqaz üzrə birinci yeri tutub. Bundan başqa, Cəfəri adlı bir şəbəkə növü var ki, respublikada bu işlə heç kim məşğul olmur. Bu şəbəkə Azərbaycana və sırf Şəkiyə aiddir. Bu şəbəkənin özəlliyi ondadır ki, düz yox, əymə-kəsmə hissələrlə hazırlanır. Hazırda bu cür şəbəkələrdən birini düzəldirəm. Bunu mənə Macarıstanda Mədəniyyət Mərkəzi üçün sifariş veriblər".







**Emalatxanadakı kiçik xan taxtı da diqqətimizi çəkdi. Xanın taxtının şəbəkədən kiçik formasını düzəldəcəyini deyən usta bu işin ona Xan Sarayının rəhbərliyi tərəfindən sifariş verildiyini bildirdi:** "Xanın şəbəkədən hazırlanan kiçik taxtı hazır olan kimi Şəki Xan sarayına qoyulacaq. Bilirsiniz ki, Çar Rusiyası dövrü Hüseyn xanın taxtı başqa muzeylərə aparılıb. Hazırda onun sarayda taxtı yoxdur. Ona görə də bunu simvolik olaraq saraya qoyacaqlar. Hazırladığım taxtın alçaq olmasına səbəb Hüseyn xanın təvazökar olması ilə bağlıdır".

**Qədim tarixə malik olan şəbəkə sənətinin hələ də yaşadığını və böyük marağın olduğunu deyən Hüseyn usta şəbəkələrin qiyməti haqda da məlumat verməyi unutmadı:** "Şəbəkənin 1 kvadratmetrinin qiyməti min manatdan başlayır. Turistlər daha çox kiçik ölçülü şəbəkələri suvenir kimi alırlar. Yerli camaat isə bəzən qapı və pəncərəsinin şəbəkədən olmasını istəyir və gəlib alır. Dövlət sifarişləri də olur. Məsələn, Gəncədə Şah Abbas məscidini, Şəki Xan Sarayını və Bakının bir çox məscidlərini, həmçinin Bərdədə İmamzadə ziyarətgahının qədim şəbəkələrini yenidən bərpa etmişəm".

Sonda Hüseyn usta ilə səbir, təmkin tələb edən, çətinliyi çox olan, ancaq eyni zamanda qədimliyi və gözəlliyi ilə insanı heyran edən bu cür şəbəkələrin və uğurlarının çox olması diləyi ilə sağollaşdıq.

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

N 68 (6096) 2 aprel 2015




## Kələmin faydası

Kələm ən faydalı tərəvəzlərdən biridir. Kələm C vitamini ilə xüsusilə zəngindir. Bu vitaminin miqdarı kələmdə sitrus meyvələrdə olandan da çoxdur. C vitamini immun sisteminə müsbət təsir edir, damarların divarlarını bərkidir, iştahanı artırır. C vitamini həmçinin təbii antioksidantdır. O, orqanizmdə gedən qocalma prosesləri ilə mübarizə aparır. Bundan əlavə, kələmdə nadir U vitamini də var. Bu möcüzəli vitamin selikli qişalarda olan zədələnmələri bərpa edir. Məhz bu səbəbdən kələm və kələm şirəsi mədə və 12 barmaq bağırsağın xorası və erroziyaları olan insanlar üçün çox xeyirlidir. Kələm həmçinin K, PP, B qrupu vitaminlər və kalsium, kalium, dəmir, sink, fosfor, yod kimi mineral maddələrlə zəngindir. Təzə kələm qəbizliklə mübarizədə ən yaxşı və sınanmış vasitələrdən biridir. Kələm orqanizmi toksinlər və digər ziyanlı maddələrdən təmizləyir, arıqlamağa kömək edir. Kələm yodla xüsusilə zəngindir. Bu mikroelement beynin və qalxanvari vəzin normal fəaliyyəti üçün olduqca vacibdir.

# Oğluna avtobusda böyrək tapdı

Amerikanın Mane ştatında yaşayan qadın oğlu üçün axtardığı böyrəyi avtobusda tapıb. Kristin Royles adlı oğlanın adı uzun müddət imiş ki, beynəlxalq orqan siyahısında imiş. Kristinin anası oğluna daha tez böyrək tapmaq üçün oğluna böyrək axtardığı haqda elan yazaraq avtobusun şüşəsinə yapışdırıb. Çox keçmədən elanı görən bir nəfər Kristinin anasına zəng edərək oğluna böyrəyini verə biləcəyini deyib. Dall-Leighton adlı kişi gənc qadının düşdüyü durumun ona təsir etdiyini və bu səbəbdən belə bir qərar verdiyini deyib. 24 yaşlı oğlan bir neçə gün sonra əməliyyat ediləcək və anasının tapdığı böyrəklə həyatına davam edə biləcək.



# Niyə pis yuxu görürük?

**Zamanla hər birimiz qorxulu yuxular görürük. Qorxulu, pis yuxular bəzi insanlarda müəyyən psixi pozuntulara gətirib çıxara bilər. Pis yuxular - əsəb pozmaqla yanaşı, hətta bəzən həyatımızı təsiri altına ala bilər.**

**1) Qayğı və stress -** ümumiyyətlə, pis bir hadisə nəticəsində yaranan qayğı və stress pis yuxu görmənin əsas səbəblərindəndir. Əsas olan bir əməliyyat və ya xəstəlik, sevilən birinin itkisi, bir qəzada qurban və ya şahid olmaq pis yuxu görmənizə səbəb ola bilər.

**2) Acı və ədviyyatlı yeməklər -** nəyi nə vaxt yediyimizin gördüyümüz yuxular üzərində böyük təsiri var. Acı və ədviyyatlı yeməklər bədən istiliyini və maddələr mübadiləsi fəaliyyətlərini artıraraq yuxuda narahat olmanıza səbəb ola bilər.

**3) Yeməklərdəki yağ miqdarı -** araşdırmalar göstərir ki, gün içində nə qədər yağ miqdarı yüksək yemək yeyilərsə, pis yuxu görmə ehtimalı da o qədər artır. Daha çox təbii qidalara üstünlük verənlər, gün cips, şokolad, biskvit yeyənlərə nisbətən daha seyrək pis yuxu görürlər.

**4) Alkoqol -** alkoqolun qısa müddətdə yuxu yaratmaq təsiri olsa da, erkəndən oyanmağa səbəb olduğu üçün zərərlidir. Çox alkoqoldan istifadə pis yuxu görmənin səbəblərindən biridir. Eyni zamanda pis yuxular alkoqolu tərkidən insanlarda da tez-tez görülməkdədir.

**5) Dərmanlar -** yatızdırıcı təsirli və narkotiklər kimi dərmanlar, yan təsir olaraq pis yuxuya səbəb ola bilər. Məsələn, bir araşdırmada, "Ketamin" adı verilən və narkotik olaraq istifadə edilən maddəyə baxıldığında, pis yuxulara səbəb olduğu aydın olmuşdur.

**6) Xəstəlik -** Qrip kimi qızdırmalı xəstəliklər bəzən pis yuxulara səbəb ola bilər. Yuxuda nəfəsin kəsilməsi ya da çox yatmaq kimi digər yuxu pozuqluqları da pis yuxu görmə sıxlığını artırır.





## Dünyanın 10 ən təhlükəli ölkəsi

İraq və Suriya təhlükəli ölkələr sırasında liderdir. Vaşinqtonda yerləşən "IntelCenter" təşkilatı dünyanın ən təhlükəli ölkələrinin siyahısını dərc edib. Təşkilat araşdırmanı terrorçular və silahlılarla bağlı vəziyyətə əsasən hazırlayıb. İraq, Əfqanıstan, Pakistan və Ukrayna dünyanın 10 ən təhlükəli ölkələri sırasında yer alıb. Belə ki, İraq və Suriya təhlükəli ölkələr sırasında ilk 2 yeri tutur. Onluqda Nigeriya üçüncü, Somali dördüncü, Əfqanıstan beşinci, Liviya altıncı, Yəmən yeddinci, Pakistan səkkizinci, Ukrayna doqquzuncu, Misir onuncu sırada qərarlaşıb.

## Qoroskop




**QOÇ** - Ümumi götürdükdə uğurlu təqvim hesab etmək olar. Əksəriyyətlə müqayisədə daha çox büdcə artımı sizdə gözlənilir. Bu da hazırkı problemlərin həllinə kömək edə bilər. Bu gün yeni təkliflər də mümkündür.

**BUĞA** - Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlər zəminində müsbət dönüş yaratmaq üçün kifayət qədər şanslarınız var. Atacağınız hər bir addımı dönə-dönə ölçüb-biçin.

**ƏKİZLƏR** - Sağlıq durumunuzu nəzarətdə saxlaya bilsəniz, gün ərzində heç bir probleminiz olmayacaq. Nahardan sonra doğmalarınız və sevdiyiniz adamlarla daha mehriban davranın.

**XƏRÇƏNG** - İşlərinizin çoxluğu fiziki cəhətdən yorğunluğunuza səbəb ola bilər. Lakin nəticənin uğurluluğunu nəzərə alıb usanmayın. Etibar etmədiyiniz adamların məsləhətlərinə əhəmiyyət verməyin.

**ŞİR** - Qərarlarınızda qəti və ədalətli olsanız, heç bir xoşagəlməzliyin şahidi olmayacaqsınız. Çalışın ki, bahalı əşyalar, o cümlədən daşınmaz əmlak alqı-satqısında iştirak etməyəsiniz.

**QIZ** - Mənfi yüklü Ay bürcünüzdə olduğu üçün gün darıxdırıcı keçəcək, lakin hisslərinizi cilovlamağı bacarmalısınız. Çünki bu gün sizi böyük işlər gözləyir. Əsas vaxtınızı məhəbbətə həsr edin.

**TƏRƏZİ** - Ulduzlar boş-boşuna oturmağınızı məsləhət görmür. Ən azı ona görə ki, artıq bürcünüzün aktiv ərəfəsi başlayıb. Şəxsi büdcənizdə və sevgi münasibətlərinizdə uğurlar da gözlənilir.

**ƏQRƏB** - Yeni görüş və məsləhətləşmələrdə iştirakınız gözlənilir. Qarşınızı kəsən maneələr yavaş-yavaş səngiməyə başlayacaq. Yaşca sizdən böyük olan təcrübəli adamlardan yararlanın.

**OXATAN** - Yeni işgüzar əlaqələr qurmaq üçün Göy qübbəsi şanslarınızı artıracaq. Amma gərək təşəbbüskarlıq qarşı tərəfdən olsun. Bu gün şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.

**OĞLAQ** - Kifayət qədər düşərli gündür. Ulduzlar gün ərzində nəzərdə tutduğunuz planların reallaşmasına təkan verəcək. Sadəcə, şəraitə uyğun addım atmalısınız. Günahlardan uzaq olmağa çalışın.

**SUTÖKƏN** - Təxminən saat 15-ə qədər bütün mühüm işlərinizi təxirə salın. Əks təqdirdə, uğursuz cəhdlər silsiləsinə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə maraqlı hadisə və insanlarla rastlaşacaqsınız.

**BALIQLAR** - Ulduzlar sizə pul vəd edir. Bu səbəbdən əsas gücünüzü deyilən istiqamətə yönəldin. Fəaliyyət və məhəbbət istiqamətində də sevindirici olaylar da baş verə bilər. Sirrinizi yalnız sirdaşa verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İkinci uşaq üçün bəhslər başladı



İngiltərə taxtının varisi Şahzadə Ulyam və həyat yoldaşı Keyt Midiltonun bu ayın sonunda dünyaya gələn uşaqları üçün mərc başlayıb. Uşağın cinsiyyəti haqda ictimaiyyətə məlumat verilmədiyindən adının nə olacağı haqda mərclər başlayıb. Bukmeykerlər bu mərc üçün ortaya böyük pullar qoyublar. Deyilən adlar arasında ən çox qız adları var. Bir çoxları uşağın adının "Alice" ola biləcəyini deyirlər. Çünki kralllıq ailəsinin Alice adlı bir üzvü olub. Ənənənin davam etdirilməsi üçün uşağın adının Alice olması çox önəmlidir.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300